AZƏRBAYCAN RESPUBLİKASI
NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏHKƏMƏSİ

# BÜLLETEN

№ 2 (40)

Naxçıvan – 2025


*Biz hüquqi dövləti, demokratik dövləti yaradırıq. Bunun da ən prinsipial bir hissəsi məhkəmə sistemində islahatların keçirilməsi, onun beynəlxalq hüquq normalarına uyğunlaşdırılmasıdır.*
*Heydər Əliyev*

**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**ALİ MƏHKƏMƏSİNİN BÜLLETENİ**

*Bülleten 2006-cı ildən etibarən ildə iki dəfə dərc edilir.*
*Rəsmi sayt: www.nsupremecourt.gov.az*

# M Ü N D Ə R İ C A T

**Buraxılış üçün məsul şəxs:**
*A.Ə.Hüseyn*

**Redaktor:**
*M.K.Həsənov*

**Redaksiya heyəti:**
*S.Ş.Bəylərli*
*M.D.Allahverdiyev*
*M.Ə.Əliyev*
*C.G.Bayramova*
*Y.F.Xəlilov*
*A.N.İmanova*
*T.M.Əlizadə*

**Məsul katib:**
*G.Ə.Qurbanova*

**Redaksiyanın ünvanı:**
*Naxçıvan şəhəri, Atatürk küçəsi, 19*

*Tel: 550-96-76*
*Faks: 544-61-80*

## Yeni sənədlər, normativ aktlar

*Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu*.............................................**6**

*"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 225-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı*..............................................................**25**

*Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin yaradılmasının 100 illiyi münasibətilə bir qrup şəxsin təltif edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı*..................................**30**

*F.M.Abbasovun Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı*...............................................................**31**

*Apellyasiya instansiyası məhkəmələri sədrlərinin müavinlərinin, məhkəmə kollegiyaları sədrlərinin, birinci instansiya məhkəmələri hakimlərinin, sədrlərinin və sədr müavininin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamından Çıxarış* .......................**32**

*Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının*

*Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu* ........................................................................................**33**

*"Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 281-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı*..................................................................*47*

*A.Ə.Hüseynin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı*..........................................................................**49**

*A.Ə.Hüseynin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı* ........................................................................................**49**

*Apellyasiya instansiyası məhkəməsinin kollegiya sədrinin, birinci instansiya məhkəməsi sədrinin və bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamından Çıxarış* ............................................................................................**50**

## Məhkəmə fəaliyyəti

### Mülki Kollegiyadan

*Məhkəmə fəaliyyətinə dair 2025-ci ilin birinci yarımili üzrə statistik məlumatların təhlili*.......................................................................... **51**

### Kommersiya Kollegiyasından

*Məhkəmə fəaliyyətinə dair 2025-ci ilin birinci yarımili üzrə statistik məlumatların təhlili* ........................................................................**59**

### İnzibati Kollegiyadan

*Məhkəmə fəaliyyətinə dair 2025-ci ilin birinci yarımili üzrə statistik məlumatların təhlili* ........................................................................**61**

### Cinayət Kollegiyasından

*Məhkəmə fəaliyyətinə dair 2025-ci ilin birinci yarımili üzrə statistik məlumatların təhlili* ........................................................................**63**

## Vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan məhkəmə aktları

*Mülki işlər üzrə vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan qərarlar*.......................................................................................**76**

*İnzibati xətalara dair işlər üzrə vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan qərarlar*...............................................................**80**

*İnzibati mübahisələrə dair işlər üzrə vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan qərarlar* ............................................. **82**

## Nəzəriyyə və hüquqtətbiqetmə problemləri

*Hüquqi mövqe ilə bağlı məhkəmə qərarlarının presedent gücü və müraciətlərə təkrar baxılmasının dinamikası: praktik və nəzəri baxış*.......................................................................................**86**

## Azad tribuna

*Təqsirsizlik prezumpsiyasına dair İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin mövqeyinə dair mülahizələr*........................................**92**

## Ali Məhkəmənin mətbuat xidmətindən

*2025-ci ilin iyul - dekabr aylarında keçirilən tədbirlərin xülasəsi*.......................................................................................**97**

## Hakim studiyası

*“Hakim studiyası” televiziya verilişinin icmalı*.................................**113**



# YENİ SƏNƏDLƏR, NORMATİV AKTLAR

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alır:

Maddə 1. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, № 1, maddə 18, № 2, maddə 135, № 4, maddə 362, № 5 (I kitab), maddələr 487, 489, 492, 503, № 7, maddələr 750, 768, 771, 772, № 12 (I kitab), maddə 1280, (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddələr 1, 15, № 2, maddə 99, № 3, maddə 217; Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 138-VIIQD nömrəli, 7 mart tarixli 152-VIIQD nömrəli, 11 aprel tarixli 178-VIIQD nömrəli və 1 may tarixli 189-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 18.5-ci və 18.6-cı maddələrdə "127-4.5-ci" sözləri "127-3.6-cı" sözləri ilə əvəz edilsin;

1.2. 38.6-cı maddə, 9-cu fəslin adı və 45-ci maddə aşağıdakı redaksiyada verilsin:

"38.6. İnzibati tənbeh vermə haqqında elektron qərar (bu Məcəllənin 122.1-ci maddəsində nəzərdə tutulmuş inzibati tənbeh vermə haqqında elektron qərara münasibətdə isə həmçinin onun əlavəsi (foto və ya video materiallar), habelə səlahiyyətli orqanlar (vəzifəli şəxslər) tərəfindən inzibati xəta haqqında iş üzrə nömrələnmiş blanklarda tərtib edilmiş qərar 24 saat müddətində şəxs üçün internet informasiya resursunda yaradılan elektron kabinetdə yerləşdirilmədikdə, şəxs (əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər istisna olmaqla) inzibati məsuliyyətə cəlb oluna bilməz.";

"FƏSİL 9
İnzibati xətalar haqqında işlər barədə elektron informasiya ehtiyatları və sistemləri və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi";

"Maddə 45. İnzibati xətalar haqqında işlər barədə elektron informasiya ehtiyatları və sistemləri

45.1. Törədilmiş inzibati xətalar və həmin xətaları törətmiş şəxslər barədə məlumatların uçotu, sistemləşdirilməsi, saxlanılması, habelə inzibati xətalar haqqında işlərə baxılması ilə əlaqədar proseslərin həyata keçirilməsi məqsədilə inzibati xətalar haqqında işlərə baxmağa və inzibati xətalar haqqında protokol tərtib etməyə səlahiyyətli orqanlar (vəzifəli şəxslər) inzibati xətalar haqqında işlər barədə elektron informasiya sistemlərini (ehtiyatlarını) (bu Məcəllənin Ümumi hissəsinin məqsədləri üçün bundan sonra – informasiya sistemi) yaradırlar və həmin informasiya sistemlərinin fəaliyyətini təmin edirlər.

45.2. Səlahiyyətli orqanlar (vəzifəli şəxslər) baxdıqları inzibati xəta haqqında iş üzrə nömrələnmiş blanklarda tərtib edilmiş qərar barəsində aşağıdakı məlumatların 24 saat müddətində (bu Məcəllənin 45.6-cı maddəsində nəzərdə tutulan hallar istisna olmaqla) informasiya sisteminə daxil edilməsini təmin etməlidirlər:

45.2.1. inzibati xəta törətmiş şəxs haqqında məlumat (fiziki və ya vəzifəli şəxslərin soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi (əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin müvəqqəti, yaxud daimi yaşamaq üçün icazə vəsiqələrinin, habelə qaçqın vəsiqəsinin seriyası və nömrəsi), yaşadığı və olduğu yerin ünvanı, hüquqi şəxsin adı, VÖEN-i, hüquqi və faktiki ünvanları);

45.2.2. inzibati xətanın törədildiyi yer, vaxt və bu xətanın mahiyyəti;

45.2.3. inzibati xətaya görə məsuliyyət nəzərdə tutan bu Məcəllənin müvafiq maddəsi;

45.2.4. inzibati xətanın törədilməsi nəticəsində şəxsin sağlamlığına yüngül bədən xəsarəti yetirilmişdirsə və ya maddi zərər vurulmuşdursa, bu hallar barədə qeydlər;

45.2.5. inzibati xəta haqqında işin baxılması tarixi və yeri;

45.2.6. inzibati xəta haqqında iş üzrə qərarı çıxarmış vəzifəli şəxsin vəzifəsi, soyadı, adı, atasının adı, kollegial orqanın adı və tərkibi;

45.2.7. inzibati xəta haqqında iş üzrə qərarın tarixi və nömrəsi;

45.2.8. tətbiq edilmiş inzibati tənbeh haqqında məlumat;

45.2.9. tətbiq edilmiş inzibati tənbehin icrası barədə məlumat;

45.2.10. inzibati xəta haqqında iş üzrə icraat üçün zəruri olan digər məlumatlar.

45.3. Səlahiyyətli orqanlar (vəzifəli şəxslər) inzibati xəta haqqında işə baxarkən nömrələnmiş blanklarda tərtib edilən qərardadlar barədə bu Məcəllənin 118.1-ci maddəsində nəzərdə tutulan məlumatların 24 saat müddətində (bu Məcəllənin 45.6-cı maddəsində nəzərdə tutulan hal istisna olmaqla) informasiya sisteminə daxil edilməsini təmin etməlidirlər.

45.4. İnzibati xəta haqqında protokol tərtib etməyə səlahiyyətli orqanlar (vəzifəli şəxslər) nömrələnmiş blanklarda tərtib edilmiş inzibati xəta haqqında protokol barədə bu Məcəllənin 100.5-ci maddəsində nəzərdə tutulan məlumatların həmin protokol baxılması üçün göndərilməzdən əvvəl, lakin hər bir halda tərtib olunduğu vaxtdan 24 saatdan gec olmayaraq (bu Məcəllənin 45.6-cı maddəsində nəzərdə tutulan hallar istisna olmaqla) informasiya sisteminə daxil edilməsini təmin etməlidirlər.

45.5. Səlahiyyətli orqanlar (vəzifəli şəxslər) inzibati xəta haqqında protokol tərtib etdikləri iş üzrə məhkəmə tərəfindən çıxarılmış inzibati xəta haqqında iş üzrə qərarla bağlı məlumatların bu Məcəllənin 117.3-cü maddəsində nəzərdə tutulmuş qaydada informasiya sisteminə daxil edilməsini təmin etməlidirlər.

45.6. Bu Məcəllənin 124.4-cü maddəsinə uyğun olaraq bort-kompüter vasitəsilə tərtib edilmiş protokol və qərar, habelə informasiya sistemləri vasitəsilə tərtib edilmiş protokol və qərar (qərardad) bu Məcəllənin 45-2.3-cü maddəsində nəzərdə tutulmuş qaydada çap edildikdən dərhal sonra səlahiyyətli orqanın informasiya sistemində yerləşdirilir.

45.7. Səlahiyyətli orqanların informasiya sistemlərində tərtib olunmuş inzibati xəta haqqında elektron protokollar və inzibati xəta haqqında iş üzrə elektron qərarlar bu Məcəllənin 45-2.3-cü maddəsində nəzərdə tutulmuş qaydada təsdiq olunduqdan dərhal sonra həmin orqanın informasiya sistemində yerləşdirilir.”;

1.3. aşağıdakı məzmunda 45-1-ci və 45-2-ci maddələr əlavə edilsin:

“Maddə 45-1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi

45-1.1. İnzibati xəta haqqında protokolların və inzibati xəta haqqında iş üzrə qərarların (qərardadların) mərkəzləşdirilmiş qaydada uçotunu və izlənilməsini təmin etməklə bu Məcəlləyə əsasən tətbiq edilmiş cərimələrin dövlət büdcəsinə və (və ya) inzibati cərimə növündə inzibati tənbeh vermə barədə qərar (elektron qərar) qəbul etmiş səlahiyyətli orqanların hesablarına hesablanan və köçürülən hissəsinə dair məlumatların təhlil edilməsi və həmin məlumatların düzgünlüyü üzrə nəzarətin həyata keçirilməsi

məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi (bundan sonra – "İCMAL" informasiya sistemi) yaradılır.

45-1.2. İnzibati xəta haqqında protokolların və inzibati xəta haqqında iş üzrə qərarların (qərardadların), o cümlədən elektron protokol və elektron qərarların unikal nömrə verilməklə izlənilməsinin təmin edilməsi üçün həmin sənədlər barədə məlumatlar bu Məcəllənin 45-2-ci maddəsində nəzərdə tutulmuş qaydada "İCMAL" informasiya sisteminə ötürülür.

45-1.3. Cərimə növündə inzibati tənbeh tətbiq etməni nəzərdə tutan inzibati xəta haqqında iş üzrə qərarlara, o cümlədən elektron qərarlara "İCMAL" informasiya sistemi vasitəsilə unikal nömrə verilmədən həmin qərarların icra olunması (o cümlədən dəbbə pulunun hesablanması) tələb edilə bilməz.

45-1.4. "İCMAL" informasiya sisteminin saxlanılması, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və maddi təminatının yaxşılaşdırılması məqsədilə bu Məcəlləyə əsasən tətbiq edilən cərimələrdən dövlət büdcəsinə daxil olan vəsaitin 5 faizi həmin orqanın xəzinə hesabına köçürülür.

Maddə 45-2. İnzibati xəta haqqında protokollar və inzibati xəta haqqında iş üzrə qərarlar (qərardadlar) barəsində məlumatların "İCMAL" informasiya sisteminə ötürülmə qaydası

45-2.1. Bu Məcəllənin 45.2–45.4-cü maddələrinə uyğun olaraq səlahiyyətli orqanın informasiya sisteminə daxil edilmiş inzibati xəta haqqında protokollar və inzibati xəta haqqında iş üzrə qərarlar (qərardadlar) barədə məlumatlar dərhal "İCMAL" informasiya sisteminə ötürülür. Bu məlumatlar əsasında həmin protokola və qərara (qərardada) "İCMAL" informasiya sistemində real vaxt rejimində və avtomatlaşdırılmış qaydada unikal nömrə verildikdən sonra həmin protokol və qərar (qərardad) və həmin sənədlər üzrə informasiya sistemində yerləşdirilmiş məlumat səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən bu Məcəllənin 57-1.1.1-ci və 57-1.1.2-ci maddələrində nəzərdə tutulmuş qaydada barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin məlumatlandırılması üçün dərhal müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə göndərilir.

45-2.2. Məhkəmə tərəfindən çıxarılmış inzibati xəta haqqında iş üzrə qərarla bağlı məlumatların "İCMAL" informasiya sisteminə ötürülməsi bu Məcəllənin 117.3-cü maddəsində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

45-2.3. Səlahiyyətli orqanların informasiya sistemlərində tərtib edilmiş elektron protokol və inzibati tənbeh vermə haqqında elektron qərar

gücləndirilmiş elektron imza ilə təsdiq edilməmişdən əvvəl, habelə informasiya sistemləri vasitəsilə və ya bu Məcəllənin 124.4-cü maddəsinə uyğun olaraq bort-kompüter vasitəsilə tərtib edilmiş protokol və qərar isə nömrələnmiş blanklarda çap edilməzdən əvvəl "İCMAL" informasiya sisteminə ötürülür. "İCMAL" informasiya sistemində real vaxt rejimində və avtomatlaşdırılmış qaydada unikal nömrə verilmiş elektron protokol (protokol) və elektron qərar (qərar) səlahiyyətli orqanların informasiya sistemlərinə ötürüldükdən sonra onu tərtib edən şəxs tərəfindən dərhal müvafiq olaraq təsdiqlənir və ya nömrələnmiş blanklarda çap edilərək imzalanır.

45-2.4. Bu Məcəllənin 45-2.3-cü maddəsinə uyğun olaraq unikal nömrə verilməklə tərtib olunmuş sənədlər bu Məcəllənin 57-1.1.1-ci və 57-1.1.2-ci maddələrində nəzərdə tutulmuş qaydada barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin məlumatlandırılması üçün real vaxt rejimində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə göndərilir.

45-2.5. İtirilmiş, zədələnmiş (korlanmış) blanklar, habelə bu Məcəllənin 45-2.3-cü maddəsində nəzərdə tutulmuş qaydada unikal nömrə verildikdən sonra təsdiqlənməmiş və ya nömrələnmiş blanklarda çap edilməmiş sənədlər barədə məlumatlar dərhal, lakin hər bir halda tərtib olunduğu vaxtdan 24 saatdan gec olmayaraq "İCMAL" informasiya sisteminə ötürülür.";

1.4. 54-cü maddə üzrə:

1.4.1. 54.4-cü maddənin üçüncü cümləsində "və ya" sözləri "və" sözü ilə əvəz edilsin;

1.4.2. aşağıdakı məzmunda 54.4-1-ci maddə əlavə edilsin:

"54.4-1. İnzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərar və ya inzibati xəta haqqında işin başlanmasının rədd edilməsi haqqında əsaslandırılmış qərardad "Elektron prokurorluq" informasiya sistemi vasitəsilə elektron sənəd formasında tərtib olunur. Sanksiyasında inzibati cərimə növündə inzibati tənbeh tədbiri nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə qərar (qərardad) təsdiq edilməmişdən əvvəl "İCMAL" informasiya sisteminə ötürülür. "İCMAL" informasiya sistemində real vaxt rejimində və avtomatlaşdırılmış qaydada unikal nömrə verilmiş qərar (qərardad) "Elektron prokurorluq" informasiya sisteminə ötürüldükdən sonra müvafiq səlahiyyətli əməkdaşın gücləndirilmiş elektron imzası ilə dərhal təsdiqlənir.";

1.4.3. 54.5-ci maddənin ikinci cümləsinə "(vəzifəli şəxsə)" sözlərindən sonra "Elektron prokurorluq" informasiya sistemi vasitəsilə" sözləri əlavə edilsin;

1.5. 57-ci maddə üzrə:

1.5.1. aşağıdakı məzmunda 57.5-1-ci maddə əlavə edilsin:

“57.5-1. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin (əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər istisna olmaqla) məlumatlandırılması üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə göndərilmiş inzibati xəta haqqında protokollar, o cümlədən elektron protokollar, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərarlar (qərardadlar), o cümlədən elektron qərarlar aşağıdakı hallarda da rəsmi qaydada verilmiş hesab olunur:

57.5-1.1. inzibati xəta törətmiş şəxsin elektron kabinetində olan mobil telefon nömrəsinə inzibati xəta haqqında bu Məcəllənin 57-1.1.2-ci maddəsində nəzərdə tutulan qaydada SMS məlumat çatdırıldığı vaxtdan;

57.5-1.2. inzibati xəta törətmiş şəxs bu Məcəllənin 57-1.1.1-ci maddəsində nəzərdə tutulan qaydada onun elektron kabinetinə yerləşdirilmiş sənədlər və onların əlavələri ilə tanış olduğu vaxtdan (elektron kabinetdə mobil telefon nömrəsi olmadığı halda).”;
1.5.2. 57.6.1-ci, 57.6.2-ci və 57.7-ci maddələr ləğv edilsin;

1.6. aşağıdakı məzmunda 57-1-ci maddə əlavə edilsin:

“Maddə 57-1. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin sənədlər barədə məlumatlandırılması

57-1.1. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs bu Məcəllənin 45-2-ci maddəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə göndərilmiş sənədlər (inzibati xəta haqqında protokol, o cümlədən elektron protokol və inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərar (qərardad), o cümlədən elektron qərar barədə bu Məcəllənin 57-1.4-cü maddəsi nəzərə alınmaqla aşağıdakı qaydada məlumatlandırılır:

57-1.1.1. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi vasitəsilə bu Məcəllənin 57-1.1-ci maddəsində göstərilən sənədlər və onların əlavələri barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin elektron kabinetində dərhal yerləşdirilir və elektron ünvanına (olduğu halda) göndərilir;

57-1.1.2. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi vasitəsilə şəxsin elektron kabinetində olan mobil telefon nömrəsinə inzibati xəta törətməsi, törətdiyi xətanın qısa məzmunu, xətanın törədildiyi yer və vaxt, bu Məcəllənin hansı maddəsinə əsasən inzibati məsuliyyətə cəlb olunması, tətbiq edilmiş inzibati tənbeh

haqqında məlumat, o cümlədən cərimənin məbləği və ödənilməsi qaydası barədə məlumat, bu Məcəllənin

57-1.1-ci maddəsində göstərilən müvafiq sənədin nömrəsi, həmin sənədlə və ona əlavə edilmiş materiallarla tanış ola biləcəyi elektron kabinetin internet ünvanı və daxilolma qaydası barədə ödənişsiz SMS məlumatı dərhal göndərilir;

57-1.1.3. səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərar (qərardad), o cümlədən elektron protokol və elektron qərar əlavə edilmiş materiallarla birlikdə səlahiyyətli orqanlar (vəzifəli şəxslər) tərəfindən kağız daşıyıcıda çap olunaraq, bu Məcəllənin 57.1–57.5-ci maddələrində nəzərdə tutulmuş rəsmi qaydada verilməsi üçün 2 iş günü müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) göndərilir.

57-1.2. İnternet informasiya resursunda yaradılmış elektron kabinetdə şəxsin hansı tarixdə inzibati xəta haqqında protokol və inzibati tənbeh vermə haqqında qərar barədə bu Məcəllənin 57-1.1-ci maddəsində nəzərdə tutulmuş qaydada məlumatlandırılması haqqında qeyd yerləşdirilməlidir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi bu Məcəllənin 57-1.1.2-ci maddəsində nəzərdə tutulmuş SMS məlumatın şəxsə çatdırıldığı vaxt barədə və bu Məcəllənin 57-1.1.1-ci maddəsində nəzərdə tutulan qaydada onun sənəd və onun əlavələri ilə tanış olduğu vaxt barədə məlumatları "İCMAL" informasiya sisteminə və həmin sənədləri tərtib etmiş səlahiyyətli orqanların informasiya sistemlərinə göndərməli, həmçinin həmin məlumatları şəxsin elektron kabinetinə yerləşdirməli və onun elektron ünvanına (olduğu halda) göndərməlidir.

57-1.3. Səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərarın (qərardadın), o cümlədən elektron protokol və elektron qərarın bu Məcəllənin 57.1–57.5-ci maddələrində nəzərdə tutulmuş qaydada "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sifarişli poçt göndərişi vasitəsilə rəsmi çatdırılması barədə məlumatlar 1 gün müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən səlahiyyətli orqanların informasiya sistemlərinə və "İCMAL" informasiya sisteminə göndərilir.

57-1.4. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barəsində inzibati xəta haqqında protokol və inzibati xəta haqqında iş üzrə qərar nömrələnmiş blankda tərtib edildikdə, həmin sənədlərin kağız daşıyıcıda surəti onlara yerində verilir (iş materialları və bu Məcəllədə nəzərdə tutulan hüquqları barədə məlumatlarla tanış ola biləcəyi internet ünvanı şəxsə bildirilir). Əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin səlahiyyətli orqanların

informasiya sistemlərində tərtib edilmiş elektron protokollar və elektron qərarlar barədə məlumatlandırılması, olduğu halda onların mobil telefon nömrəsinə bu barədə SMS məlumatı göndərilməklə və ya bu Məcəllənin 57-1.3-cü maddəsinə uyğun olaraq həyata keçirilir.”;

1.7. 58.0.5-ci maddəyə “olmama,” sözündən sonra “sənədi qəbul etməkdən imtina,” sözləri əlavə edilsin;

1.8. 76.1-ci maddənin ikinci cümləsindən “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemində, habelə digər” sözləri çıxarılsın;

1.9. 81-1-ci maddə üzrə:

1.9.1. 81-1.1-ci maddədən “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminin, habelə digər” sözləri çıxarılsın;

1.9.2. 81-1.2-ci maddədə “Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminin, habelə digər” sözləri “İnzibati xətanın aşkarlanmasında istifadə olunan” sözləri ilə əvəz edilsin;

1.10. 89.7-ci maddədə “və ya” sözləri “və” sözü ilə əvəz edilsin;

1.11. 97.5-ci maddədə “surəti” sözü “habelə protokola əlavə kimi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müvafiq informasiya sistemində yerləşdirilir, ikinci nüsxəsi” sözləri ilə əvəz edilsin;

1.12. 99-cu maddə üzrə:

1.12.1. 99.1.1-ci maddədən “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi, habelə digər” sözləri çıxarılsın;

1.12.2. 99.7-ci maddədə “və ya” sözləri “və” sözü ilə əvəz edilsin;

1.13. 100-cü maddə aşağıdakı redaksiyada verilsin:

“Maddə 100. İnzibati xəta haqqında protokol

100.1. Bu Məcəllənin 54-cü maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, inzibati xətanın törədilməsi haqqında protokol tərtib edilir.

100.2. İnzibati xəta haqqında protokol ciddi hesabat sənədi olmaqla, əl ilə və ya informasiya sistemləri vasitəsilə nömrələnmiş blanklarda və ya səlahiyyətli orqanların informasiya sistemlərində elektron qaydada tərtib olunur. Bu Məcəllənin 327–356-cı maddələrində nəzərdə tutulmuş yol hərəkəti qaydaları, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan inzibati xətalarla bağlı protokol inzibati xəta hadisəsi səlahiyyətli vəzifəli şəxs tərəfindən bilavasitə aşkar edildikdə bu Məcəllə ilə müəyyən edilmiş qaydada bort-

kompüter vasitəsilə, bort-kompüter olmadıqda isə əl ilə nömrələnmiş blanklarda tərtib olunur.

100.3. Protokol tərtib edilərkən, barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxsə və ya hüquqi şəxsin nümayəndəsinə, habelə inzibati xəta haqqında iş üzrə icraatın digər iştirakçılarına bu Məcəllədə nəzərdə tutulmuş hüquqları və vəzifələri izah edilir.

100.4. Protokol nömrələnmiş blankda tərtib edildikdə onu tərtib etmiş şəxs, barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxs və ya hüquqi şəxsin nümayəndəsi tərəfindən imzalanır və protokolun surəti barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxsə və ya hüquqi şəxsin nümayəndəsinə verilir. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxs və ya hüquqi şəxsin nümayəndəsi protokolu imzalamaqdan imtina etdikdə, bu barədə protokolda müvafiq qeyd aparılır. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxsin və ya hüquqi şəxsin nümayəndəsinin izahatlar və protokolun məzmunu barəsində öz mülahizələrini təqdim etmək, habelə protokolu imzalamaqdan imtina etmələrinin səbəblərini göstərmək hüquqları vardır. Onların bu izahatları və mülahizələri protokola əlavə olunur. İnzibati xəta haqqında iş üzrə zərərçəkmiş şəxsin də inzibati xəta haqqında protokolun surətini almaq hüququ vardır.

100.5. Nömrələnmiş blankda tərtib edilmiş inzibati xəta haqqında protokolda aşağıdakılar göstərilir:

100.5.1. protokolun tərtib edildiyi tarix, vaxt və yer;

100.5.2. protokolu tərtib etmiş şəxsin vəzifəsi, soyadı, adı, atasının adı;

100.5.3. barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs haqqında məlumat (fiziki və ya vəzifəli şəxslərin soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi (əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin müvəqqəti, yaxud daimi yaşamaq üçün icazə vəsiqələrinin, habelə qaçqın vəsiqəsinin seriyası və nömrəsi), yaşadığı və olduğu yerin ünvanı, hüquqi şəxsin adı, VÖEN-i, hüquqi və faktiki ünvanları);

100.5.4. inzibati xətanın törədildiyi yer, vaxt və bu xətanın mahiyyəti;

100.5.5. inzibati xətaya görə məsuliyyət nəzərdə tutan bu Məcəllənin müvafiq maddəsi;

100.5.6. olduğu halda şahidlərin və zərərçəkmiş fiziki şəxslərin soyadı, adı, atasının adı və onların yaşadığı və olduğu yerin ünvanı, hüquqi şəxsin adı, VÖEN-i, hüquqi və faktiki ünvanları;

100.5.7. barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxsin və ya hüquqi şəxsin nümayəndəsinin izahatları;

100.5.8. inzibati xətanın aşkar edilməsində xüsusi texniki vasitələrdən istifadə olunmuşdursa, onların göstəriciləri, habelə istifadə olunmuş xüsusi texniki vasitənin tipi, markası, modeli, yerləşdiyi yer, ölçmə vasitəsinin son dəfə müqayisəli dövlət yoxlamasından keçdiyi vaxt (bunu təsdiq edən sənədin nömrəsi, tarixi) və növbəti yoxlamanın keçirilməli olduğu vaxt barədə məlumatlar;

100.5.9. inzibati xətanın törədilməsi nəticəsində şəxsin sağlamlığına yüngül bədən xəsarəti yetirilmişdirsə və ya maddi zərər vurulmuşdursa, bu hallar barədə qeydlər;

100.5.10. inzibati xəta haqqında iş üzrə icraat üçün zəruri olan digər məlumatlar.

100.6. Yol hərəkəti qaydaları, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan inzibati xətalarla bağlı tərtib edilən inzibati xəta haqqında protokolda bu Məcəllənin 100.5-ci maddəsində nəzərdə tutulanlarla yanaşı aşağıdakılar da göstərilir:

100.6.1. nəqliyyat vasitəsinin markası, dövlət qeydiyyat nişanı;

100.6.2. törədilmiş inzibati xətaya görə nəqliyyat vasitəsini idarə etmək hüququnun məhdudlaşdırılması növündə inzibati tənbehin tətbiq edilməsi nəzərdə tutulduğu halda, götürülən sürücülük vəsiqəsinin seriyası və nömrəsi, nəqliyyat vasitəsini müvəqqəti idarə etmək hüququ verən sənədin seriyası və nömrəsi;

100.6.3. sürücü nəqliyyat vasitəsinin idarə olunmasından kənarlaşdırıldığı halda, kənarlaşdırılma səbəbi.

100.7. Səlahiyyətli orqanların informasiya sistemlərində elektron protokolun tərtib edilmə qaydası, habelə həmin protokolda göstərilən məlumatlar bu Məcəllənin 127-3-cü maddəsi ilə müəyyən edilir.

100.8. Protokolun, o cümlədən elektron protokolun forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.”;

1.14. 104-cü maddə üzrə:

1.14.1. 104.4-cü maddədə “qərarın surətini” sözləri “qərarı səlahiyyətli orqanların informasiya sistemləri vasitəsilə, bu mümkün olmadıqda isə onun kağız daşıyıcıda surətini poçt vasitəsilə” sözləri ilə əvəz edilsin;

1.14.2. 104.6-cı maddənin birinci cümləsində “onun surətini” sözləri “Elektron prokurorluq” informasiya sistemi vasitəsilə, bu mümkün olmadıqda isə onun kağız daşıyıcıda surətini poçt vasitəsilə” sözləri ilə əvəz edilsin;

1.15. 105.2-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin: “Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs səlahiyyətli

orqan (vəzifəli şəxs) tərəfindən qəbul edilmiş inzibati xəta haqqında işin icraatına xitam verilməsi haqqında qərar barədə bu Məcəllənin 57-1.1-ci maddəsində nəzərdə tutulmuş qaydada məlumatlandırılır.”;

1.16. 110.3-cü maddədə “mərkəzi” sözü “müəyyən etdiyi orqanın (qurumun) müvafiq” sözləri ilə əvəz edilsin;

1.17. 114-cü maddə üzrə:

1.17.1. 114.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

“114.4. Səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərar (qərardad) ciddi hesabat sənədi olmaqla, əl ilə və ya informasiya sistemləri vasitəsilə nömrələnmiş blanklarda, o cümlədən elektron qərar səlahiyyətli orqanların informasiya sistemlərində tərtib olunur. Bu Məcəllənin 327–356-cı maddələrində nəzərdə tutulmuş yol hərəkəti qaydaları, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan inzibati xətalarla bağlı inzibati tənbeh vermə haqqında qərar bu Məcəllə ilə müəyyən edilmiş qaydada bort-kompüter vasitəsilə, bort-kompüter olmadıqda isə əl ilə nömrələnmiş blanklarda tərtib olunur (bu Məcəllənin 122.1-ci maddəsində nəzərdə tutulan hal istisna olmaqla).”;

1.17.2. aşağıdakı məzmunda 114.5-ci maddə əlavə edilsin:

“114.5. Səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərarın (qərardadın), o cümlədən elektron qərarın forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.”;

1.18. 115.1.5-ci maddədə “və” sözü vergül işarəsi ilə əvəz edilsin və həmin maddəyə “növü” sözündən sonra “, o cümlədən inzibati cərimənin məbləği və ödənilməsi qaydası barədə məlumat” sözləri əlavə edilsin;

1.19. aşağıdakı məzmunda 117.3-cü və 117.4-cü maddələr əlavə edilsin:

“117.3. Məhkəmə inzibati xəta haqqında iş üzrə qərar qəbul etdiyi vaxtdan 3 gün müddətində onu həmin iş üzrə inzibati xəta haqqında protokolu tərtib etmiş səlahiyyətli orqana (vəzifəli şəxsə) və ya inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərar qəbul etmiş prokurora və barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin məlumatlandırılması üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə, habelə həmin qərar barədə məlumatı “İCMAL” informasiya sisteminə göndərir. Səlahiyyətli orqan (vəzifəli şəxs) və ya prokuror həmin qərar daxil olduğu vaxtdan 3 gün müddətində bu Məcəllənin 115.1-ci maddəsində nəzərdə tutulan məlumatları müvafiq olaraq səlahiyyətli orqanın informasiya sisteminə və ya “Elektron prokurorluq” informasiya sisteminə yerləşdirir.

117.4. Barəsində inzibati xəta haqqında iş üzrə qərar çıxarılmış şəxs məhkəmə tərəfindən çıxarılan inzibati xəta haqqında iş üzrə qərarlar barədə bu Məcəllənin 57-1.1-ci maddəsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq məlumatlandırılır.”;

1.20. 122-ci maddə üzrə:

1.20.1. 122.1-ci maddənin birinci cümləsinə “şəklində” sözündən sonra “və bu Məcəllənin 122.1-1-ci maddəsinə uyğun olaraq “İCMAL” informasiya sistemi tərəfindən unikal nömrə verilməklə” sözləri əlavə edilsin;

1.20.2. aşağıdakı məzmunda 122.1-1-ci maddə əlavə edilsin: “122.1-1. Foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrin məlumatları əsasında tərtib edilmiş inzibati tənbeh vermə haqqında elektron qərar təsdiq edilməmişdən əvvəl unikal nömrə verilməsi üçün “İCMAL” informasiya sisteminə ötürülür və həmin qərara real vaxt rejimində və avtomatlaşdırılmış qaydada unikal nömrə verildikdən sonra təsdiqlənməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müvafiq informasiya sisteminə göndərilir.”;

1.20.3. 122.2-ci maddədə “mərkəzi” sözü “müəyyən etdiyi orqanın (qurumun) müvafiq” sözləri ilə əvəz edilsin;

1.20.4. 122.4-cü maddədə “125.2-ci” sözləri “57-1.1-ci” sözləri ilə əvəz edilsin;

1.20.5. 122.6-cı maddədə “125.2.1, 125.2.2 və ya 125.2.3-cü maddələrində” sözləri “57-1.1-ci maddəsində” sözləri ilə əvəz edilsin;

1.20.6. 122.7-ci maddənin birinci cümləsində dördüncü halda “və ya” sözləri “və” sözü ilə əvəz edilsin;

1.21. 123-cü maddə üzrə:

1.21.1. 123.1-ci maddədə “mərkəzi” sözü “müəyyən etdiyi orqanın (qurumun) müvafiq” sözləri ilə əvəz edilsin;

1.21.2. 123.2-ci maddə üzrə:

1.21.2.1. ikinci cümləyə “olmadan” sözündən sonra “bu Məcəllənin 124.4-cü maddəsi ilə müəyyən olunmuş qaydada” sözləri əlavə edilsin;

1.21.2.2. üçüncü cümlədə “İnzibati tənbeh vermə haqqında qərar həmin günün sonunadək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müvafiq informasiya sistemində yerləşdirilir və barəsində” sözləri “Barəsində” sözü ilə, “125.2-ci” sözləri “57-1.1-ci” sözləri ilə əvəz edilsin;

1.22. 124-cü maddə üzrə:

1.22.1. 124.1-ci maddə üzrə:

1.22.1.1. ikinci cümlə aşağıdakı redaksiyada verilsin: “Məhkəmənin inzibati xəta haqqında iş üzrə qəbul etdiyi qərarının göndərilməsi, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müvafiq informasiya sisteminə ötürülməsi bu Məcəllənin 117.3-cü maddəsində nəzərdə tutulmuş qaydada və müddətdə həyata keçirilir.”;

1.22.1.2. üçüncü cümlə çıxarılsın;

1.22.1.3. dördüncü cümlədə “125.2-ci” sözləri “57-1.1-ci” sözləri ilə əvəz edilsin;

1.22.2. 124.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

“124.4. İnzibati tənbeh vermə haqqında qərar və ya inzibati xəta haqqında protokol operativ nəqliyyat vasitəsində quraşdırılmış bort-kompüter vasitəsilə bu Məcəllənin 45-2.3-cü maddəsinə uyğun olaraq “İCMAL” informasiya sistemi tərəfindən unikal nömrə verilməklə tərtib olunur və dərhal müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müvafiq informasiya sistemində yerləşdiriləräk, nömrələnmiş blankda çap ediləräk imzalanır. Bort-kompüter olmadıqda əl ilə nömrələnmiş blankda tərtib edilmiş protokol və ya qərar 24 saat müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müvafiq informasiya sisteminə daxil edilir və bu Məcəllənin 45-2.1-ci maddəsinə uyğun olaraq bu barədə məlumat dərhal “İCMAL” informasiya sisteminə ötürülür. Bu məlumatlar əsasında həmin protokola və qərara “İCMAL” informasiya sistemində real vaxt rejimində və avtomatlaşdırılmış qaydada unikal nömrə verildikdən sonra həmin protokol və qərar real vaxt rejimində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müvafiq informasiya sisteminə göndərilir.”;

1.22.3. aşağıdakı məzmunda 124.4-1-ci maddə əlavə edilsin: “124.4-1. Bu Məcəllənin 124.4-cü maddəsində nəzərdə tutulmuş qaydada tərtib edilmiş inzibati tənbeh vermə haqqında qərarın və ya inzibati xəta haqqında protokolun kağız daşıyıcıda surəti səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən yerində barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsə, həmçinin belə müraciəti olduqda inzibati xəta haqqında iş üzrə zərərçəkmiş şəxsə verilir. Bu Məcəllənin 124.3-cü maddəsində nəzərdə tutulmuş hallarda inzibati xəta haqqında protokol baxılması üçün yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) göndərilir. Yuxarı səlahiyyətli orqan (vəzifəli şəxs) həmin iş üzrə bu Məcəllənin 124.4-cü maddəsinə uyğun olaraq əl ilə nömrələnmiş blankda tərtib edilmiş qərar qəbul edir.”;

1.22.4. 124.5-ci maddənin üçüncü cümləsinə birinci halda “qərar” sözündən sonra “bu Məcəllənin 124.4-cü maddəsində nəzərdə tutulmuş qaydada” sözləri əlavə edilsin və həmin cümlədən “və barəsində inzibati

xəta haqqında iş üzrə icraat aparılan şəxsə həmin qərar barədə bu Məcəllənin 125.2-ci maddəsində nəzərdə tutulmuş qaydada məlumat verilir" sözləri çıxarılsın;

1.22.5. 124.6-cı maddənin üçüncü cümləsinə birinci halda "qərar" sözündən sonra "bu Məcəllənin 124.4-cü maddəsində nəzərdə tutulmuş qaydada" sözləri əlavə edilsin və həmin cümlədən "və barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsə həmin qərar barədə bu Məcəllənin 125.2.1 və 125.2.2-ci maddələrində nəzərdə tutulmuş qaydada məlumat verilir" sözləri çıxarılsın;

1.23. 125-ci maddə üzrə:

1.23.1. 125.1-ci maddədə ", həmçinin müvafiq icra hakimiyyəti orqanının informasiya sisteminə yerləşdirilir" sözləri "inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin məlumatlandırılması üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə göndərilir" sözləri ilə əvəz edilsin;

1.23.2. 125.2-ci maddə üzrə:

1.23.2.1. birinci abzasda "aşağıdakı" sözü "bu Məcəllənin 57-1.1-ci maddəsində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin və həmin abzasın sonunda iki nöqtə işarəsi nöqtə işarəsi ilə əvəz edilsin;

1.23.2.2. 125.2.1–125.2.3-cü maddələr ləğv edilsin;

1.23.3. 125.3-cü və 125.4-cü maddələr ləğv edilsin;

1.23.4. 125.6-cı maddədə "mərkəzi" sözü "müəyyən etdiyi orqanın (qurumun) müvafiq" sözləri ilə əvəz edilsin;

1.24. 126-cı maddə üzrə:

1.24.1. 126.1-ci maddənin birinci cümləsində "və ya" sözləri "və" sözü ilə əvəz edilsin;

1.24.2. 126.3-cü maddəyə "qərarlar" sözündən sonra "əl ilə nömrələnmiş blankda tərtib edilərək bu Məcəllənin 124.4-cü maddəsinə uyğun olaraq" sözləri əlavə edilsin və həmin maddədə "125.2-ci" sözləri "57-1.1-ci" sözləri ilə əvəz edilsin;

1.25. 127-ci maddədə "125.2-ci" sözləri "57-1.1-ci" sözləri ilə əvəz edilsin;

1.26. 127-1.1-ci maddənin ikinci cümləsində və 127-1.5-ci maddədə "mərkəzi" sözü "müvafiq" sözü ilə əvəz edilsin;

1.27. 16-1-ci fəslin adı, 127-3-cü və 127-4-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"FƏSİL 16-1

Dövlət informasiya sistemlərindən (ehtiyatlarından) istifadə edilməklə aşkar olunmuş inzibati xətalarla bağlı işlərə baxılmanın xüsusiyyətləri";

"Maddə 127-3. İnzibati xəta dövlət informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar edildikdə icraatın aparılması qaydası

127-3.1. Bu Məcəllənin 191.2-ci, 192.1-ci, 192.3-cü, 194-cü, 195.2-ci, 469-1-ci, 477-1.1.2-ci, 477-1.1.4-cü və 540.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar üzrə dövlət informasiya sistemlərindən (ehtiyatlarından) istifadə edilməklə aşkar olunmuş inzibati xətalar haqqında işlərə, bu fəsillə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla, bu Məcəllə ilə müəyyən edilmiş qaydada baxılır.

127-3.2. Bu Məcəllənin 127-3.1-ci maddəsində göstərilən inzibati xətalar dövlət informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar edildikdə, inzibati xətanı törətmiş şəxsin iştirakı olmadan real vaxt rejimində səlahiyyətli orqanların informasiya sistemlərində "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada və bu Məcəllənin 45-2.3-cü maddəsinə uyğun olaraq "İCMAL" informasiya sistemi tərəfindən unikal nömrə verilməklə elektron sənəd şəklində hüquqi şəxslər, o cümlədən onların vəzifəli şəxsləri barəsində inzibati xəta haqqında elektron protokol tərtib olunur, fiziki və vəzifəli şəxslər (hüquqi şəxs barəsində elektron protokol tərtib edilmədiyi halda) barəsində isə inzibati tənbeh vermə haqqında elektron qərar çıxarılır və səlahiyyətli orqanın müvafiq səlahiyyətli əməkdaşının gücləndirilmiş elektron imzası ilə təsdiqlənir.

127-3.3. Səlahiyyətli orqanların informasiya sistemlərində tərtib edilən inzibati xəta haqqında elektron protokolda aşağıdakı məlumatlar göstərilir:

127-3.3.1. protokolun tərtib edildiyi tarix və vaxt;

127-3.3.2. inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan orqanın və həmin protokolu tərtib etmək üçün istifadə edilən dövlət informasiya sisteminin (ehtiyatının) adı;

127-3.3.3. inzibati xətanın törədilməsi ilə bağlı müəyyən edilən (aşkar olunan) məlumatlar;

127-3.3.4. barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan vəzifəli şəxs haqqında (soyadı, adı, atasının adı, vəzifəsi, fərdi identifikasiya nömrəsi və yaşadığı ünvan) və hüquqi şəxs haqqında (adı, VÖEN-i, hüquqi və faktiki ünvanları) məlumatlar;

127-3.3.5. inzibati xətaya görə məsuliyyət nəzərdə tutan bu Məcəllənin müvafiq maddəsi və həmin maddə üzrə cərimənin məbləği;

127-3.3.6. bu Məcəllənin 127-3.6-cı və 127-3.7-ci maddələrinin izahı.

127-3.4. Dövlət informasiya sistemlərindən (ehtiyatlarından) istifadə edilməklə aşkar olunmuş inzibati xətalarla bağlı çıxarılan inzibati tənbeh vermə haqqında elektron qərarda aşağıdakılar göstərilir:

127-3.4.1. qərarın çıxarıldığı tarix və vaxt;

127-3.4.2. inzibati xətalar haqqında işlər üzrə qərar qəbul etmək səlahiyyəti olan orqanın və həmin qərarı çıxarmaq üçün istifadə edilən dövlət informasiya sisteminin (ehtiyatının) adı;

127-3.4.3. inzibati xətanın törədilməsi ilə bağlı müəyyən edilən (aşkar olunan) məlumatlar;

127-3.4.4. barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki və ya vəzifəli şəxs haqqında məlumatlar (soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi (əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin müvəqqəti, yaxud daimi yaşamaq üçün icazə vəsiqələrinin, habelə qaçqın vəsiqəsinin seriyası və nömrəsi), yaşayış yeri və olduğu yer, doğum tarixi, fiziki şəxs işlədiyi halda iş yeri, sahibkarlıq fəaliyyəti ilə məşğul olduqda VÖEN-i, vəzifəli şəxsə münasibətdə habelə vəzifəsi);

127-3.4.5. inzibati xətaya görə məsuliyyət nəzərdə tutan bu Məcəllənin müvafiq maddəsi;

127-3.4.6. inzibati cərimənin məbləği və ödənilməsi qaydası barədə məlumatlar;

127-3.4.7. inzibati tənbeh vermə haqqında elektron qərardan bu Məcəllənin 127-4.1-ci maddəsinə uyğun olaraq şikayətin verilməsi qaydası və müddəti.

127-3.5. Dövlət informasiya sistemlərinin (ehtiyatlarının) məlumatları inzibati xəta haqqında iş üzrə icraat başa çatanadək və hər bir halda barəsində inzibati icraat aparılan şəxs inzibati xəta haqqında iş üzrə qərar barədə bu Məcəllənin 57-1-ci maddəsində nəzərdə tutulmuş qaydada məlumatlandırıldığı vaxtdan üç aydan az olmayan müddətdə saxlanılmalıdır.

127-3.6. Barəsində bu Məcəllənin 127-3.2-ci maddəsində nəzərdə tutulmuş qaydada inzibati xəta haqqında elektron protokol tərtib edilmiş hüquqi şəxs, o cümlədən onun vəzifəli şəxsi qeyd olunan inzibati cəriməni həmin protokol barədə bu Məcəllənin 57-1-ci maddəsində nəzərdə tutulmuş qaydada məlumatlandırıldığı vaxtdan on gün müddətində ödədikdə protokolla razılaşmış olur və həmin protokol eyni məzmunlu inzibati tənbeh vermə haqqında elektron qərar hesab edilir.

127-3.7. Barəsində bu Məcəllənin 127-3.2-ci maddəsində nəzərdə tutulmuş qaydada inzibati xəta haqqında elektron protokol tərtib edilmiş hüquqi şəxs, o cümlədən onun vəzifəli şəxsi bu Məcəllənin 127-3.6-cı maddəsində nəzərdə tutulmuş müddətdə cəriməni ödəmədikdə həmin protokol baxılması üçün iki gün müddətində səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən məhkəməyə göndərilir.

127-3.8. Bu Məcəllənin 127-3.2-ci maddəsinə əsasən inzibati xəta haqqında elektron protokol tərtib edildikdə və yaxud inzibati tənbeh vermə haqqında elektron qərar çıxarıldıqda inzibati cərimənin məbləği həmin inzibati xətaya görə məsuliyyət nəzərdə tutan bu Məcəllənin müvafiq maddəsinin sanksiyasında nəzərdə tutulan cərimənin aşağı həddində müəyyən olunur.

127-3.9. Barəsində inzibati xəta haqqında elektron protokol tərtib edilmiş və ya inzibati tənbeh vermə haqqında elektron qərar çıxarılmış şəxs bu Məcəllənin 57-1-ci maddəsi ilə müəyyən edilmiş qaydada məlumatlandırıldığı vaxtdan təyin olunmuş cəriməni ödəniş kartı və digər ödəmə alətləri vasitəsilə ödəyə bilər.

Maddə 127-4. Dövlət informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar olunmuş inzibati xəta haqqında iş üzrə çıxarılan inzibati tənbeh vermə haqqında elektron qərardan şikayətə baxılma qaydası

127-4.1. Barəsində bu Məcəllənin 127-3.2-ci maddəsində nəzərdə tutulmuş qaydada inzibati tənbeh vermə haqqında elektron qərar çıxarılmış fiziki şəxs və ya vəzifəli şəxs qərarla razılaşmadığı hallarda həmin qərar ona bu Məcəllənin 57-ci maddəsi ilə müəyyən olunmuş rəsmi qaydada verildiyi vaxtdan iyirmi gün müddətində yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) və məhkəməyə şikayət verə bilər. Şikayət şəxsən verilə və ya poçt, yaxud internet vasitəsilə elektron qaydada göndərilə bilər.

127-4.2. Dövlət informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar olunmuş inzibati xəta haqqında iş üzrə səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən çıxarılan inzibati tənbeh vermə haqqında elektron qərarlardan şikayət verildikdə, yuxarı səlahiyyətli orqan (vəzifəli şəxs) araşdırma aparmaqla qərarın ləğv edilməsi üçün əsaslar müəyyən edərsə, inzibati xəta haqqında iş üzrə elektron qərarı ləğv edir, belə əsaslar müəyyən olunmadıqda isə inzibati xəta haqqında iş üzrə elektron qərarın dəyişdirilmədən saxlanılması barədə qərar qəbul edir.

127-4.3. Bu Məcəllənin 127-4.2-ci maddəsində nəzərdə tutulmuş qərarlar müvafiq səlahiyyətli orqanın informasiya sistemində yerləşdirilir və həmin qərar "İCMAL" informasiya sisteminə və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.";

1.28. 127-5-ci və 127-6-cı maddələr ləğv edilsin;

1.29. 128.2-ci maddənin birinci abzasında ikinci halda və 128.2.3-cü maddədə "və ya" sözləri "və" sözü ilə əvəz edilsin;

1.30. 130.1-ci maddədə "maddəsində" sözü "və 127-4.1-ci maddələrində" sözləri ilə, "57.1–57.5-ci maddələrində" sözləri "57-ci maddəsində" sözləri ilə əvəz edilsin;

1.31. aşağıdakı məzmunda 136.2-1-ci və 136.2-2-ci maddələr əlavə edilsin:

"136.2-1. İnzibati xəta haqqında iş üzrə qərardan verilən şikayət və ya protest üzrə məhkəmə qərarlarının səlahiyyətli orqana (vəzifəli şəxsə) və prokurora göndərilməsi, müvafiq sistemlərə yerləşdirilməsi, ötürülməsi bu Məcəllənin 117.3-cü maddəsində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

136.2-2. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin və zərərçəkmiş şəxsin yuxarı səlahiyyətli orqanın (vəzifəli şəxsin) inzibati xəta haqqında iş üzrə qərardan verilən şikayət üzrə çıxarılan qərarları barədə məlumatlandırılması bu Məcəllənin 57-1-ci maddəsində nəzərdə tutulmuş qaydada həyata keçirilir.";

1.32. 150-ci maddə üzrə:

1.32.1. aşağıdakı məzmunda 150.1-1-ci maddə əlavə edilsin:

"150.1-1. İnzibati cərimə növündə inzibati tənbeh vermə haqqında səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarı qanuni qüvvəyə mindiyi gündən 10 gün müddətində icra edilərsə, tətbiq olunan cərimənin 10 faizi məbləğində ödənişdən azadolma tətbiq edilir.";

1.32.2. 150.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"150.4. İnzibati cərimə ödəniş kartı və digər ödəmə alətləri vasitəsilə ödənilir. Cərimənin ödənilməsi qaydası barədə müvafiq məlumat inzibati xətanı törətmiş şəxsə bu Məcəllənin 57-1.1-ci və 57-1.4-cü maddələrinə uyğun olaraq verilir. İnzibati cərimənin ödənilməsi ilə əlaqədar məlumatlar real vaxt rejimində elektron qaydada səlahiyyətli orqanların informasiya sistemlərinə və "İCMAL" informasiya sisteminə göndərilir.";

1.32.3. 150.5-ci maddədə "qərarın" sözü "qərar elektron qaydada, bu mümkün olmadıqda isə onun kağız daşıyıcıda" sözləri ilə əvəz edilsin;

1.32.4. 150.11-ci maddənin yeddinci cümləsi çıxarılsın;

1.32.5. 150.13-1-ci maddəyə "göndərilir" sözündən sonra "və bu barədə məlumat "İCMAL" informasiya sisteminə ötürülür" sözləri əlavə edilsin;

1.32.6. 150.14-cü maddə ləğv edilsin;

1.32.7. aşağıdakı məzmunda 150.17-ci maddə əlavə edilsin:

"150.17. İnzibati cərimələrin qaytarılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.";

1.33. 339.5-ci maddənin dispozisiyası üzrə:

1.33.1. "123.2,", ", 125.4" və ", 125.3" rəqəmləri çıxarılsın;

1.33.2. ikinci halda "Məcəllənin" sözündən sonra "57-1.3," rəqəmləri, üçüncü halda "Məcəllənin" sözündən sonra "57-1.2," rəqəmləri əlavə edilsin;

1.33.3. "mərkəzi" sözü "müəyyən etdiyi orqanın (qurumun) müvafiq" sözləri ilə əvəz edilsin.

Maddə 2. Keçid müddəalar

2.1. Bu Qanun 2025-ci il avqustun 1-dən qüvvəyə minir.

2.2. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 45-ci maddəsində nəzərdə tutulan inzibati xətalar haqqında işlər barədə elektron informasiya ehtiyatları və sistemləri mövcud olmayan səlahiyyətli orqanlar öz elektron informasiya ehtiyatının və sisteminin yaradılmasını təmin edənə qədər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemində həmin orqanlar üçün yaradılmış elektron kabinetlərdən istifadə edirlər.

2.3. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 45-1-ci maddəsində nəzərdə tutulan informasiya sistemi fəaliyyətə başlayana qədər inzibati xəta haqqında protokollar və səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərarlar (qərardadlar) bu Qanun qüvvəyə mindiyi tarixədək qüvvədə olan Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən olunmuş qaydada tərtib və icra olunur.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 iyun 2025-ci il

§

## “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 225-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 225-VIIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə qərara alıram:

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 9-cu fəslinin və 45-1-ci maddəsinin adlarında, 45-1.1-ci, 45-1.4-cü maddələrində, 45-2.1-ci maddəsinin ikinci cümləsində, 45-2.4-cü maddəsində, 57.5-1-ci və 57-1.1-ci maddələrinin birinci abzaslarında, 57-1.1.1–57-1.1.3-cü maddələrində, 57-1.2-ci maddəsinin ikinci cümləsində, 57-1.3-cü, 97.5-ci, 100.8-ci, 110.3-cü, 114.5-ci maddələrində, 117.3-cü maddəsinin birinci cümləsində, 122.1-1-ci, 122.2-ci, 123.1-ci maddələrində, 124.1-ci maddəsinin ikinci cümləsində, 124.4-cü maddəsinin birinci–üçüncü cümlələrində, 125.1-ci (ikinci halda), 125.6-cı (birinci halda), 127-4.3-cü, 150.17-ci və 339.5-ci (birinci halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 100.8-ci, 114.5-ci və 150.17-ci maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 9-cu fəslinin və 45-1-ci maddəsinin adlarında, 45-1.1-ci və 45-1.4-cü maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 45-2.1-ci maddəsinin ikinci cümləsində, 45-2.4-cü maddəsində, 57.5-1-ci və 57-1.1-ci maddələrinin birinci abzaslarında, 57-1.1.1-ci, 57-1.1.2-ci maddələrində, 57-1.2-ci maddəsinin ikinci cümləsində, 117.3-cü maddəsinin birinci cümləsində, 125.1-ci, 127-4.3-cü maddələrində “orqanın (qurumun) informasiya sistemi” və 124.1-ci maddəsinin ikinci cümləsində “orqanın (qurumun) müvafiq informasiya sistemi” dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin “ASAN ödəniş” informasiya sistemi nəzərdə tutulur;

1.5. həmin Məcəllənin 57-1.1.3-cü və 57-1.3-cü maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Məcəllənin 97.5-ci, 110.3-cü, 122.2-ci, 123.1-ci, 125.6-cı maddələrində, 127-1.1-ci maddəsinin ikinci cümləsində, 127-1.5-ci və 339.5-ci maddələrində “orqanın (qurumun) müvafiq informasiya sistemi” dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi nəzərdə tutulur;

1.7. həmin Məcəllənin 122.1-1-ci maddəsində və 124.4-cü maddəsinin birinci–üçüncü cümlələrində “orqanın (qurumun) müvafiq informasiya sistemi” dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi, Bakı şəhərinin inzibati ərazisində parklanma qaydalarının pozulmasına münasibətdə isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin “AYNA” informasiya sistemi nəzərdə tutulur;

1.8. “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 225-VIIQD nömrəli Qanununun 2.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.9. həmin Qanunun 2.2-ci maddəsində “orqanın (qurumun) informasiya sistemi” dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin “ASAN ödəniş” informasiya sistemi nəzərdə tutulur.

2. “İnzibati Cərimələrin Mərkəzi Avtomatlaşdırılmış Lövhəsi” (bundan sonra – “İCMAL”) informasiya sistemi yaradılsın.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 225-VIIQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. “İCMAL” informasiya sistemi haqqında əsasnamənin layihəsini hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 150.17-ci maddəsinə uyğun olaraq, inzibati cərimələrin qaytarılması qaydasını altı ay

müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 225-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

4.1. “İCMAL” informasiya sisteminin formalaşdırılması, aparılması, fəaliyyətinin təşkili və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görsün;

4.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə “İCMAL” informasiya sisteminin Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Hökumət buludu” (G-cloud) Konsepsiyası”na uyğun olaraq “Hökumət buludu”nda yerləşdirilməsi, aparılması və təkmilləşdirilməsi, habelə “İCMAL” informasiya sisteminin “Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri”nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün.

5. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

6. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi:

6.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 45.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər barədə elektron informasiya ehtiyatları və sistemləri mövcud olmayan səlahiyyətli orqanlar üçün “ASAN ödəniş” informasiya sistemində müvafiq elektron kabinetlərin yaradılmasını və onların fəaliyyətini təmin etsin;

6.2. “ASAN ödəniş” informasiya sisteminin infrastrukturunun təkmilləşdirilməsi və fəaliyyətinin təşkili ilə bağlı xərclərin maliyyələşdirilməsinə dair təkliflərini hər ilin dövlət büdcəsində nəzərə alınması üçün “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş müddətdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin.

7. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948, № 12 (I kitab), maddə 1294, (II kitab), maddələr 1359, 1378, 1384; 2025, № 2, maddə 127, № 3, maddə 231, № 4 (I kitab), maddələr 325, 338, № 6, maddələr 541, 561; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 may tarixli 401 nömrəli Fərmanı) 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

7.1. 4.1-ci bənd aşağıdakı redaksiyada verilsin:
"4.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 40.0.3, 42.2, 43.1 (birinci–üçüncü hallarda), 43.2, 43.3-cü maddələrində, 9-cu fəslinin və 45-1-ci maddəsinin adlarında, 45-1.1, 45-1.4-cü maddələrində, 45-2.1-ci maddəsinin ikinci cümləsində, 45-2.4-cü maddəsində, 54.2-ci maddəsinin birinci cümləsində, 54.2-1-ci (hər iki halda) maddəsində, 57.5-1 və 57-1.1-ci maddələrinin birinci abzaslarında, 57-1.1.1–57-1.1.3-cü maddələrində, 57-1.2-ci maddəsinin ikinci cümləsində, 57-1.3, 81.2, 97.1-ci maddələrində, 97.3-cü maddəsinin birinci və üçüncü cümlələrində, 97.5, 100.8, 110.3, 114.5-ci maddələrində, 117.3-cü maddəsinin birinci cümləsində, 122.1-ci maddəsinin birinci və üçüncü cümlələrində, 122.1-1, 122.2-ci maddələrində, 122.5-ci maddəsinin ikinci cümləsində, 123.1-ci maddəsində, 124.1-ci maddəsinin ikinci cümləsində, 124.4-cü maddəsinin birinci–üçüncü cümlələrində, 124.5-ci maddəsinin üçüncü cümləsində, 124.6-cı maddəsinin üçüncü cümləsində, 125.1 (hər iki halda), 125.6 (birinci halda), 126.3-cü maddələrində, 127-1.1-ci maddəsinin ikinci cümləsində (hər iki halda), 127-1.2, 127-1.3, 127-1.5 (hər iki halda), 127-1.8, 127-4.3, 150.13-1, 150.17, 152.3, 162.3, 162-1.1, 184.6, 184.9, 192.3, 220.7, 220.10 (hər iki halda), 231.2, 275.2, 293.12, 294-3.2, 294-3.3, 295.6, 307.4 (hər iki halda), 307.5, 326-2.3, 339.5 (birinci halda), 350.2, 354.0.8, 362-3.1, 363.2, 393-1.4, 393-1.6, 394.0.7 (ikinci halda), 394.0.8, 395.1-ci (ikinci halda) maddələrində, 395-ci maddəsinin "Qeyd" hissəsində (ikinci halda), 395.1-1, 403-1.1.1, 403-1.1.2, 403-1.2, 405-1.2, 428.7.3, 429.0.2, 445-1.2, 445-1.3 (hər iki halda), 445-1.4, 462.1, 477-1.1.7 (hər iki halda), 477-2.1.2, 538-1.4–538-1.6, 540.2, 540.3-cü (hər iki halda) maddələrində, 552-ci maddəsinin adında və mətnində, 562.1, 562.2, 562-1.1, 562-1.2 (hər iki halda), 576.3 (hər iki halda), 576.4, 602-2.5-ci (hər iki halda) maddələrində və 606-cı maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti

orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

7.2. 4.3-cü bənddə "94.11, 100.5, 114.4-cü" sözləri "94.11-ci" sözləri ilə əvəz edilsin;

7.3. 4.3-1-ci bəndə "Məcəllənin" sözündən sonra "100.8-ci, 114.5-ci, 150.17-ci," sözləri əlavə edilsin;

7.4. 4.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"4.8. həmin Məcəllənin 97.5, 110.3, 122.2, 123.1, 125.6-cı maddələrində, 127-1.1-ci maddəsinin ikinci cümləsində, 127-1.5 və 339.5-ci maddələrində "orqanın (qurumun) müvafiq informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi nəzərdə tutulur;";

7.5. 4.8-2-ci bənd üzrə:

7.5.1. "123.2-ci maddəsinin üçüncü cümləsində" sözləri "122.1-1-ci maddəsində" sözləri ilə əvəz edilsin;

7.5.2. "birinci və dördüncü" sözləri "birinci–üçüncü" sözləri ilə əvəz edilsin;

7.5.3. ", 125.2.3-cü maddələrində, 125.3-cü maddəsinin ikinci cümləsində və 126.3-cü maddəsində" sözləri "və 126.3-cü maddələrində" sözləri ilə əvəz edilsin;

7.6. 4.9-cu bənddən "124.1-ci maddəsinin ikinci və üçüncü cümlələrində," sözləri çıxarılsın;

7.7. 4.14-cü bənddən "125.1, 125.2.1, 125.2.2, 125.3," rəqəmləri çıxarılsın;

7.8. 4.14-1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"4.14-1. həmin Məcəllənin 45-2.1-ci maddəsinin ikinci cümləsində, 45-2.4-cü maddəsində,

57.5-1 və 57-1.1-ci maddələrinin birinci abzaslarında, 57-1.1.1, 57-1.1.2-ci maddələrində, 57-1.2-ci maddəsinin ikinci cümləsində, 117.3-cü maddəsinin birinci cümləsində, 125.1, 127-4.3-cü maddələrində "orqanın (qurumun) informasiya sistemi" və 124.1-ci maddəsinin ikinci cümləsində "orqanın (qurumun) müvafiq informasiya sistemi" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN ödəniş" informasiya sistemi nəzərdə tutulur;";

7.9. 4.15-ci bənddən "125.2.3 (ikinci halda), 125.4 (birinci halda)," sözləri çıxarılsın;

7.10. 4.15-2-ci bənd ləğv edilsin;

7.11. 4.15-4-cü bənddə “127-5.1.3-cü (ikinci halda) və 127-5.3-cü maddəsində (birinci halda)” sözləri “57-1.1.3 və 57-1.3-cü” sözləri ilə əvəz edilsin;

7.12. 4.16-cı bənd ləğv edilsin;

7.13. 4.20-1-ci bənddən “127-4.1-ci (üçüncü halda), 127-4.6-cı,” sözləri çıxarılsın;

7.14. 4.20-2-ci və 4.20-3-cü bəndlər ləğv edilsin;

7.15. 4.55-ci bənddə “462.1-ci maddəsində” sözləri “9-cu fəslinin və 45-1-ci maddəsinin adlarında, 45-1.1, 45-1.4 və 462.1-ci maddələrində” sözləri ilə əvəz edilsin.

8. Bu Fərmanın 1-ci və 7-ci hissələri 2025-ci il avqustun 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 iyul 2025-ci il

§

**Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin yaradılmasının 100 illiyi münasibətilə bir qrup şəxsin təltif edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq qərara alıram:

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin yaradılmasının 100 illiyi münasibətilə və məhkəmə orqanlarında səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**“Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” nişanı ilə**

Qarayev Sənan Məmməd oğlu
Qaybalıyev Vüsal Rəhim oğlu

**“Rəşadətli əməyə görə” nişanı ilə**

Axundlu Nihad Rəşadət oğlu

Əlizadə Turac Məhəmməd qızı
Hüseynbəyli Məftunə Firəddin qızı
İmanova Ayşən Natiq qızı.

**Bəxtiyar Məmmədov**
Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini

Naxçıvan şəhəri, 07 oktyabr 2025-ci il

§

**F.M.Abbasovun Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı**

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin III hissəsinə və “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Fərman Məmməd oğlu Abbasov vəzifəsinin dəyişdirilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi vəzifəsindən azad edilsin.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Sahibə Qafarova**
Azərbaycan Respublikası Milli Məclisinin sədri

Bakı şəhəri, 24 oktyabr 2025-ci il

§

## Apellyasiya instansiyası məhkəmələri sədrlərinin müavinlərinin, məhkəmə kollegiyaları sədrlərinin, birinci instansiya məhkəmələri hakimlərinin, sədrlərinin və sədr müavininin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (ÇIXARIŞ)

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq qərara alıram:

1. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq,

…

hərbi məhkəmələr üzrə:

1.8. Fərman Məmməd oğlu Abbasov Tərtər Hərbi Məhkəməsinin hakimi və sədri təyin edilsin;

…

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri üzrə:

1.12. İlham Sadət oğlu İbrahimov Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Naxçıvan Muxtar Respublikası Kəngərli Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

…

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 oktyabr 2025-ci il

§

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci və 6-cı bəndlərini rəhbər tutaraq qərara alır:

Maddə 1. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17 (Cild I); 2024, № 1, maddə 13, № 4, maddələr 362, 367, № 5 (I kitab), maddə 484, № 6 (I kitab), maddə 637, № 12 (I kitab), maddə 1283; 2025, № 4 (I kitab), maddələr 308, 322, № 6, maddə 526, № 7, maddə 610, № 8, maddələr 736, 743) aşağıdakı məzmunda 67.3-cü maddə əlavə edilsin:

"67.3. Vəkil kassasiya instansiyası məhkəməsində özü-özünü təmsil edə bilər.".

Maddə 2. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585 (Cild I); 2024, № 1, maddə 4, № 4, maddələr 362, 365, 368, № 6 (I kitab), maddə 631; 2025, № 1, maddə 1, № 2, maddə 98, № 4 (I kitab), maddə 308, № 6, maddələr 529, 538, № 7, maddə 607, № 8, maddələr 736, 743) aşağıdakı məzmunda 92.3-1-ci maddə əlavə edilsin:

"92.3-1. Bu Məcəllənin 92.3.6-cı, 92.3.7-ci, 92.3.9 – 92.3.11-ci maddələrində nəzərdə tutulan şübhəli və ya təqsirləndirilən şəxs qismində vəkil çıxış etdikdə müdafiəçinin təmin edilməsindən imtina edə və özü-özünü təmsil edə bilər.".

Maddə 3. Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 586 (Cild I); 2024, № 4, maddə 365, № 5 (I kitab), maddələr 489, 503, № 8, maddə 934; 2025, № 1, maddə 15, № 4 (I kitab), maddə 322, № 8, maddə 743) 81.9-cu maddəsinin birinci cümləsində "sənədi" sözü "sənədləri (vəkilin xidməti vəsiqəsi və vəkil orderi)" sözləri ilə əvəz edilsin.

Maddə 4. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 19 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 362) aşağıdakı dəyişikliklər edilsin:

4.1. preambulanın ikinci hissəsindən "fiziki və hüquqi şəxslərə" sözləri çıxarılsın;

4.2. 1-ci maddə üzrə:

4.2.1. adı aşağıdakı redaksiyada verilsin:

"Maddə 1. Vəkillik fəaliyyətinin əsasları və prinsipləri";

4.2.2. II hissədə "aşkarlıq" sözü "şəffaflıq, insan hüquqlarına hörmət" sözləri ilə əvəz edilsin;

4.2.3. III hissə üzrə:

4.2.3.1. ikinci abzasda "qanunlarına" sözü "normativ hüquqi aktlarına" sözləri ilə əvəz edilsin;

4.2.3.2. üçüncü abzasda ", digər dövlət orqanları, ictimai birliklər, hər hansı müəssisə, idarə, təşkilat və vəzifəli şəxs" sözləri "və digər dövlət orqanları (qurumları), habelə fiziki, vəzifəli və hüquqi şəxslər" sözləri ilə əvəz edilsin;

4.3. 2-ci maddənin II hissəsinə "məcəllələri" sözündən sonra "və digər qanunları" sözləri əlavə edilsin;

4.4. 3-cü maddənin mətninə "şəxslərin" sözündən sonra ", habelə dövlət orqanlarının (qurumlarının)" sözləri əlavə edilsin;

4.5. 4-cü maddə üzrə:

4.5.1. I hissə aşağıdakı redaksiyada verilsin:

"I. Vəkillik fəaliyyəti bu Qanuna və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq yalnız vəkil tərəfindən fiziki və hüquqi şəxslərin, habelə dövlət orqanlarının (qurumlarının) hüquqlarının təmin edilməsi və müdafiəsi məqsədilə peşəkarcasına həyata keçirilən müstəqil hüquq fəaliyyətidir.";

4.5.2. III hissə üzrə:

4.5.2.1. ikinci abzasa "şəxslərin" sözündən sonra ", habelə dövlət orqanlarının (qurumlarının)" sözləri əlavə edilsin;

4.5.2.2. beşinci abzasa "şəxslərə" sözündən sonra ", habelə dövlət orqanlarına (qurumlarına)" sözləri əlavə edilsin;

4.6. 5-ci maddə üzrə:

4.6.1. III hissəyə "bağlanmış" sözündən sonra "yazılı" sözü əlavə edilsin;

4.6.2. V hissə üzrə:

4.6.2.1. birinci abzasın birinci cümləsində "qanunvericiliyinin" sözü "normativ hüquqi aktlarının" sözləri ilə əvəz edilsin və həmin cümləyə "uyğun" sözündən sonra "olaraq Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağının (konfransının) müəyyən etdiyi qaydalara əsasən" sözləri əlavə edilsin;

4.6.2.2. ikinci abzasda "vəkil (vəkillər)" sözləri "vəkillər" sözü ilə əvəz edilsin və həmin abzasa "əlaqələndirən" sözündən sonra "qeyri-kommersiya" sözləri əlavə edilsin;

4.6.3. VI hissənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Bu maddənin V hissəsinin birinci abzasında müəyyən edilmiş qaydalara uyğunluğu Vəkillər Kollegiyası Rəyasət Heyətinin qərarı ilə təsdiqlənmiş vəkil qurumu seçilmiş təşkilati-hüquqi forma üzrə dövlət qeydiyyatından keçdikdən sonra fəaliyyətə başlayır.";

4.7. 6-cı maddənin III hissəsi aşağıdakı redaksiyada verilsin:

"III. Vəkil qurumları və fərdi qaydada fəaliyyət göstərən vəkillər yalnız öz fəaliyyətinin təbliği ilə bağlı vəkilliyin rəmzlərindən istifadə edə bilərlər.";

4.8. 7-ci maddə üzrə:

4.8.1. I hissə aşağıdakı redaksiyada verilsin:

"I. Hüquqi şəxslər və dövlət orqanları (qurumları) normativ hüquqi aktlarda müəyyən edilmiş hallarda öz peşə vəzifələrini yerinə yetirən vəkillərə yardım etməlidirlər.";

4.8.2. III hissənin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"Vəkilin vəkillik fəaliyyətinin həyata keçirilməsi ilə bağlı ona məlum olan hallar barədə dindirilməsi qadağandır.";

4.9. 8-ci maddənin I, IV və V hissələri aşağıdakı redaksiyada verilsin:

"I. Ali hüquq təhsilli, hüquqşünas ixtisası üzrə bir ildən az olmayaraq iş stajı olan və ya elmi müəssisələrdə (təşkilatlarda) və təhsil müəssisələrində hüquq sahəsində bir ildən az olmayan müddətdə fəaliyyət göstərən, Vəkillərin İxtisas Komissiyasında peşə yararlığının müəyyən edilməsi məqsədilə yazılı testdən və müsahibədən ibarət ixtisas imtahanını müvəffəqiyyətlə vermiş, müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsində icbari təlimi müvəffəqiyyətlə bitirmiş Azərbaycan Respublikasının vətəndaşları bu maddənin II hissəsində göstərilən hallara zidd olmamaq şərti ilə vəkil ola bilərlər.

Azərbaycan Respublikasının vətəndaşı olan, əvvəllər vəkil və ya hakim (intizam qaydasında vəkillik və ya hakimlik fəaliyyətinə xitam verilmiş şəxslər, həmçinin Məhkəmə-Hüquq Şurası tərəfindən həyata keçirilən qiymətləndirmə nəticəsində səlahiyyətləri uzadılmamış hakimlər istisna olmaqla) olmuş şəxslər onların müraciətləri əsasında yazılı testi vermədən, müsahibədən keçərək icbari təlimə cəlb olunmaqla həmin təlimi müvəffəqiyyətlə keçdikdən sonra vəkilliyə qəbul olunurlar. Azərbaycan Respublikasının vətəndaşı olan, əvvəllər vəkil və ya hakim (intizam qaydasında vəkillik və ya hakimlik fəaliyyətinə xitam verilmiş şəxslər,

həmçinin Məhkəmə-Hüquq Şurası tərəfindən həyata keçirilən qiymətləndirmə nəticəsində səlahiyyətləri uzadılmamış hakimlər istisna olmaqla) olmuş şəxslər yazılı test vermədən, müsahibədə iştirak etmək hüququndan yalnız bir dəfə istifadə edə bilərlər.

Hüquq elmləri doktoru elmi dərəcəsi olan şəxslər, müvafiq icra hakimiyyəti orqanı tərəfindən hüquq sahəsində fəxri ad verilmiş şəxslər, habelə əvvəllər Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi, 36 apelyasiya və kassasiya instansiyası məhkəmələrinin sədri vəzifəsində işləmiş şəxslər onların müraciətləri əsasında yazılı testi vermədən, müsahibədə iştirak etmədən və icbari təlimə cəlb edilmədən vəkilliyə qəbul olunurlar.";

"IV. Vəkil dövlət qulluğuna (dövlət qulluğunun xüsusi növünə) qəbul edildikdə onun vəkillik fəaliyyəti dövlət qulluğuna xitam verilənədək dayandırılır. Dövlət qulluğuna (dövlət qulluğunun xüsusi növünə) qəbul edilməsi ilə əlaqədar vəkillik fəaliyyəti dayandırılmış və bundan sonra dövlət qulluğunda (dövlət qulluğunun xüsusi növündə) iki il və ya daha çox qulluq keçmiş şəxslər (hüquqşünaslıq ixtisası üzrə ali təhsil tələb edən vəzifələrdə qulluq keçən dövlət qulluqçuları istisna olmaqla) dövlət qulluğuna (dövlət qulluğunun xüsusi növünə) xitam verildikdən sonra onların vəkillik fəaliyyətinə buraxılmalarına mane olan bu Qanunla müəyyən edilmiş hallar aşkar edilmədikdə onlar müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsində icbari təlimi müvəffəqiyyətlə bitirdikdən sonra vəkillik fəaliyyəti ilə məşğul ola bilərlər.

Dövlət qulluğuna (dövlət qulluğunun xüsusi növünə) qəbul edilməsi ilə əlaqədar vəkillik fəaliyyəti dayandırılmış və bundan sonra dövlət qulluğunda (dövlət qulluğunun xüsusi növündə) iki ildən az qulluq keçmiş şəxslər, habelə hüquqşünaslıq ixtisası üzrə ali təhsil tələb edən vəzifələrdə qulluq keçmiş dövlət qulluqçuları dövlət qulluğuna (dövlət qulluğunun xüsusi növünə) xitam verildikdən sonra onların müraciəti olduqda və vəkillik fəaliyyətinə buraxılmalarına mane olan bu Qanunla müəyyən edilmiş hallar aşkar edilmədikdə vəkilliyə buraxılırlar.

V. Vəkillər Kollegiyasının üzvü olmayan şəxs tərəfindən özünə münasibətdə və ya təşkilatının adında "vəkil" sözündən və bu sözün istifadə edildiyi ifadələrdən, eyni zamanda onların başqa dillərə tərcüməsindən istifadə olunması qadağandır.";

4.10. 8-1-ci maddə üzrə:

4.10.1. I hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu Qanunun 8-ci maddəsinin II hissəsində qeyd olunan şəxslər vəkil köməkçisi ola bilməzlər.";

4.10.2. II hissə aşağıdakı redaksiyada verilsin:

"II. Vəkilin köməkçisi vəkil qurumu ilə, vəkillik fəaliyyəti fərdi qaydada həyata keçirildikdə isə vəkillə bağlanmış əmək müqaviləsinə əsasən fəaliyyət göstərir.";

4.10.3. III hissənin birinci cümləsinə "onun" sözündən sonra "qanuni" sözü əlavə edilsin;

4.10.4. aşağıdakı məzmunda V hissə əlavə edilsin:

"V. Vəkil köməkçisinə dair məlumatlar vəkil reyestrinin xüsusi bölməsinə daxil edilir.";

4.11. 9-cu maddə üzrə:

4.11.1. I hissənin birinci cümləsinə "olduğu" sözündən sonra "vahid" sözü əlavə edilsin;

4.11.2. II hissəyə "Kollegiyası" sözündən sonra "qeyri-kommersiya" sözləri əlavə edilsin;

4.11.3. IV hissə aşağıdakı redaksiyada verilsin:

"IV. Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağı (konfransı), Vəkillər Kollegiyasının Rəyasət Heyəti, Vəkillərin İntizam Komissiyası və Vəkillərin İxtisas Komissiyası Vəkillər Kollegiyasının orqanlarıdır. Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə nəzərdə tutulmuş qaydada Vəkillər Kollegiyası tərəfindən regional qurumlar (mərkəzlər), hüquqi yardım mərkəzləri və tədris mərkəzləri təsis oluna bilər.";

4.11.4. V hissənin altıncı abzası yeddinci abzas hesab edilsin və aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

"dövlət hesabına göstərilən hüquqi yardıma görə haqqın (vəsaitin) vəkil qurumlarına və fərdi qaydada fəaliyyət göstərən vəkillərin bank hesablarına köçürülməsini təmin edir;";

4.12. 10-cu maddə üzrə:

4.12.1. I hissə aşağıdakı redaksiyada verilsin:

"I. Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağının (konfransının) müstəsna səlahiyyətlərinə aşağıdakılar aiddir:

Vəkillər Kollegiyasının Nizamnaməsini, Vəkillərin İntizam Komissiyasının Əsasnaməsini, Vəkillərin İxtisas Komissiyasının Əsasnaməsini və Vəkillərin etik davranış qaydaları haqqında Əsasnaməni təsdiq etmək və onlarda dəyişiklik etmək;

Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədrini, sədr müavinlərini və digər üzvlərini, Vəkillərin İntizam Komissiyasının sədrini, sədr müavinini və digər üzvlərini seçmək;

Vəkillər Kollegiyasının büdcəsini, üzvlük haqqının məbləğini, vəkillərin müraciətləri əsasında onların müəyyən dövr üzrə üzvlük haqqını ödəməkdən

azad edilməsi və ya müəyyən dövr üzrə üzvlük haqqının məbləğinin azaldılması qaydasını, Vəkillər Kollegiyasının regional qurumlarının (mərkəzlərinin), hüquqi yardım mərkəzlərinin, tədris mərkəzlərinin, vəkil qurumlarının və fərdi qaydada fəaliyyət göstərən vəkillərin fəaliyyətinin monitorinqinin aparılması qaydasını, vəkil orderinin və order markasının forması, hazırlanması və istifadə qaydasını, order markasına görə ödəniş məbləğini, vəkil qurumlarının yaradılması qaydasını, vəkillərin il ərzində iştirak etməli olduğu icbari tədris tədbirlərinin minimal saat sayını müəyyən etmək;

vəkilliyin rəsmi embleminin, vəkillərin xüsusi geyim formasının təsvirini və Vəkillər Kollegiyasının maliyyə-təsərrüfat hesabatını təsdiq etmək.”;

4.12.2. aşağıdakı məzmunda I-I hissə əlavə edilsin:

“I-I. Vəkillər Kollegiyası üzvlərinin sayı beş yüzdən çox olarsa, Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağının səlahiyyətləri Vəkillər Kollegiyası üzvlərinin konfransı tərəfindən həyata keçirilə bilər.”;

4.12.3. III hissə aşağıdakı redaksiyada verilsin:

“III. Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağı (konfransı) üç ildə bir dəfədən az olmayaraq Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən çağırılır. Vəkillər Kollegiyası üzvlərinin növbədənkənar ümumi yığıncağı (konfransı) Vəkillər Kollegiyası üzvlərinin üçdə birinin tələbi və ya Vəkillər Kollegiyası Rəyasət Heyətinin qərarı əsasında çağırıla bilər. Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağı (konfransı) çağırıldıqda Vəkillər Kollegiyasının Rəyasət Heyəti iki ay ərzində onun təşkilini və keçirilməsini təmin edir.”;

4.13. 11-ci maddə üzrə:

4.13.1. II hissə üzrə:

4.13.1.1. birinci cümləyə “Rəyasət” sözündən əvvəl “Vəkillər Kollegiyası” sözləri, “yığıncağında” sözündən sonra “(konfransında)” sözü əlavə edilsin;

4.13.1.2. üçüncü cümlə çıxarılsın;

4.13.2. III hissə aşağıdakı redaksiyada verilsin:

“III. Vəkillər Kollegiyasının Rəyasət Heyəti:

Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağını (konfransını) çağırır və onun qərarlarının icrasını təşkil edir;

Vəkillər Kollegiyasının üzvlüyünə qəbul olunma məsələsini həll edir, bu Qanunun 23-cü maddəsində nəzərdə tutulmuş qaydada vəkillik fəaliyyətinə xitam verilməsi ilə bağlı səlahiyyətləri həyata keçirir, vəkil reyestrini aparır;

dövlət hesabına göstərilən hüquqi yardıma görə haqqın (vəsaitin) ödənilməsi ilə bağlı sənədləşmə qaydasını müəyyən edir, dövlət hesabına hüquqi yardım göstərən vəkillərin növbətçilik siyahılarını təsdiq edir və aidiyyəti dövlət orqanlarına (qurumlarına) təqdim edir;

Vəkillərin İxtisas Komissiyasının vəkil üzvlərini təyin edir;

ixtisas imtahanının qaydasını və onun keçirilməsinin dövriliyini (ildə bir dəfədən az olmayaraq) müəyyən edir;

vəkillik fəaliyyətinin statistikasını aparır, təcrübəni ümumiləşdirir və vəkillik fəaliyyətinin həyata keçirilməsi məsələlərinə dair metodik tövsiyələr hazırlayır;

vəkilləri həvəsləndirmə qaydasını müəyyən edir və vəkillərin həvəsləndirilməsini həyata keçirir;

vəkillər barəsində intizam icraatı başlayır və bu Qanunun 22-ci maddəsində nəzərdə tutulmuş qaydada intizam tənbehi tətbiq edir;

vəkillər arasında qanunvericilik və məhkəmə təcrübəsi sahəsində məlumatlandırma işinin aparılmasını təşkil edir;

Vəkillər Kollegiyası Rəyasət Heyəti aparatının strukturunu, ştat cədvəlini, xərclər smetasını və işçilərin əməkhaqqını təsdiq edir;

Vəkillər Kollegiyasının regional qurumlarını (mərkəzlərini), hüquqi yardım mərkəzlərini və tədris mərkəzlərini yaradır, onların aparatlarının strukturunu, ştat cədvəlini, illik büdcəsini və işçilərin əməkhaqqını təsdiq edir;

Vəkillər Kollegiyası orqanlarının qəbul etdikləri qərarların icrasının təmin edilməsi ilə bağlı Vəkillər Kollegiyasının regional qurumlarının (mərkəzlərinin), hüquqi yardım mərkəzlərinin və tədris mərkəzlərinin, vəkil qurumlarının və fərdi qaydada fəaliyyət göstərən vəkillərin fəaliyyətinin azı üç ay müddətində monitorinqini aparır, onların nəticəsində aşkar edilmiş nöqsanların aradan qaldırılması üzrə qərarlar qəbul edir;

vəkilliyə qəbul üzrə imtahanda iştirak haqqının məbləğini müəyyən edir;

Vəkillər Kollegiyasına daxil olmuş vəsaitlərin xərc istiqamətlərini müəyyən edir;

Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağının (konfransının) müəyyən etdiyi qaydalara əsasən vəkilin müraciəti əsasında onun müəyyən dövr üzrə üzvlük haqqından azad edilməsi və ya müəyyən dövr üzrə üzvlük haqqının azaldılması barədə qərar qəbul edir;

vəkillərin fəaliyyətində "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozuntusu halını aşkar edərsə, həmin Qanuna müvafiq olaraq tədbirlər görür;

vəkilin xidməti vəsiqəsinin təsviri və nümunəsini müəyyən edir;

bu Qanun və öz Nizamnaməsində nəzərdə tutulmuş digər məsələləri həll edir.”;

4.13.3. IV hissə üzrə:

4.13.3.1. birinci cümləyə “etdikdə” sözündən sonra “Vəkillər Kollegiyası” sözləri əlavə edilsin;

4.13.3.2. ikinci cümləyə “Rəyasət” sözündən əvvəl “Vəkillər Kollegiyası” sözləri, “qərarlar” sözündən sonra “açıq səsvermə yolu və” sözləri əlavə edilsin;

4.13.3.3. aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

“Səslər bərabər olduqda Vəkillər Kollegiyası Rəyasət Heyətinin iclasına sədrlik edənin səsi həlledicidir.”;

4.14. 12-ci maddə üzrə:

4.14.1. ikinci abzasa “edir” sözündən sonra “və onun adından çıxış edir” sözləri əlavə edilsin;

4.14.2. üçüncü – yeddinci və doqquzuncu abzaslara “Rəyasət” sözündən əvvəl “Vəkillər Kollegiyası” sözləri əlavə edilsin;

4.14.3. onuncu abzas on birinci abzas hesab edilsin və aşağıdakı məzmunda onuncu abzas əlavə edilsin:

“Vəkillər Kollegiyasının regional qurumlarının (mərkəzlərinin), hüquqi yardım mərkəzlərinin və tədris mərkəzlərinin rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad edir;”;

4.15. 13-cü maddə üzrə:

4.15.1. I hissəyə “üçün” sözündən sonra “Vəkillərin” sözü əlavə edilsin;

4.15.2. II hissə aşağıdakı redaksiyada verilsin:

“II. Vəkillərin İxtisas Komissiyası yeddi vəkil, üç hakim və üç hüquqşünas alimdən, ümumilikdə isə on üç üzvdən ibarət olmaqla fəaliyyət göstərir. Vəkillərin İxtisas Komissiyasının səlahiyyət müddəti beş ildir.”;

4.15.3. III hissənin birinci və ikinci cümlələrinə, IV-VI hissələrə “İxtisas” sözündən əvvəl “Vəkillərin” sözü əlavə edilsin;

4.15.4. VII hissədə “qanunvericiliyin” sözü “normativ hüquqi aktların” sözləri ilə əvəz edilsin;

4.15.5. X hissəyə “İxtisas” sözündən əvvəl “Vəkillərin” sözü əlavə edilsin və həmin hissədə “Kollegiyasının Ümumi yığıncağı” sözləri “Kollegiyası üzvlərinin ümumi yığıncağı (konfransı)” sözləri ilə əvəz edilsin;

4.16. 14-cü maddə üzrə:

4.16.1. II hissədə “vəkillər” sözü “onlar haqqında məlumatlar” sözləri ilə, “edilirlər” sözü “edilir” sözü ilə əvəz edilsin;

4.16.2. III hissədə "mətninə imza edir" sözləri "mətnini imzalayır" sözləri ilə əvəz edilsin;

4.17. aşağıdakı məzmunda 14-1-ci maddə əlavə edilsin:

"Maddə 14-1. Vəkilin xidməti vəsiqəsi

4. Vəkil andı içmiş vəkillərə xidməti vəsiqə verilir. Xidməti vəsiqənin forması, verilməsi qaydası və etibarlılıq müddəti Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən müəyyən edilir. Vəkilin xidməti vəsiqəsi onun Vəkillər Kollegiyasına üzvlüyünü təsdiq edir. Xidməti vəsiqə Vəkillər Kollegiyasının Rəyasət Heyətinin aparatı tərəfindən hazırlanır.

II. Vəkil fəaliyyəti dövründə xidməti vəsiqədən istifadə edir. Xidməti vəsiqədə göstərilən məlumatlar dəyişdikdə, məlumatların səhv olduğu müəyyənləşdirildikdə, xidməti vəsiqə itirildikdə, yararsız hala düşdükdə, habelə xidməti vəsiqənin etibarlılıq müddəti qurtardıqda ona yeni xidməti vəsiqə verilir.

III. Vəkilin fəaliyyəti dayandırıldıqda və ya onun fəaliyyətinə xitam verildikdə xidməti vəsiqə Vəkillər Kollegiyası Rəyasət Heyətinin aparatına qaytarılır.

IV. Vəkilin fəaliyyətinin dayandırılması barədə qərar qəbul olunduğu gündən dayandırma müddəti bitənədək o, xidməti vəsiqəsindən istifadə etmək hüququnu itirir. Vəkilin fəaliyyətinə xitam verilməsi barədə qərar qüvvəyə mindiyi gündən etibarən xidməti vəsiqə öz qüvvəsini itirir.";

4.18. 15-ci maddənin II hissəsi üzrə:

4.18.1. ikinci və dördüncü abzaslar aşağıdakı redaksiyada verilsin:

"hüquqi yardım üçün müraciət etmiş fiziki və hüquqi şəxslərin müdafiəçisi olmaq, onların, habelə dövlət orqanlarının (qurumlarının) hüquqlarını, qanuni maraq və mənafelərini təhqiqat, istintaq, məhkəmə, digər dövlət orqanlarında (qurumlarında), yerli özünüidarəetmə orqanlarında, hüquqi şəxslərdə, o cümlədən xarici ölkələrdə və beynəlxalq təşkilatlarda müdafiə və təmsil etmək;";

"vəkillik fəaliyyətini həyata keçirməklə əlaqədar sənəd toplamaq, hüquqi yardım göstərmək üçün zəruri olan arayışları (məlumatları) və digər sənədləri dövlət orqanlarından (qurumlarından), yerli özünüidarəetmə orqanlarından, hüquqi şəxslərdən tələb etmək, onlarla tanış olmaq və həmin sənədlərin surətlərini çıxarmaq, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, daşınmaz əmlakın dövlət reyestrinin məlumatlarının alınması ilə bağlı yazılı sorğular vermək;";

4.18.2. beşinci abzasa "rəy" sözündən sonra "və məlumatlar" sözləri əlavə edilsin;

4.18.3. yeddinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

"kassasiya instansiyası məhkəməsində özü-özünü təmsil etmək.";

4.19. aşağıdakı məzmunda 15-1-ci və 15-2-ci maddələr əlavə edilsin:

"Maddə 15-1. Vəkil orderi

4. Vəkil orderi vəkil qurumu və ya fərdi qaydada fəaliyyət göstərən vəkil tərəfindən vəkilə verilən, özündə tapşırıq üzrə istintaq (təhqiqat), prokurorluq orqanında və ya bir məhkəmə instansiyasında (işin mahiyyəti ilə əlaqəli olmayan məhkəmə aktlarından apellyasiya və kassasiya instansiyasına verilən şikayətlər üzrə məhkəmə iclasları istisna olmaqla) təmsilçilik və hüquqi yardımın göstərilməsini, hüquqi şəxslərdə təmsilçilik səlahiyyətlərinin verilməsini təsdiq edir.

II. Vəkil orderi dövlət hesabına göstərilən hüquqi yardıma görə təhqiqat, istintaq, prokurorluq orqanlarının və ya məhkəmənin müvafiq qərarı və ya müraciət edən şəxslə vəkil (vəkil qurumu) arasında hüquqi yardımın göstərilməsi ilə əlaqədar bağlanmış müqavilə əsasında verilir.

III. Dövlət hesabına göstərilən hüquqi yardıma görə verilən vəkil orderi vəkilin təmsilçilik səlahiyyətlərini müəyyən edən və vəkil qurumunun və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin möhürü ilə təsdiq olunan sənəddir.

IV. Müqavilə əsasında verilən vəkil orderi vəkilin təmsilçilik səlahiyyətlərini müəyyən edən, vəkil qurumunun və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin möhürü ilə təsdiq olunan və üzərində onun həqiqiliyini əks etdirən order markası olan sənəddir. Order markası özündə vəkil orderinin unikal seriya və nömrəsini əks etdirən xüsusi nişandır.

V. Vəkil orderinin və order markasının forması, hazırlanması, istifadə qaydası və order markasına görə ödənişin məbləği Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağı (konfransı) tərəfindən müəyyən olunur.

Maddə 15-2. Vəkil sorğusu

4. Vəkil sorğusu peşəkar hüquqi yardımın göstərilməsi üçün zəruri olan məlumatların (sənədlərin) əldə olunması məqsədilə dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, habelə qanuna uyğun olaraq fəaliyyət göstərən digər hüquqi və fiziki şəxslərə həmin şəxslərin səlahiyyət hədləri nəzərə alınmaqla vəkil tərəfindən verilən və Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş hallarda cavablandırılmalı olan yazılı müraciətdir.

II. Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə başqa qayda nəzərdə tutulmadıqda vəkil sorğusu daxil olduğu gündən ən qısa müddətdə, lakin yeddi iş günündən gec olmayaraq cavablandırılmalıdır. Bu müddət

ərzində sorğunun cavablandırılması mümkün olmadıqda, həmin müddət əlavə olaraq yeddi iş günü uzadıla bilər.

III. Vəkil tərəfindən göndərilən sorğuya onun sorğu göndərilən iş üzrə səlahiyyətli olduğunu müəyyən edən vəkil orderinin vəkil qurumunun rəhbəri və ya fərdi qaydada fəaliyyət göstərən vəkil tərəfindən təsdiq olunmuş surəti əlavə olunur. Vəkil sorğusu vəkil qurumunun sorğu göndərən vəkili və ya fərdi qaydada fəaliyyət göstərən vəkil tərəfindən müvafiq blankda çap və imza edilməklə, habelə vəkil qurumunun rəhbəri və fərdi qaydada fəaliyyət göstərən vəkil tərəfindən möhürlənməklə təsdiqlənir.";

4.20. 16-cı maddə üzrə:

4.20.1. I hissə üzrə:

4.20.1.1. birinci abzasda "Peşə fəaliyyətini həyata keçirərkən" sözləri "Vəkillər Kollegiyasına üzv olduğu dövrdə" sözləri ilə əvəz edilsin;

4.20.1.2. ikinci abzasa "tələblərini" sözündən sonra "rəhbər tutmalı və" sözləri əlavə edilsin;

4.20.1.3. dördüncü abzas ləğv edilsin;

4.20.1.4. yeddinci abzasa "vəkil" sözündən əvvəl "qanunla müəyyən edilmiş hallar istisna olmaqla" sözləri əlavə edilsin;

4.20.1.5. səkkizinci abzas on ikinci abzas hesab edilsin və aşağıdakı məzmunda səkkizinci – on birinci abzaslar əlavə edilsin:

"üzvlük haqqını hər ay ödəməlidir;

normativ hüquqi aktlarla müəyyən olunmuş qaydada və hallarda hüquqi yardım haqqını ödəmək üçün kifayət qədər vəsaiti olmayan şəxslərə dövlət hesabına hüquqi yardım göstərməlidir;

il ərzində minimal icbari tədris saatlarını toplamalıdır;

Vəkillər Kollegiyası orqanlarının bu Qanuna əsasən müəyyən etdiyi qaydalara əməl etməli və həmin orqanların qəbul etdiyi qərarları icra etməlidir;";

4.20.2. III hissə aşağıdakı redaksiyada verilsin:

"III. Vəkilin mülki işlər, kommersiya mübahisələri, inzibati icraat üzrə, inzibati xətalar haqqında işlər və ya cinayət işləri üzrə icraatda müvafiq olaraq nümayəndə və müdafiəçi qismində iştirakını istisna edən hallar Azərbaycan Respublikasının prosessual qanunvericiliyi və inzibati xətalar haqqında qanunvericiliyi ilə müəyyən edilir.";

4.20.3. IV hissəyə "şəxslərə" sözündən sonra ", habelə dövlət orqanlarına (qurumlarına)" sözləri əlavə edilsin;

4.21. 16-1-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Vəkillər öz peşə hazırlığı və ixtisaslarının artırılması məqsədilə il ərzində icbari qaydada Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağının (konfransının) müəyyən etdiyi müddətdən az olmamaqla müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsinin təşkil etdiyi tədris tədbirlərində və ya digər tədris tədbirlərində iştirak edirlər.";

4.22. 17-ci maddə üzrə:

4.22.1. I hissə aşağıdakı redaksiyada verilsin:

"I. Vəkilin peşə vəzifələrinin həyata keçirilməsi ilə əlaqədar aldığı məlumatlar, verdiyi məsləhətlər, hazırladığı hüquqi sənədlər, rəylər və arayışlar, habelə hüquqi yardım üçün müraciət faktı, hüquqi yardım haqqında bağladığı müqavilənin mətni və müqavilənin bağlanılması faktı, müraciətin mahiyyəti, vəkilin göstərdiyi hüquqi xidmətdən imtina edildikdə imtinanın əsasları vəkil sirrini təşkil edir. Vəkildən imtina edilməsi vəkil sirrinin açıqlanması üçün əsas ola bilməz. Vəkil sirri təşkil edən məlumatların vəkillərdən, vəkil köməkçisindən, vəkil qurumlarından, eləcə də vəkil kimi fəaliyyət göstərdiyi dövr üzrə fəaliyyəti dayandırılmış və ya fəaliyyətinə xitam verilmiş vəkillərdən tələb edilməsi yolverilməzdir.";

4.22.2. III hissədə "qanunvericiliyi" sözü "normativ hüquqi aktları" sözləri ilə əvəz edilsin;

4.23. 18-ci maddənin mətnində "Vəkil peşə fəaliyyətini həyata keçirərkən" sözləri "Vəkillər Kollegiyasına üzv olduğu dövrdə vəkil" sözləri ilə, "Kollegiyasının Ümumi yığıncağı tərəfindən qəbul olunmuş Vəkillərin" sözləri "Kollegiyası üzvlərinin ümumi yığıncağı (konfransı) tərəfindən qəbul olunmuş Vəkillərin etik" sözləri ilə əvəz edilsin;

4.24. 19-cu maddə üzrə:

4.24.1. I hissədən "Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğun vəkil (vəkillər) tərəfindən yaradılmış" sözləri çıxarılsın;

4.24.2. III hissənin üçüncü cümləsində "Vəkilin xidmətlərini" sözləri "Hüquqi yardım haqqını" sözləri ilə, "qanunvericiliyi" sözü "normativ hüquqi aktları" sözləri ilə əvəz edilsin;

4.25. 20-ci maddə üzrə:

4.25.1. I hissənin birinci cümləsinə "şəxslərə və" sözlərindən sonra "qanunla müəyyən edilmiş digər hallarda" sözləri əlavə edilsin və həmin cümlədə "vəkilin xidmətlərini" sözləri "hüquqi yardım haqqını" sözləri ilə əvəz edilsin;

4.25.2. II hissənin birinci abzasında "Vəkillər Kollegiyasının müəyyən olunmuş qaydada tərtib edilən" sözləri "vəkillərin" sözü ilə əvəz edilsin;

4.26. 21-ci maddə üzrə:

4.26.1. I hissə üzrə:

4.26.1.1. “tərəfindən peşə vəzifələrinin həyata keçirilməsi ilə bağlı yol verilən intizam pozuntularına dair” sözləri “barəsində verilən” sözləri ilə əvəz edilsin;

4.26.1.2. aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Vəkillərin İntizam Komissiyasının səlahiyyət müddəti beş ildir.”;

4.26.2. II hissədə “Kollegiyasının Ümumi yığıncağı” sözləri “Kollegiyası üzvlərinin ümumi yığıncağı (konfransı)” sözləri ilə əvəz edilsin;

4.26.3. aşağıdakı məzmunda III hissə əlavə edilsin:

“III. Barəsində intizam icraatı aparılan vəkillər intizam icraatı zamanı qanunla və Vəkillərin İntizam Komissiyasının Əsasnaməsi ilə təsbit olunan hüquq və vəzifələrə malikdirlər.”;

4.27. 22-ci maddə üzrə:

4.27.1. I hissə aşağıdakı redaksiyada verilsin:

“I. Vəkil tərəfindən bu Qanunun və digər normativ hüquqi aktların və Vəkillərin etik davranış qaydaları haqqında Əsasnamənin tələblərinin pozulması, habelə vəkilin il ərzində minimal icbari tədris saatlarının toplanmaması halları aşkar olunduqda, o, intizam məsuliyyətinə cəlb edilir.”;

4.27.2. III hissədə “altı ay” sözləri “bir il” sözləri ilə, “bir” sözü “iki” sözü ilə əvəz edilsin;

4.27.3. V və VI hissələr aşağıdakı redaksiyada verilsin:

“V. Vəkillərin İntizam Komissiyası intizam icraatının başlandığı gündən üç ay müddətində vəkilin iştirakı ilə araşdırma aparır və müvafiq rəyini Vəkillər Kollegiyasının Rəyasət Heyətinə təqdim edir. Əlavə araşdırmanın aparılmasına zərurət yaranarsa, həmin müddət üç ayadək uzadıla bilər.

VI. Vəkillərin İntizam Komissiyasının rəyi əsasında Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən vəkilə aşağıdakı intizam tənbehlərindən biri tətbiq edilə bilər:

xəbərdarlıq;

töhmət;

üzvlük haqqının 10 misli həcmində cərimə;

“Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində göstərilən hüquqpozmalara təkrarən yol verilməsinə və ya vəkil etikasına dair tələblərin üç dəfədən artıq pozulmasına görə pozuntunun dərəcəsindən və vəkilin peşəkarlıq səviyyəsindən, stajından, əvvəllər intizam tənbehi alıb-almamasından asılı olaraq üç aydan bir il müddətinədək vəkillik fəaliyyəti ilə məşğul olmanın dayandırılması;

vəkil adına ləkə gətirməklə vəkil peşəsinin nüfuzuna xələl gətirən hərəkətə yol verilməsinə və ya icraatında olan işlə bağlı normativ hüquqi aktların tələblərini kobud və ya mütəmadi olaraq pozmaqla təmsil etdiyi şəxsin maraqlarına ziyan vurulmasına görə Vəkillər Kollegiyasının üzvlüyündən xaric edilmə.";

4.27.4. aşağıdakı məzmunda VI-I hissə əlavə edilsin:

"VI-I. Vəkillər barəsində intizam icraatı aparılarkən bu Qanunla yanaşı Vəkillərin etik davranış qaydaları haqqında Əsasnamənin və Vəkillərin İntizam Komissiyası haqqında Əsasnamənin tələbləri rəhbər tutulur.

Vəkilin hərəkətində pozuntu müəyyən edilmədikdə və ya icraata başlama müddəti keçdikdə intizam icraatı başlanılmır və ya başlanılmış icraata xitam verilir.";

4.27.5. VII hissədən ikinci cümlə çıxarılsın;

4.27.6. VIII hissə ləğv edilsin;

4.27.7. aşağıdakı məzmunda IX hissə əlavə edilsin:

"IX. Vəkillər Kollegiyası Rəyasət Heyətinin intizam tənbehi barədə qərarından bir ay müddətində məhkəməyə şikayət verilə bilər.";

4.28. 23-cü maddə üzrə:

4.28.1. I hissənin doqquzuncu abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda onuncu abzas əlavə edilsin:

"Azərbaycan Respublikasının vətəndaşlığına xitam verildikdə.";

4.28.2. II hissənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Vəkilin fəaliyyətinə xitam verilməsi barədə Vəkillər Kollegiyası Rəyasət Heyətinin qərarından bir ay müddətində məhkəməyə şikayət verilə bilər.";

4.29. 24-cü maddənin I hissəsinin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Vəkillər Kollegiyasının vəsaiti daxil olan üzvlük haqqından, order markasına görə ödənişdən, bu Qanunun 16-cı maddəsinin II hissəsində nəzərdə tutulmuş vəsaitdən və qanunla qadağan edilməyən digər mənbələrdən formalaşır.";

4.30. 25-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Vəkillərin pensiya təminatı "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.".

**İlham Əliyev**

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 31 oktyabr 2025-ci il

## "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 281-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 281-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə qərara alıram:

1. Müəyyən edilsin ki:

1.1. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin I hissəsinin üçüncü abzasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 8-ci maddəsinin I hissəsinin birinci abzasında, IV hissəsinin birinci abzasının ikinci cümləsində və 16-1-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsi" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 281-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 yanvar tarixli 254 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 33 (Cild I) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

“2. Müəyyən edilsin ki:

2.1. “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin I hissəsinin üçüncü abzasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 20-ci maddəsinin I hissəsinin dördüncü cümləsində müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.3. həmin Qanunun 13-cü maddəsinin III hissəsinin ikinci cümləsində və “Keçid müddəaları”nın III hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

2.4. həmin Qanunun 8-ci maddəsinin I hissəsinin birinci abzasında, IV hissəsinin birinci abzasının ikinci cümləsində və 16-1-ci maddəsində “müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsi” dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası nəzərdə tutulur.”.

4. “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 avqust tarixli 102 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 610 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

5. “Məhkəmələr və hakimlər haqqında”, “Bələdiyyə qulluğu haqqında”, “Prokurorluq haqqında”, “Notariat haqqında”, “Vəkillər və vəkillik fəaliyyəti haqqında”, “Bələdiyyə üzvünün statusu haqqında”, “Dövlət qulluğu haqqında”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında” və “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 23 noyabr tarixli 185 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 11, maddə 888 (Cild I) 2-ci hissəsindən “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin birinci hissəsinin birinci cümləsində və 16-1-ci maddəsində,” sözləri çıxarılsın.

**İlham Əliyev**

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 noyabr 2025-ci il

## A.Ə.Hüseynin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Aida Əli qızı Hüseyn vəzifəsi dəyişdirilərək Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilsin.
2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Sahibə Qafarova**
Azərbaycan Respublikası Milli Məclisinin sədri

Bakı şəhəri, 9 dekabr 2025-ci il

§

## A.Ə.Hüseynin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Aida Əli qızı Hüseyn Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri təyin edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 dekabr 2025-ci il.

§

**Apellyasiya instansiyası məhkəməsinin kollegiya sədrinin, birinci instansiya məhkəməsi sədrinin və bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamından Çıxarış**

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq qərara alıram:

…

3. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq, hakim vəzifəsinə aşağıdakı namizədlər birinci instansiya məhkəmələrinin hakimləri təyin edilsinlər:

hərbi məhkəmələr üzrə:

Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi

Eminov Əziz Mürsəl oğlu

...

Naxçıvan Muxtar Respublikasının rayon məhkəmələri üzrə:

Babək Rayon Məhkəməsi

Əhmədova Aynur Əvəz qızı

...

4. Bu Sərəncamın 1-ci və 3-cü hissələri bu Sərəncam imzalandığı gündən, 2-ci hissəsi 2026-cı il yanvarın 12-dən qüvvəyə minir.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 dekabr 2025-ci il



# MƏHKƏMƏ FƏALİYYƏTİ

*__MÜLKİ KOLLEGİYADAN__*

## Mülki mühakimə sahəsində məhkəmə fəaliyyətinə dair 2025-ci ilin birinci yarımilinin yekunları üzrə statistik məlumatların təhlili

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən 2025-ci ilin birinci yarısında 1961 mülki işə baxılmaqla nəticə verilmişdir. 2024-cü ilin birinci yarısında isə həmin məhkəmələr tərəfindən 1982 mülki işə baxılmışdır. Bu onu göstərir ki, baxılan mülki işlərin sayı 2024-cü ilin birinci yarısı ilə müqayisədə 2025-ci ilin birinci yarısında 1,06% azalmışdır.

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələrinin mülki işlər üzrə çıxardıqları qətnamə və qərardadlardan verilmiş apellyasiya şikayətləri üzrə 2025-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasında 90 apellyasiya şikayətinə baxılıb nəticə verilmişdir.

Apellyasiya şikayətləri ilə bağlı 90 mülki işdən 81 işə apellyasiya qaydasında baxılaraq 33 qətnamə və 11 qərardad dəyişdirilmədən saxlanılmış, 8 qətnamə dəyişdirilmiş, 27 qətnamə və 2 qərardad isə ləğv edilmişdir.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 369-cu maddəsində göstərilən əsasla 9 apellyasiya şikayətinin icraatına isə xitam verilmişdir.

Apellyasiya şikayəti ilə əlaqədar kollegiyada baxılıb nəticə verilmiş işləri mülki hüquq münasibətlərinin mahiyyətinə görə təsnif etdikdə bu işlər üzrə göstəricilər aşağıdakı qaydada müəyyən olunur:

- ailə münasibətləri üzrə mübahisələr – 30 iş
- əmək mübahisələri – 7 iş
- mənzil mübahisələri – 3 iş
- mülkiyyət hüququ ilə əlaqədar mübahisələr – 3 iş
- müqavilənin bağlanması, dəyişdirilməsi və ləğv edilməsi, etibarsız hesab edilməsi, məcburi bağlanması üzrə mübahisələr – 2 iş
- müqavilələrdən əmələ gələn öhdəliklər üzrə mübahisələr – 15 iş

- mülki hüquq pozuntularından (deliktlərdən) əmələ gələn öhdəliklər üzrə mübahisələr – 7 iş
- vərəsəlik hüququ üzrə mübahisələr – 5 iş
- hüquqi əhəmiyyəti olan faktların müəyyən edilməsi üzrə mübahisələr – 1 iş
- sair mülki işlər – 8 iş

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən 2025-ci ilin birinci yarısında baxılmış mülki işlər üzrə çıxarılan qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə məhkəmə təcrübəsinin təhlili göstərir ki, 2024-cü ilin birinci yarısı ilə müqayisədə 2025-ci ilin birinci yarısında apellyasiya şikayətlərinin sayı 3,22% azalmışdır. Belə ki, 2024-cü ilin birinci yarısında birinci instansiya məhkəmələri tərəfindən mülki işlər üzrə qəbul edilmiş qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasında 93 apellyasiya şikayətinə baxılmışdır.

Qəbul edilmiş qərarların sabitliyi üzrə göstərici 2024-cü ilin birinci yarısı ilə müqayisədə 2025-ci ilin birinci yarısında aşağı olmuşdur. Belə ki, 2025-ci ilin birinci yarısında rayon (şəhər) məhkəmələri tərəfindən qəbul edilən 1961 qətnamə və qərardaddan 1,89%-i apellyasiya qaydasında dəyişdirilmiş və yaxud ləğv edilmişdirsə, 2024-cü ilin birinci yarısında məhkəmələrin baxdığı işlər üzrə çıxarılan 1982 qətnamə və qərardaddan 1,51%-i dəyişdirilmiş və yaxud ləğv edilmişdir. Bu isə o deməkdir ki, məhkəmə qərarlarının sabitlik göstəricisi 2024-cü ilin birinci yarısında 98,49%, 2025-ci ilin birinci yarısında isə 98,11% təşkil etmişdir.

Statistik məlumatlara görə kollegiya tərəfindən 2025-ci ilin birinci yarısında apellyasiya qaydasında baxılan qərarların 45,68%-nin ləğv edilməsinə və yaxud dəyişdirilməsinə həmin işlərə baxılarkən birinci instansiya məhkəmələri tərəfindən maddi və prosessual hüquq normalarının tələblərinin pozulması və məhkəmənin gəldiyi nəticə üçün mühüm əhəmiyyəti olan bütün halların aydınlaşdırılmaması səbəb olmuşdur.

Apellyasiya baxışının nəticələrinə görə muxtar respublikanın ayrı-ayrı məhkəmələri üzrə 2024 və 2025-ci illərin birinci yarısına dair göstəricilər aşağıdakı cədvəllərdə göstərildiyi kimi olmuşdur.

2024-cü ilin birinci yarısında apellyasiya qaydasında baxılan işlər üzrə məlumat:

| Məhkəmənin adı | Cəmi baxılıb | Ap.şik icr. xit.verilib | Qətnamələr | | | | | | Qərardadlar | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Dəyişdirilmədən saxlanılıb | Dəyişdirilmişdir | Ləğv edilərək | | | | Ləğv edilmişdir | Qüvvədə saxlanılmışdır |
| | | | | | Yeni qətnamə çıxarılıb | Ərizə baxılmamış saxlanılıb | İş aidiyyəti üzrə 1-ci ins.məhk.göndərilib | İşin icraatına xitam verilib | | |
| **Naxçıvan** | **41** | **4** | **16** | **4** | **4** | **3** | | **2** | **1** | **7** |
| **Babək** | **2** | | **1** | | | | | | | **1** |
| **Şərur** | **24** | **3** | **13** | **2** | **2** | **1** | | **1** | **2** | |
| **Şahbuz** | **4** | | **2** | | **2** | | | | | |
| **Kəngərli** | **6** | | **3** | | | | **1** | **1** | | **1** |
| **Culfa** | **10** | **4** | **5** | | **1** | | | | | |
| **Ordubad** | **6** | | **2** | | **2** | | | | **1** | **1** |
| **YEKUN** | **93** | **11** | **42** | **6** | **11** | **4** | **1** | **4** | **4** | **10** |

2025-ci ilin birinci yarısında apellyasiya qaydasında baxılan işlər üzrə məlumat:

| Məhkəmənin adı | Cəmi baxılıb | Ap.şik icr. xit.verilib | Qətnamələr | | | | | | | Qərardadlar | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Dəyişdirilmədən saxlanılıb | Dəyişdirilmişdir | Ləğv edilərək | | | | Qismən ləğv edilib | Ləğv edilmişdir | Qüvvədə saxlanılmışdır |
| | | | | | Yeni qətnamə çıxarılıb | Ərizə baxılmamış saxlanılıb | İş aidiyyəti üzrə 1-ci ins.məhk.göndərilib | İşin icraatına xitam verilib | | | |
| **Naxçıvan** | **45** | **5** | **17** | **4** | **5** | **1** | **3** | **2** | | **1** | **7** |
| **Babək** | **7** | | **3** | **1** | **1** | | | | | | **2** |
| **Şərur** | **16** | **2** | **5** | **3** | **5** | | | | | | **1** |
| **Şahbuz** | **5** | | **3** | | **2** | | | | | | |
| **Culfa** | **10** | **2** | **3** | | **3** | | | **1** | | | **1** |
| **Ordubad** | **7** | | **2** | | **3** | | | | **1** | **1** | |
| **YEKUN** | **90** | **9** | **33** | **8** | **19** | **1** | **3** | **3** | **1** | **2** | **11** |

Apellyasiya qaydasında 2025-ci ilin birinci yarısında ləğv edilmiş və yaxud dəyişdirilmiş məhkəmə qərarları üzrə ayrı-ayrı məhkəmələrin göstəricilərini bir-biri ilə, eləcə də həmin məhkəmələr tərəfindən çıxarılmış qətnamə və qərardadların ümumi sayı ilə müqayisə etdikdə müəyyən olur ki,

qətnamə və qərardadların sabitliyi üzrə ən aşağı göstəriciyə Ordubad Rayon Məhkəməsi, ən yüksək göstəriciyə isə Kəngərli və Sədərək Rayon Məhkəmələri malikdir. Belə ki, 2025-ci ilin birinci yarısında *Ordubad Rayon Məhkəməsində* çıxarılan 124 qərardan 4 qətnamə və 1 qərardad, yəni həmin dövr ərzində çıxarılan qərarların 4,03%-i ləğv edildiyinə görə məhkəmə qərarlarının sabitliyi üzrə göstərici 95,97% olduğu halda, *Kəngərli və Sədərək Rayon Məhkəmələrinin* qətnamə və qərardadlarının sabitliyi üzrə göstərici 100% təşkil etmişdir. Çünki həmin dövrdə *Kəngərli Rayon Məhkəməsi* tərəfindən çıxarılmış 162 qətnamə və qərardaddan ləğv ediləni və dəyişdiriləni olmamış, *Sədərək Rayon Məhkəməsi* tərəfindən çıxarılmış 84 qətnamə və qərardaddan isə apellyasiya şikayəti verilməmişdir.

*Babək Rayon Məhkəməsi* tərəfindən 2025-ci ilin birinci yarısında çıxarılan 322 qətnamə və qərardaddan 2 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 0,62%-i ləğv edilmiş və ya dəyişdirilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 99,38% təşkil etmişdir.

*Şərur Rayon Məhkəməsi* tərəfindən 2025-ci ilin birinci yarısında çıxarılan 457 qətnamə və qərardaddan 8 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,75%-i ləğv edilmiş və ya dəyişdirilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 98,25% təşkil etmişdir.

*Şahbuz Rayon Məhkəməsi* tərəfindən 2025-ci ilin birinci yarısında çıxarılan 106 qətnamə və qərardaddan 2 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,89%-i ləğv edilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 98,11% təşkil etmişdir.

*Culfa Rayon Məhkəməsi* tərəfindən 2025-ci ilin birinci yarısında çıxarılan 148 qətnamə və qərardaddan 4 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 2,70%-i ləğv edilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 97,30% təşkil etmişdir.

*Naxçıvan Şəhər Məhkəməsi* tərəfindən 2025-ci ilin birinci yarısında çıxarılan 558 qətnamə və qərardaddan 15 qətnamə və 1 qərardad, yəni həmin dövr ərzində çıxarılan qərarların 2,87%-i ləğv edilmiş və ya dəyişdirilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 97,13% təşkil etmişdir.

2024-cü ilin birinci yarısında isə baxılmış işlər üzrə qəbul edilmiş qətnamə və qərardadların sabitlik göstəriciləri aşağıdakı kimi olmuşdur:

- *Sədərək Rayon Məhkəməsi* – 100% (61 qətnamə və qərardaddan apellyasiya şikayəti verilməmişdir);
- *Babək Rayon Məhkəməsi* – 100% (318 qətnamə və qərardaddan ləğv ediləni və ya dəyişdiriləni olmamışdır);

- *Culfa Rayon Məhkəməsi* – 99,33% (149 qətnamə və qərardaddan 1 qətnamə, yəni 0,67%-i ləğv edilmişdir);
- *Kəngərli Rayon Məhkəməsi*– 98,55% (138 qətnamə və qərardaddan 2 qətnamə, yəni 1,45%-i ləğv edilmişdir);
- *Şərur Rayon Məhkəməsi* – 98,29% (468 qətnamə və qərardaddan 6 qətnamə və 2 qərardad, yəni 1,71%-i ləğv edilmiş və ya dəyişdirilmişdir);
- *Şahbuz Rayon Məhkəməsi* – 98,08% (104 qətnamə və qərardaddan 2 qətnamə, 1,92%-i ləğv edilmişdir);
- *Ordubad Rayon Məhkəməsi* – 97,89% (142 qətnamə və qərardaddan 2 qətnamə və 1 qərardad, yəni 2,11%-i ləğv edilmişdir);
- *Naxçıvan Şəhər Məhkəməsi* – 97,67% (602 qətnamə və qərardaddan 13 qətnamə və 1 qərardad, yəni 2,33%-i ləğv edilmiş və ya dəyişdirilmişdir).

Qətnamə və qərardadların sabitliyi üzrə 2024 və 2025-ci illərin birinci yarımilinə dair göstəricilərin müqayisəsi onu göstərir ki, Naxçıvan şəhər, Babək, Şərur, Culfa və Ordubad rayon məhkəmələrinin qətnamə və qərardadlarının sabitlik göstəricisi 2024-cü ilin birinci yarısı ilə müqayisədə aşağı düşmüş, Kəngərli və Şahbuz rayon məhkəmələrinin qətnamə və qərardadlarının sabitlik göstəricisi yüksəlmiş, Sədərək Rayon Məhkəməsinin qətnamə və qərardadlarının sabitlik göstəricisi isə dəyişməmişdir.

Qətnamə və qərardadların sabitlik göstəricisi, yəni buraxılan məhkəmə səhvlərinin həcmi bir çox amillərlə yanaşı, həm də məhkəmələrin üzərinə düşən iş yükündən də asılı olmuşdur.

Muxtar respublika məhkəmələrini mülki mühakimə icraatı üzrə iş yükünə görə təsnif etdikdə müəyyən olunur ki, 2024-cü ilin birinci yarısında olduğu kimi, 2025-ci ilin birinci yarısında da ən çox mülki işə Naxçıvan Şəhər Məhkəməsində baxılmışdır. Belə ki, bu məhkəmədə 2024-cü ilin birinci yarısında 602 mülki işə, 2025-ci ilin birinci yarısında isə 558 mülki işə baxılmışdır.

Digər məhkəmələr üzrə iş yükü aşağıdakı kimi olmuşdur:

- *Şərur Rayon Məhkəməsi* – 457 iş (2024-cü ilin birinci yarısında 468 işə baxılmışdır);
- *Babək Rayon Məhkəməsi* – 322 iş (2024-cü ilin birinci yarısında 318 işə baxılmışdır);
- *Kəngərli Rayon Məhkəməsi* – 162 iş (2024-cü ilin birinci yarısında 138 işə baxılmışdır);
- *Culfa Rayon Məhkəməsi* – 148 iş (2024-cü ilin birinci yarısında 149 işə baxılmışdır);

- *Ordubad Rayon Məhkəməsi* – 124 iş (2024-cü ilin birinci yarısında 142 işə baxılmışdır);
- *Şahbuz Rayon Məhkəməsi* – 106 iş (2024-cü ilin birinci yarısında 104 işə baxılmışdır);
- *Sədərək Rayon Məhkəməsi* – 84 iş (2024-cü ilin birinci yarısında 61 işə baxılmışdır).

Göründüyü kimi, 2024-cü ilin birinci yarısı ilə müqayisədə 2025-ci ilin birinci yarısında muxtar respublika məhkəmələrində mülki mühakimə icraatı üzrə iş yükü azalmışdır.

*Məhkəmələr üzrə "nikahın ləğvi" tələbinə dair işlər üzrə isə statistik göstəricilər aşağıdakı kimi olmuşdur:*

**Naxçıvan Şəhər Məhkəməsi üzrə** - 2024-cü ildən 2025-ci ilə 61 iş qalıq qalmış, 2025-ci ilin birinci yarısında 95 mülki iş, ümumilikdə 156 mülki iş icraata daxil olmuşdur. 79 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 11 qərardad çıxarılmaqla 5 iş üzrə iddia baxılmamış saxlanılmış, 6 iş üzrə icraata xitam verilmişdir. 12 mülki iş üzrə ərizə geri qaytarılmış, 54 iş 2025-ci ilin ikinci yarısına qalıq qalmışdır.

**Şərur Rayon Məhkəməsi üzrə** - 2024-cü ildən 2025-ci ilə 77 iş qalıq qalmış, 2025-ci ilin birinci yarısında 84 mülki iş, ümumilikdə 161 mülki iş icraata daxil olmuşdur. 67 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 14 qərardad çıxarılmaqla 8 iş üzrə iddia baxılmamış saxlanılmış, 6 iş üzrə icraata xitam verilmişdir. 7 mülki iş üzrə ərizə geri qaytarılmış, 73 iş 2025-ci ilin ikinci yarısına qalıq qalmışdır.

**Babək Rayon Məhkəməsi üzrə** - 2024-cü ildən 2025-ci ilə 36 iş qalıq qalmış, 2025-ci ilin birinci yarısında 56 mülki iş, ümumilikdə 92 mülki iş icraata daxil olmuşdur. 47 mülki iş üzrə qətnamə çıxarılaraq 46 iş üzrə iddia təmin, 1 iş üzrə iddia rədd edilmişdir. Həmin kateqoriya işlər üzrə 6 qərardad çıxarılmaqla 1 iş üzrə iddia baxılmamış saxlanılmış, 5 iş üzrə icraata xitam verilmişdir. 10 mülki iş üzrə ərizə geri qaytarılmış, 29 iş 2025-ci ilin ikinci yarısına qalıq qalmışdır.

**Culfa Rayon Məhkəməsi üzrə -** 2024-cü ildən 2025-ci ilə 32 iş qalıq qalmış, 2025-ci ilin birinci yarısında 38 mülki iş, ümumilikdə 70 mülki iş icraata daxil olmuşdur. 38 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 5 qərardad çıxarılmaqla 5 iş üzrə icraata xitam verilmişdir. 27 iş 2025-ci ilin ikinci yarısına qalıq qalmışdır.

**Kəngərli Rayon Məhkəməsi üzrə** - 2024-cü ildən 2025-ci ilə 17 iş qalıq qalmış, 2025-ci ilin birinci yarısında 20 mülki iş, ümumilikdə 37 mülki iş

icraata daxil olmuşdur. 19 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 4 qərardad çıxarılmaqla 1 iş üzrə iddia baxılmamış saxlanılmış, 3 iş üzrə icraata xitam verilmişdir. 1 mülki iş üzrə ərizə geri qaytarılmış, 13 iş 2025-ci ilin ikinci yarısına qalıq qalmışdır.

**Ordubad Rayon Məhkəməsi üzrə** - 2024-cü ildən 2025-ci ilə 14 iş qalıq qalmış, 2025-ci ilin birinci yarısında 18 mülki iş, ümumilikdə 32 mülki iş icraata daxil olmuşdur. 18 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 2 qərardad çıxarılmaqla 2 iş üzrə iddia baxılmamış saxlanılmışdır. 12 iş 2025-ci ilin ikinci yarısına qalıq qalmışdır.

**Şahbuz Rayon Məhkəməsi üzrə -** 2024-cü ildən 2025-ci ilə 17 iş qalıq qalmış, 2025-ci ilin birinci yarısında 14 mülki iş, ümumilikdə 31 mülki iş icraata daxil olmuşdur. 17 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 4 qərardad çıxarılmaqla 3 iş üzrə iddia baxılmamış saxlanılmış, 1 iş üzrə icraata xitam verilmişdir. 3 mülki iş üzrə ərizə geri qaytarılmış, 7 iş 2025-ci ilin ikinci yarısına qalıq qalmışdır.

**Sədərək Rayon Məhkəməsi üzrə** - 2024-cü ildən 2025-ci ilə 15 iş qalıq qalmış, 2025-ci ilin birinci yarısında 8 mülki iş, ümumilikdə 23 mülki iş icraata daxil olmuşdur. 12 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 2 qərardad çıxarılmaqla 2 iş üzrə icraata xitam verilmişdir. 9 iş 2025-ci ilin ikinci yarısına qalıq qalmışdır.

2025-ci ilin birinci yarısında məhkəmələr tərəfindən "nikahın ləğvi" tələbinə dair 28 iş (8,12%) üzrə icraata tərəflərin barışması səbəbindən xitam verilmişdir. Xitam verilmiş işlər üzrə məhkəmələrin göstəriciləri aşağıdakı kimi olmuşdur:

- Sədərək Rayon Məhkəməsi – 14,29% (14 işdən 2 işin icraatına xitam verilib);
- Culfa Rayon Məhkəməsi – 11,63% (43 işdən 5 işin icraatına xitam verilib);
- Şərur Rayon Məhkəməsi – 7,41% (81 işdən 6 işin icraatına xitam verilib);
- Kəngərli Rayon Məhkəməsi – 13,04% (23 işdən 3 işin icraatına xitam verilib);
- Naxçıvan Şəhər Məhkəməsi – 6,67% (90 işdən 6 işin icraatına xitam verilib);

- Babək Rayon Məhkəməsi – 9,43% (53 işdən 5 işin icraatına xitam verilib);
- Şahbuz Rayon Məhkəməsi – 4,76 % (21 işdən 1 işin icraatına xitam verilib).

2025-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasında baxılan mülki işlər üzrə qəbul olunmuş qətnamə və qərardadlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasına 18 kassasiya şikayəti verilmiş, onlardan 17 kassasiya şikayətinə baxılaraq 14 qətnamə dəyişdirilmədən saxlanılmış, 3 qətnamə ləğv edilmişdir. 1 kassasiya şikayətinin qəbulundan imtina edilərək kassasiya icraatına xitam verilmişdir.

Beləliklə, 2025-ci ilin birinci yarısında qəbul edilən qərarlar üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının sabitlik göstəricisi 96,30 % təşkil etmişdir.

≈ ≈ ≈ ≈ ≈ ≈ ≈ ≈ ≈

≈ ≈ ≈ ≈ ≈ ≈

≈ ≈ ≈

## *KOMMERSİYA KOLLEGİYASINDAN*

### Məhkəmə fəaliyyətinə dair 2025-ci ilin birinci yarımili üzrə statistik məlumatların təhlili

2025-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin icraatında ümumilikdə 280 kommersiya mübahisələrinə dair iş olmuş, onlardan 60 iş 2024-cü ildən cari ilə qalıq qalmış, 220 iş isə 2025-ci ilin birinci yarısında daxil olmuşdur.

Kommersiya mübahisələri üzrə işlərdən 168 işə mahiyyəti üzrə baxılmaqla 145 iş üzrə iddia təmin edilmiş, 14 iş üzrə iddia rədd edilmiş, 5 iş üzrə iddia baxılmamış saxlanılmış, 4 işin icraatına xitam verilmişdir. 42 iş üzrə iddia ərizəsi geri qaytarılmış, 3 iş üzrə iddia ərizəsi aidiyyəti üzrə göndərilmiş, 67 kommersiya mübahisələri üzrə iş isə 2025-ci ilin ikinci yarısına qalıq qalmışdır.

2024-cü ilin birinci yarısı ilə müqayisədə 2025-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin icraatına daxil olan kommersiya mübahisələrinə dair işlərin sayı 30,86% azalmışdır. Belə ki, 2024-cü ilin birinci yarısında həmin məhkəmənin icraatına kommersiya mübahisələrinə dair 405 iş daxil olmuşdur.

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, Kommersiya Məhkəməsinə 2025-ci ilin birinci yarısında daxil olan işlərin böyük əksəriyyətini hüquqi şəxslər və fərdi sahibkarlıq fəaliyyəti subyektləri arasında yaranan mübahisələr üzrə (115 iş - yəni 41,07%) və vergi ödəmələri barədə mübahisələr üzrə (90 iş - yəni 32,14%) iddia tələbinə dair işlər təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsində baxılan işlər üzrə qəbul olunmuş məhkəmə aktlarından 2025-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasına 26 apellyasiya şikayəti verilmiş, onlardan 20 apellyasiya şikayətinə baxılaraq 9 qətnamə və 4 qərardad dəyişdirilmədən saxlanılmış, 2 qətnamə dəyişdirilmiş, 3 qətnamə və 2 qərardad ləğv edilmişdir. 2 qətnamə və 1 qərardaddan verilən apellyasiya şikayəti qeyri-mümkün hesab edilmiş, 1 qərardaddan verilən şikayət apellyasiya baxışından çıxarılmış, 2 qətnamədən verilən apellyasiya şikayətinin icraatına isə xitam verilmişdir.

Müqayisə üçün qeyd edək ki, kommersiya mübahisələrinə dair işlər üzrə çıxarılan məhkəmə aktlarından verilmiş apellyasiya şikayətləri üzrə 2024-cü ilin birinci yarısında kollegiyada 10 apellyasiya şikayətinə baxılmışdır.

2025-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasında baxılan kommersiya mübahisələri üzrə qəbul olunmuş qətnamələrdən Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasına 10 kassasiya şikayəti verilmiş, həmin kassasiya şikayətlərinə baxılaraq qətnamələr dəyişdirilmədən saxlanılmışdır.

Beləliklə, 2025-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının sabitlik göstəricisi 100% təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈
≈≈≈≈≈≈
≈≈≈

***İNZİBATİ KOLLEGİYADAN***

**Məhkəmə fəaliyyətinə dair 2025-ci ilin birinci yarımili üzrə statistik məlumatların təhlili**

2025-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsinin icraatında ümumilikdə 956 inzibati mübahisələrə dair iş olmuş, onlardan 634 iş 2024-cü ildən cari ilə qalıq qalmış, 322 iş isə 2025-ci ilin birinci yarısında daxil olmuşdur.

İnzibati mübahisələrə dair işlərdən 314 işə mahiyyəti üzrə baxılmaqla 135 iş üzrə iddia tələbi təmin edilmiş, 22 iş üzrə iddia tələbi rədd edilmiş, 157 işin icraatına xitam verilmişdir. 59 iş üzrə iddia mümkünsüz hesab edilmiş, 13 iş üzrə iddia tələbi aidiyyəti üzrə başqa məhkəməyə göndərilmiş, 570 iş isə 2025-ci ilin ikinci yarısına qalıq qalmışdır.

2024-cü ilin birinci yarısı ilə müqayisədə 2025-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsinin icraatına daxil olan inzibati mübahisələrə dair işlərin sayı 18,29% azalmışdır. Belə ki, 2024-cü ilin birinci yarısında həmin məhkəmənin icraatına inzibati mübahisələrə dair 1170 iş daxil olmuşdur.

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, İnzibati Məhkəməyə 2025-ci ilin birinci yarısında daxil olan işlərin böyük əksəriyyətini öhdəliyin icrası haqqında (847 iş - yəni 88,60%) və mübahisələndirmə haqqında (70 iş - yəni 7,32%) iddia tələbinə dair işlər təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsində baxılan işlər üzrə qəbul olunmuş qərar və qərardadlardan 2025-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasına 53 apellyasiya şikayəti verilmiş, onlardan 48 apellyasiya şikayətinə baxılaraq 21 qərar və 14 qərardad dəyişdirilmədən saxlanılmış, 5 qərar və 8 qərardad ləğv edilmişdir. 1 qərar və 2 qərardaddan verilən şikayətin icraatına xitam verilmiş, 1 apellyasiya şikayəti üzrə ərazi aidiyyəti müəyyən edilmiş, 1 qərardan verilən apellyasiya şikayəti isə mümkün sayılmayaraq şikayətin qəbulundan imtina edilmişdir.

Müqayisə üçün qeyd edək ki, inzibati mübahisələrə dair işlər üzrə çıxarılan qərar və qərardadlardan verilmiş apellyasiya şikayətləri üzrə 2024-cü ilin birinci yarısında kollegiyada 57 apellyasiya şikayətinə baxılmışdır.

2025-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasında baxılan işlər üzrə qəbul olunmuş qərar və qərardadlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasına 23 kassasiya şikayəti verilmiş, onlardan 8 kassasiya

şikayətinə baxılaraq 1 qərar və 5 qərardad dəyişdirilmədən saxlanılmış, 1 qərar və 1 qərardad ləğv edilmişdir. 7 qərar və 2 qərardaddan verilən kassasiya şikayəti mümkün sayılmayaraq şikayətin qəbulundan imtina edilmiş, 5 qərar və 1 qərardaddan verilmiş kassasiya şikayəti isə hazırda Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasının icraatında baxılmaqdadır.

Beləliklə, 2025-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasının sabitlik göstəricisi 95,84% təşkil etmişdir.

≈ ≈ ≈ ≈ ≈ ≈ ≈ ≈ ≈ ≈
≈ ≈ ≈ ≈ ≈ ≈ ≈
≈ ≈ ≈

***CİNAYƏT KOLLEGİYASINDAN***

## Cinayət kollegiyasının 2025-ci ilin birinci yarımili üzrə fəaliyyətinin nəticələrini əks etdirən statistik məlumatlar

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin ərazi yurisdiksiyasına aid olan muxtar respublika məhkəmələri tərəfindən 2025-ci ilin birinci yarısında 146 nəfərin barəsində 130 cinayət işinə mahiyyəti üzrə baxılmışdır. Müqayisə üçün qeyd edək ki, 2024-cü lin birinci yarısında həmin məhkəmələr tərəfindən 179 nəfərin barəsində 166 cinayət işinə baxılmışdır.

Birinci instansiya məhkəmələri tərəfindən 2025-ci ilin birinci yarısında baxılmış 118 cinayət işi üzrə 133 nəfərin barəsində ittiham hökmü çıxarılmışdır.

*İttiham hökmünün çıxarılması ilə nəticələnən işləri* obyektə görə qruplaşdırdıqda 2024 və 2025-ci illərin birinci yarısına dair göstəricilər aşağıdakı kimi olmuşdur:






Diaqramlardan göründüyü kimi 2024-cü ilin birinci yarısından fərqli olaraq 2025-ci ilin birinci yarısında mülkiyyət əleyhinə, hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə, dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə, ictimai təhlükəsizlik əleyhinə və iqtisadi fəaliyyət sahəsində olan cinayətlər azalmış, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı, həyat və sağlamlıq əleyhinə, idarəetmə qaydası əleyhinə, korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan cinayətlər artmış, hərbi xidmət əleyhinə və şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlər üzrə göstəricilər isə dəyişməmişdir. 2024-cü ilin birinci yarısından

fərqli olaraq 2025-ci ilin birinci yarısında ədalət mühakiməsi əleyhinə, insan və vətəndaşın konstitusiya hüququ və azadlıqları əleyhinə olan və sair cinayətlərə dair işlər daxil olmamış, şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlərə dair işlər daxil olmuşdur.

2024 və 2025-ci illərin birinci yarısında məhkumlara təyin olunan cəzalar aşağıdakı kimi olmuşdur:






Diaqramlardan göründüyü kimi müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilənlər 2024-cü ilin birinci yarısında məhkum edilmiş şəxslərin 49,35%-ni, 2025-ci ilin birinci yarısında isə məhkum olunanların 41,35%-ni təşkil etmiş, yəni 2024-cü ilin birinci yarısı ilə müqayisədə 2025-ci ilin birinci yarısında cəzaların ümumi kütləsində azadlıqdan məhrum etmə cəzasının həcmi 8% azalmış, azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaların həcmi isə əksinə 8% artmışdır (ümumilikdə götürüldükdə).

2024 və 2025-ci illərin birinci yarısında baxılan cinayət işlərinə dair göstəricilər ayrı-ayrılıqda muxtar respublikanın birinci instansiya məhkəmələri üzrə aşağıdakı kimi olmuşdur:

**2024-cü ilin birinci yarısı üzrə baxılan cinayət işlərinə dair göstəricilər**




**2025-ci ilin birinci yarısı üzrə baxılan cinayət işlərinə dair göstəricilər**



Diaqramlardan göründüyü kimi 2024-cü ilin birinci yarısından fərqli olaraq 2025-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsində, Culfa Rayon Məhkəməsində baxılmış cinayət işlərinin sayı artmış, Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsində, Naxçıvan şəhər, Kəngərli, Sədərək, Şərur və Babək rayon məhkəmələrində baxılmış cinayət işlərinin sayı azalmış, Şahbuz və Ordubad rayon məhkəmələrində baxılmış cinayət işlərinin sayı isə dəyişməmişdir.

2025-ci ilin birinci yarısında birinci instansiya məhkəmələrində baxılmış cinayət işləri üzrə çıxarılan hökmlərdən verilmiş apellyasiya şikayətlərinə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasında baxılaraq 16 hökm və 1 qərar dəyişdirilmədən saxlanılmış, 5 hökm dəyişdirilmiş, 2 hökm isə ləğv edilmişdir.

Dəyişdirilən və ləğv edilən hökmlər muxtar respublikanın birinci instansiya məhkəmələrinin 2025-ci ilin birinci yarısında çıxardıqları bütün hökmlərin 5,93%-ni təşkil etdiyi üçün məhkəmələr üzrə hökmlərin sabitlik göstəricisi 94,07% olmuşdur.

Müqayisə üçün qeyd edək ki, 2024-cü ilin birinci yarısında birinci instansiya məhkəmələri tərəfindən çıxarılmış hökmlərin sabitlik göstəricisi 89,51% təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikasının birinci instansiya məhkəmələri tərəfindən xüsusi icraat qaydasında 2025-ci ilin birinci yarısında 321 işə (materiala) baxılmışdır. 2024-cü ilin birinci yarısı ilə müqayisədə bu göstərici 14,23% artmışdır (həmin dövrdə 281 işə baxılmışdır).

2025-ci ilin birinci yarısında xüsusi icraat qaydasında həll edilən işlərdən 39 iş (12,15%) telefon danışıqlarına qulaq asma, 48 iş (14,95%) həbs qətimkan tədbirinin seçilməsi, 2 iş (0,62%) qətimkan tədbirinin ləğv edilməsi, 4 iş (1,25%) həbsdə saxlama müddətinin uzadılması, 14 iş (4,36%) cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad etmə, 125 iş (38,94%) texniki rabitə kanallarından və digər texniki vasitələrdən məlumatların çıxarılması, 3 iş (0,93%) ev dustaqlığı, 3 iş (0,93%) təqsirləndirilən şəxsin tibb müəssisəsinə yerləşdirilməsi, 36 iş (11,21%) maliyyə əməliyyatları barədə məlumatların ələ keçirilməsi, 1 iş (0,31%) əmlak üzərinə həbs qoyulması, 4 iş (1,25%) cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərinin və ya qərarlarının qanuniliyinin yoxlanılması, 7 iş (2,18%) cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi, 1 iş (0,31%) xəstəliyə görə cəza çəkməkdən azad etmə, 1 iş (0,31%) cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəzləşdirilməsi, 1 iş (0,31%) binaya, o cümlədən yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə, qurğu və ya torpaq sahələrinə daxil olma və

onlara baxış keçirilməsi, 3 iş (0,93%) məhkumluğun vaxtından əvvəl götürülməsi, 1 iş (0,31%) məhkumun barəsində amnistiyanın tətbiq edilməməsi, 4 iş (1,25%) hökmün və məhkəmənin digər yekun qərarının icrasına dair başqa məsələlərin həll edilməsi və 24 iş (7,48%) digər məsələlər barədə olmuşdur.

Muxtar respublikanın birinci instansiya məhkəmələri üzrə xüsusi icraat qaydasında baxılan işlərlə əlaqədar 2024 və 2025-ci illərin birinci yarımilinin göstəriciləri aşağıdakı diaqramlarda təsvir edildiyi kimi olmuşdur:






Naxçıvan Muxtar Respublikasının birinci instansiya məhkəmələrində 2025-ci ilin birinci yarısında 631 nəfərin barəsində 630 inzibati xəta haqqında işə baxılmışdır. Bunlardan 27 nəfərin barəsində 27 iş səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından məhkəməyə verilən şikayət olmuşdur.

2024-cü ilin birinci yarısı ilə müqayisədə 2025-ci ilin birinci yarısında baxılan inzibati xəta haqqında işlərin sayı 26,76%, inzibati xəta törətmiş şəxslərin sayı 26,96 % artmışdır (2024-cü ilin birinci yarısında 497 nəfərin barəsində 497 inzibati xəta haqqında işə baxılmışdır).

2025-ci ilin birinci yarısında barəsində inzibati tənbeh tətbiq olunan şəxslərdən 162 nəfərə (25,67%) inzibati həbs, 232 nəfərə (36,77%) inzibati cərimə, 30 nəfərə (4,75%) inzibati xəta törətməkdə alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi, 6 nəfərə (0,95%) inzibati xəta törətmiş şəxsin ona verilmiş xüsusi hüququn

məhdudlaşdırılması, 4 nəfərə (0,63%) ictimai işlər növündə inzibati tənbeh tədbirləri tətbiq olunmuş, 170 nəfərin (26,94%) barəsində 170 inzibati xəta haqqında işin icraatına isə xitam verilmişdir.

Səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından məhkəməyə verilən şikayət üzrə 13 qərar ləğv edilmiş, 14 qərar isə dəyişdirilmədən saxlanılmışdır.

İnzibati tənbeh tədbirinin tətbiqinə dair qərarın çıxarılması ilə nəticələnən inzibati xətaları növünə görə qruplaşdırdıqda 2024-cü və 2025-ci illərin birinci yarımilinə dair göstəricilər aşağıdakı diaqramlarda təsvir olunduğu kimi olmuşdur:






Göründüyü kimi 2024-cü ilin birinci yarısı ilə müqayisədə 2025-ci ilin birinci yarısında muxtar respublika məhkəmələri tərəfindən baxılan sağlamlıq əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 9,52%, yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 60%, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 33,85%, ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 2 dəfə, gömrük qaydaları əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 4,6 dəfə, ictimai qayda, ictimai təhlükəsizlik və ictimai

mənəviyyat əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 86,11%, idarəçilik qaydaları əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 20,87% artmış, mülkiyyət əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 42,86%, hərbi xidmət əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 38,64% azalmışdır.

Ötən yarımildən fərqli olaraq 2025-ci ilin birinci yarısında muxtar respublika məhkəmələrinin icraatına iqtisadi fəaliyyət qaydaları əleyhinə və vergilərin, rüsumların ödənilməsi, maliyyə və sığorta qaydaları əleyhinə olan inzibati xətalar haqqında işlər daxil olmuş, siyasi, sosial və əmək hüquqları əleyhinə, əhalinin sanitariya-gigiyena və sanitariya-epidemioloji salamatlığı qaydaları əleyhinə, ticarət qaydaları əleyhinə olan və digər inzibati xətalar haqqında işlər daxil olmamışdır.

Baxılmış inzibati xətalara dair işlər üzrə muxtar respublika məhkəmələrinin 2024 və 2025-ci illərin birinci yarımilinə dair göstəriciləri aşağıdakı diaqramlarda təsvir edildiyi kimi olmuşdur:






2025-ci ilin birinci yarısında muxtar respublikanın birinci instansiya məhkəmələri tərəfindən baxılmış inzibati xətalara dair işlər üzrə çıxarılmış qərarlardan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasına 44 apellyasiya şikayəti verilmişdir.

Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin 3, Naxçıvan Şəhər Məhkəməsinin 17, Babək Rayon Məhkəməsinin 6, Şərur Rayon Məhkəməsinin 2, Culfa Rayon Məhkəməsinin 5, Şahbuz Rayon Məhkəməsinin 4 qərarından verilmiş apellyasiya şikayətlərinə baxılaraq qərarlar dəyişdirilmədən saxlanılmış, Naxçıvan Şəhər Məhkəməsinin 2, Şərur Rayon Məhkəməsinin 2, Babək Rayon Məhkəməsinin 1 və Kəngərli Rayon Məhkəməsinin 2 qərarından verilmiş apellyasiya şikayətlərinə baxılaraq qərarlar ləğv edilmişdir.

Beləliklə, muxtar respublikanın birinci instansiya məhkəmələri tərəfindən 2025-ci ilin birinci yarısında inzibati xətalar haqqında işlər üzrə çıxarılan qərarlardan 1,11% ləğv edildiyindən qərarların sabitlik göstəricisi 98,89% təşkil etmişdir.

Müqayisə üçün qeyd edək ki, 2024-cü ilin birinci yarısında birinci instansiya məhkəmələri tərəfindən çıxarılmış qərarların sabitlik göstəricisi 98,79% təşkil etmişdir.

2025-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasında baxılan işlər üzrə çıxarılan qərarlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasına 6 kassasiya şikayəti verilmiş, onlardan 3 kassasiya şikayətinə baxılaraq qərarlar dəyişdirilmədən saxlanılmış, 1 kassasiya şikayəti geri götürülmüş, 2 kassasiya şikayəti isə hazırda Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının icraatında baxılmaqdadır.

Beləliklə, 2025-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasında qəbul edilən qərarların sabitlik göstəricisi 100% təşkil etmişdir.

# VAHİD MƏHKƏMƏ TƏCRÜBƏSİ BAXIMINDAN ƏHƏMİYYƏTLİ OLAN MƏHKƏMƏ AKTLARI

## Mülki işlər üzrə ** statuslu qərar

*İşin nömrəsi: 2(108)-103/2025*

***Mübahisəli hüquqi məsələnin qısa məzmunu:***

08 mart 2024-cü il tarixdə Bakı şəhəri, Xəzər rayonu, Albalılıq qəsəbəsinin əsas yolunda yol-nəqliyyat hadisəsinin baş verməsi nəticəsində iddiaçı XX1 oğlunun idarə etdiyi özünə məxsus “Toyota Land Cruiser LC300” markalı, 99-XM-400 dövlət qeydiyyat nişanlı avtomobil cavabdehin açdığı qapıya dəymiş və nəticədə nəqliyyat vasitəsinin sağ tərəfinə ciddi maddi ziyan dəymişdir. “Toyota Əhmədli” rəsmi servis mərkəzinin tərtib etdiyi qüsur aktına əsasən, dəymiş zərərin məbləği 17 400 manat həcmində müəyyən edilmişdir. Hadisə ilə bağlı "Paşa Sığorta" ASC tərəfindən icbari sığorta müqaviləsi üzrə qanunla müəyyən edilmiş maksimum limit — 5 000 manat ödənilsə də, maddi ziyanın 12 400 manatlıq hissəsi ödənilməmiş qalmışdır. Bununla əlaqədar, iddiaçı vəkili vasitəsilə Şahbuz Rayon Məhkəməsinə müraciət edərək ümumilikdə 30 700 manat təzminat tələb etmişdir. İddia onunla əsaslandırılmışdır ki, avtomobil 2022-ci il istehsalı olduğu, 0 km-dən alındığı və hələ də rəsmi servis zəmanətində qaldığı üçün təmir işləri mütləq qaydada rəsmi mərkəzdə aparılmalıdır. Həmçinin qəza nəticəsində avtomobilin bazar dəyərinin kəskin düşməsi və cavabdehin təqdim olunan pretenziyaya baxmayaraq ziyanı könüllü ödəməkdən imtina etməsi iddiada xüsusi vurğulanmışdır.

Birinci instansiya məhkəməsinin xx.xx.2025-ci il tarixli qətnaməsinə əsasən, iddia qismən təmin edilərək cavabdehdən iddiaçı XX1 oğluna dəymiş zərərin əvəzi kimi ümumilikdə 12 025 manat məbləğində vəsaitin tutulması müəyyən edilmişdir.

***Apellyasiya  instansiyası məhkəməsinin mövqeyi:***

Məhkəmə apellyasiya şikayətini qismən təmin etmişdir.

Avtomobilə dəymiş maddi ziyanın həcmi Naxçıvan MR Ədliyyə Nazirliyinin ekspert rəyi ilə **2925 manat** məbləğində müəyyən edilmişdir. Bu rəqəm, cavabdeh tərəfindən təqdim olunan və avtomobilin faktiki təmiri üzrə rəsmi servis olan "Toyota Bakı Mərkəzi"nin **2900 manatlıq** fakturası ilə mahiyyətcə üst-üstə düşür. İddiaçının avtomobilin məhz həmin mərkəzdə qeydiyyatda olduğunu bildirməsinə baxmayaraq, zərərin daha yüksək qiymətlərlə ("Toyota Əhmədli") hesablanmasını tələb etməsi əsassız olmuşdur. İddiaçı faktiki təmir xərclərindən artıq zərər çəkdiyini sübut edə bilməmişdir. Bu səbəbdən məhkəmə, ekspert rəyini və faktiki təmir sənədini daha mötəbər sübut kimi qəbul edərək əsas götürmüşdür.

Avtomobilin bazar dəyərinin azalması ilə bağlı rəsmi ekspert rəyi mövcud deyil, çünki ekspertiza bu məbləğin müəyyən edilməsini qeyri-mümkün hesab etmişdir. İddiaçının təqdim etdiyi "LEX FOR" şirkətinin rəyində dəyər azalması subyektiv olaraq 10% həcmində göstərilsə də, sənəddə konkret metodologiya və real bazar araşdırmasına istinad olunmamışdır. Bu səbəbdən həmin rəy əsaslı sübut sayıla bilməz.

Dəyər azalmasının hesablanmasında yerli məhkəmə təcrübəsində vahid yanaşma olmadığı üçün, məhkəmə beynəlxalq standartlara istinad etməyi zəruri hesab etmişdir. Bu sahədə xüsusilə ABŞ və Almaniya təcrübəsi yol-nəqliyyat hadisələri zamanı yaranan zərərin müəyyən edilməsi üçün ən mötəbər və geniş tətbiq olunan hüquqi meyarları formalaşdırmışdır.

**ABŞ** məhkəmə praktikasında "Diminished Value" (avtomobilin qəza səbəbindən bazar dəyərinin azalması) hesablanarkən ən çox istifadə olunan **17(c) formuluna** nəzər salaq. Bu formul üzrə ilkin olaraq avtomobilin müəyyən edilən bazar satış dəyərinin 10%-i əsas götürülür və daha sonra avtomobilin aldığı zərərin ağırlığına görə əmsala vurulur (ağır zədə - 1.00 əmsal, orta zədə - 0.5 əmsal, yüngül zədə - 0.25 əmsal). Bundan sonra avtomobilin yürüş məsafəsi də xüsusi əmsal kimi tətbiq edilir (0-19,999 mil - 1.00 əmsal, 20,000-39,999 mil – 0.80 əmsal, 40,000-59,999 mil - 0.60 əmsal). (ABŞ 17(c) formuluna dair ətraflı məlumat üçün mənbəyə keçid linki).

Misal üçün, əgər avtomobilin dəyəri 150 000 ABŞ dolları və yürüşü 20 000 mildirsə və aldığı zərər kiçik dərəcəli sayılırsa, dəyər azalması belə hesablanır:

**15 000 dollar** (150 000 dolların 10%-i) × **0.25** (kiçik dərəcəli zədələnmə əmsalı) × **0.8** (20000 milə uyğun yürüş əmsalı) = **3000 dollar.** Beləliklə, hətta nəzəri olaraq avtomobilin dəyərinin 10%-lik əsas məbləği götürülsə

də, **faktiki zərər dəyər azalmasının əsas ölçüsünə çevrilir** və nəticədə real bazar azalması ilkin məbləğin 1-5%-dən artıq olmur.

**Almaniya** məhkəmə təcrübəsində isə bu məsələ "Merkantiler Minderwert" kimi tanınır və avtomobilin zərərdən sonra bazar dəyərindəki azalmanı müəyyənləşdirmək üçün əsasən "Ruhkopf – Sahm" və ya "Hamburger Model" metodları tətbiq olunur. Həmin metodlara görə avtomobilin **yaşına və zərərin xarakterinə görə** dəyər azalması avtomobilin ümumi bazar dəyərinin əsasən 1-7%-i arasında dəyişir. Adətən kosmetik və kiçik zədələnmələrdə isə bu rəqəm avtomobilin bazar dəyərinin **1-3%-dən artıq olmur** (Almaniyanın məhkəmə təcrübəsi barədə daha ətraflı məlumat üçün mənbəyə keçid linki).

Beləliklə, qeyd olunan təcrübəyə görə, yol-nəqliyyat hadisələrində zədənin kiçik, orta və ağır olması, həm zərərin avtomobilin konstruksiyasına və texniki təhlükəsizlik elementlərinə təsiri, həm də təmir xərclərinin miqdarı ilə müəyyən edilir. **Kiçik zədələnməyə** yalnız kosmetik xarakterli pozuntular, məsələn, bumperin, yan ətəyin dəyişdirilmədən düzəldilməsi, cızıq və lokal boya işləri daxildir. Belə hallarda təmir xərcləri avtomobilin bazar dəyərinin 1-3%-ni keçmir və bazar dəyərinin də eyni həcmdə azalmasına səbəb olur. **Orta zədələnmələrdə** metal hissələrin əvəzlənməsi və daha geniş boya işləri aparılır, lakin struktur bütövlük pozulmur, bu halda təmir xərcləri və bazar dəyəri itkisi adətən 3-7% arasında olur. **Ağır zədələnmə** isə struktur hissələrin, daşıyıcı elementlərin, təhlükəsizlik sistemlərinin və mühərrik kimi əsas mexaniki hissələrin zədələnməsini əhatə edir və bazar dəyərinin 10-30%-dək azalmasına səbəb ola bilər. Eyni zamanda, beynəlxalq təcrübə **təmir xərclərinin zədənin qiymətləndirilməsində mühüm meyar** olduğunu vurğulayır. Təmir xərcləri real zərərin miqyasını, dolayısı ilə isə bazar dəyərindəki azalmanı müəyyən edən əsas göstəricilərdən birinə çevrilir.

Konkret hazırki iş üzrə nəzərdən keçirilən qiymətləndirmə şirkəti "Lex For" MMC tərəfindən təqdim olunmuş 20.06.2024-cü il tarixli qiymətləndirmə rəyi avtomobilin orta bazar dəyərinin (148.000 manat) müəyyən edilməsi hissəsində kifayət qədər metodologiya və istinadlara söykəndiyindən əsaslıdır. Lakin dəyər azalmasına münasibətdə heç bir metodologiyanın tətbiqinə dair izah verilmədiyindən əsassızdır və real vəziyyəti tam əks etdirmir. Belə ki, qiymətləndirmə şirkətinə iddiaçı tərəfindən yalnız Paşa Sığorta ASC-nin təqdim etdiyi və ümumi təmir xərclərini 17.400 manat göstərən sənəd verilmişdir. Halbuki avtomobil iddiaçı tərəfindən Toyota Bakı Mərkəzində faktiki olaraq cəmi 2900 manat

xərc çəkilərək təmir olunmuş, lakin iddiaçı bu faktı qiymətləndirmə şirkətindən gizlətmişdir. Qiymətləndirmə şirkətinin rəyi də yalnız ona təqdim olunan sənədlərə əsaslanaraq tərtib edilmiş, real təmir xərcləri barədə araşdırma aparılmamışdır.

Avtomobilə dəymiş faktiki zərərin 2925 manat olması (avtomobilin dəyərinin təqribən 2%-i), zərərin xarakterinin əsasən kosmetik və kiçik həcmli olduğu ekspert rəylərindən və işin fotolarından açıq-aydın görünür. Belə bir halda, avtomobilin dəyərinin hətta yeni olduğu nəzərə alınsa belə, bazar dəyərində 10%-lik (təxminən 14 min manatlıq) bir azalmanın baş verməsi heç bir beynəlxalq və milli təcrübəyə uyğun deyil və hüquqi əsaslandırılması qeyri-mümkündür.

Nəzərə alınmalıdır ki, **avtomobilin dəyərindəki azalma faktiki olaraq dəymiş zərərin ağırlığı ilə mütənasib olmalıdır.** Kosmetik təmir olunan və cəmi 2925 manat məbləğində təmir xərci çəkilən avtomobilin dəyərində 13600 manatlıq azalma baş verməsi həm iqtisadi, həm də hüquqi baxımdan əsassız və qeyri-mütənasibdir.

İş üzrə təyin olunmuş ekspertiza tərəfindən avtomobilin dəyər azalmasına dair konkret rəy verilməsi mümkün olmamış və qiymətləndirmə şirkətinin təqdim etdiyi rəydə də hər hansı metodologiya ilə əsaslandırılmamışdır. Belə olan halda, kollegiya beynəlxalq təcrübəni nəzərə alaraq, avtomobilin bazar dəyərindəki azalmanın qiymətləndirmə şirkəti tərəfindən müəyyən edilən ümumi bazar dəyərinin (148.000 manat) 3%-i, yəni 4440 manat miqdarında hesablanmasını əsaslı və ədalətli hesab edir.

**Beləliklə**, avtomobilə vurulan 2925 manatlıq maddi zərər və avtomobilin mövcud bazar dəyərinin 4440 manatlıq azalması nəzərə alınaraq, ümumi maddi ziyan 7365 manat təşkil edir. İddiaçıya sığorta şirkəti tərəfindən artıq 5000 manat ödənildiyindən, cavabdehdən tutulmalı məbləğ 2365 manat müəyyən edilmişdir.

Məhkəmə apellyasiya şikayətini qismən təmin edərək qətnaməni tamamilə ləğv etmiş və iş üzrə yeni qətnamə çıxarmışdır.

## İnzibati xətalara dair işlər üzrə * statuslu qərar

*İşin nömrəsi: 3(078)-283/2025*

***Mübahisəli hüquqi məsələnin qısa məzmunu:***

XX1 oğlu şikayət ərizəsi ilə məhkəməyə müraciət edərək, inzibati tənbehin əsassız, ədalətsiz və qərəzli şəkildə verildiyini nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin onun barəsində xx. xx. 2025-ci il tarixli, MN № xxx saylı qərarının ləğv edilməsi barədə qərar qəbul edilməsini məhkəmədən xahiş etmişdir.

Şikayət vermiş şəxs XX1 oğlu şikayətini belə əsaslandırmışdır ki, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin xx.xx.2025-ci il tarixli, MN №xxx saylı qərarı ilə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 272.3-cü maddəsi ilə təqsirli bilinərək barəsində 1000 (bir min) manat cərimə tətbiq olunmuşdur. Qərarla ona görə razılaşmır ki, ona tətbiq edilən maddədə konkret olaraq qadağan olunmuş yerdə və qadağan olunmuş müddətlərdə ov edilməsindən söhbət gedir. Həmin ərazidə qadağan olunma ilə bağlı hər hansı nişan və ya xəbərdarlıq yox idi. İkinci hal ondan ibarətdir ki, "Balıqçılıq haqqında" Azərbaycan Respublikası Qanununda həvəskar balıq ovu deyilən anlayış vardır. O da həvəskar olaraq bu balıq növündən istifadə etmək və istirahət etmək məqsədilə balıq tutmaq üçün kanala getmişdir. Azərbaycan Respublikası Su Məcəlləsinin müvafiq maddəsinə görə hər hansı qanunazidd addım atmamışdır və onun hərəkəti yolveriləndir, onun əməlində inzibati xəta tərkibi yoxdur. Qeyd edilənlərə görə qərar ləğv edilməli və iş üzrə icraata xitam verilməlidir.

***Birinci instansiya məhkəməsinin mövqeyi:***

Məhkəmə müəyyən etmişdir ki, XX1 oğlunun qadağan olunmuş müddətdə ov etməsi faktı iş materiallarındakı sübutlarla öz təsdiqini tapmır. İşin hallarının hərtərəfli, tam və obyektiv araşdırılması göstərir ki, dövlət orqanı tərəfindən iddia olunan qayda pozuntusuna dair mötəbər sübutlar iş materiallarına əlavə olunmamışdır.

Həmçinin, "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası

Prezidentinin 15 fevral 2016-cı il tarixli 795 nömrəli Fərmanının qüvvədən düşmüş 5.23-cü bəndinə görə həmin Məcəllənin 272-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi baxırdı.

13 dekabr 2024-cü il tarixli 244 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə 5.23-cü bənd ləğv edilmişdir. Sözügedən Fərmanın 5.22-1-ci bəndinə görə həmin Məcəllənin 272-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi baxır.

Sözügedən Fərmanın 5.11-ci bəndinə görə həmin Məcəllənin *228,* 230, 234, 236-242*, 243.0.2*, 243.0.3, 243.0.5, 243.0.6*, 243.0.8, 243.0.9*, 244 (meşə fondu torpaqlarına aid hissəsində)*, 253, 253-1.2 - 253-1.4, 254 - 261*, *266.1 (bu Fərmanın 5.11-1-ci bəndi nəzərə alınmaqla),* 266.2, *266.5–266.13,* 269, 271, 273, 274, *275.1 – 275.3*, 291, 292 *(balıq və su bioresursları istisna olmaqla)* və 541-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi baxır.

Göründüyü kimi Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin şəxsin barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 272.3-cü maddəsi ilə qərar qəbul etmək səlahiyyəti olmadığı halda xx.xx.2025-ci il tarixdə işə baxaraq MN № xxx saylı qərar qəbul etmişdir.

Azərbaycan Respublikası İXM-in 135.1.5-2-ci maddəsinə əsasən inzibati xəta haqqında iş üzrə qərarın buna səlahiyyəti çatmayan hakim və ya orqan (vəzifəli şəxs) tərəfindən qəbul edilməsi həmin qərarın ləğv edilməsi və ya dəyişdirilməsi üçün əsasdır.

Məhkəmə, vətəndaşın qadağan olunmuş müddətdə balıq ovlamasının sübuta yetirilmədiyini və 13.12.2024-cü il tarixli Fərmana əsasən müvafiq orqanın (Xidmətin) bu işə baxmaq səlahiyyətinin olmadığını müəyyən etmişdir. Beləliklə, səlahiyyətsiz orqan tərəfindən verilmiş qanunsuz qərar ləğv edilmiş və iş üzrə icraata xitam verilmişdir.

## İnzibati mübahisələrə dair işlər üzrə * statuslu qərar

*İşin nömrəsi: 2-1(122)-287/2025*

***Mübahisəli hüquqi məsələnin qısa məzmunu:***

İddiaçı tələbini onunla əsaslandırmışdır ki, Şərur şəhəri, S.İbrahimov küçəsi, ev 8 ünvanındakı 1200 kv.m-lik torpaq sahəsi 1970-1972-ci illərdə anası XX2 tərəfindən satın alınmış və orada ev tikilmişdir. Şərur rayon Dövlət Arxiv İdarəsinin arayışı da torpağın anasının adına olduğunu təsdiqləyir. Lakin Aqrar İslahat Komissiyasının sənədləri vaxtında qeydə almaması və torpaq sxeminin itməsi səbəbindən mülkiyyət hüququ rəsmiləşdirilməmişdir. Uzun müddət xaricdə xidmət etdiyi üçün bu problemdən 2017-ci ildə xəbər tutmuşdur. Hazırda əmlak onun istifadəsindədir və bu fakt qonşular tərəfindən təsdiq edilə bilər. Qeyd olunanları nəzərə alaraq, iddiaçı Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində olan "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri" Publik Hüquqi Şəxsinin üzərinə Şərur şəhəri, S.İbrahimov küçəsi, ev 8 ünvanında yerləşən 1200 kv.metr həyətyanı torpaq sahəsi üzərində mülkiyyət hüququnun mərhum XX2 qızına məxsus olması haqqında arayışın verilməsi öhdəliyinin qoyulmasını tələb etmişdir.

***Birinci instansiya məhkəməsinin mövqeyi:***

Məhkəmə hesab etmişdir ki, iddia tələbi maddi hüquq normalarına əsasən təmin edilməlidir.

AR Konstitusiyasının 13 və 29-cu maddələrinə əsasən mülkiyyət hüququ toxunulmazdır və qanunla qorunur.

“Daşınmaz əmlakın dövlət reyestri haqqında” Qanuna əsasən, əmlak üzərində mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatı həmin hüquqların əmələ gəlməsinin, keçməsinin və ya xitam verilməsinin dövlət tərəfindən tanınmasını təsdiq edən hüquqi aktdır. Bu qeydiyyat prosesi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq vahid dövlət reyestrində aparılır.

Qanunvericilik 6 iyul 2006-cı il tarixinədək müvafiq icra hakimiyyəti orqanları tərəfindən verilmiş hüquq müəyyənedici aktları, şəhadətnamələri və qeydiyyat vəsiqələrini dövlət qeydiyyatı üçün birbaşa əsas hesab edir.

Mülkiyyətçinin hüququnu təsdiq edən çıxarışı almadan vəfat etdiyi hallarda isə xüsusi vərəsəlik proseduru nəzərdə tutulur. Belə ki, qeydiyyat

orqanı hüququn vəfat etmiş şəxsə məxsus olması barədə arayış təqdim edir. Yekun çıxarış həmin arayış və müvafiq vərəsəlik sənədləri əsasında birbaşa vərəsənin adına rəsmiləşdirilir.

Nazirlər Kabinetinin 319 nömrəli Təlimatına (bənd 7.1, 7.2) əsasən, mülkiyyətçi çıxarış almadan vəfat etdikdə, notariusun müəyyən etdiyi vərəsələrin müraciəti ilə əmlakın ölmüş şəxsə məxsusluğu barədə **elektron arayış** verilir. Bu arayış "Elektron hökumət" portalında yerləşdirilir və real vaxt rejimində notarius tərəfindən əldə edilir. Yekun çıxarış həmin arayış və vərəsəlik sənədləri əsasında birbaşa vərəsənin adına rəsmiləşdirilir. Azərbaycan Respublikası Prezidentinin 439 nömrəli Fərmanı ilə təsdiq edilmiş Siyahıya əsasən "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanun qüvvəyə minənədək səlahiyyətli orqanlar tərəfindən verilmiş sənədlər qeydiyyat üçün əsas sayılır. Kənd və qəsəbə yaşayış məntəqələrində (statusu dəyişmiş ərazilər daxil olmaqla) **2001-ci il yanvarın 1-dək** inşa edilmiş yaşayış evlərinə və onların torpaq sahələrinə dair **təsərrüfatbaşına kitablardan çıxarışlar** mülkiyyət hüququnu təsdiq edən rəsmi sənəd hesab olunur.

Azərbaycan Respublikası Prezidentinin 818 nömrəli Fərmanı ilə təsdiq edilmiş Qaydalara əsasən ölkə daxilində torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal xəritələrin tərtibi prosesi həyata keçirilir. Bu prosesin əsas məqsədlərindən biri fiziki və hüquqi şəxslərin mülkiyyətində və ya istifadəsində olan torpaq sahələrinin (yaşayış evləri, həyətyanı sahələr, pay torpaqları və s.) sənədlərdəki məkan göstəriciləri ilə **faktiki istifadə vəziyyəti** arasındakı uyğunsuzluqları aradan qaldırmaqdır.

Qanunvericiliyin tələbinə görə, mövcud sərhəd, yerləşmə və konfiqurasiya fərqləri ərazi vahidləri üzrə hazırlanan dürüstləşdirmə layihələri vasitəsilə qaydaya salınmalıdır. Bu zaman əsas prinsip ondan ibarətdir ki, əgər qanunvericiliyin tələbləri ziddiyyət təşkil etmirsə və digər şəxslərin hüquqları pozulmursa, **torpaqların faktiki istifadə vəziyyəti** əsas götürülməlidir.

Eyni zamanda, bu layihələrin tərtibi zamanı hüquqlarına toxunulan bütün mülkiyyətçilər, istifadəçilər və icarəçilər ilə razılaşdırılma aparılması məcburidir. Yalnız bu mərhələlərdən keçdikdən sonra dürüstləşdirilmiş məlumatlar elektron kadastr uçotu sisteminə daxil edilərək torpaq münasibətlərindəki texniki və hüquqi uyğunsuzluqlar rəsmən aradan qaldırılır.

Prezidentin 439 nömrəli Fərmanı ilə təsdiq edilmiş Siyahıya (bənd 2.3) əsasən, kənd və qəsəbə yaşayış məntəqələrində **2001-ci il yanvarın 1-dək** inşa edilmiş yaşayış evləri və onlara aid torpaq sahələri üzərində mülkiyyət hüququnu təsdiq edən sənədlər müəyyən olunmuşdur. Bu qayda həmçinin statusu dəyişərək şəhərə çevrilmiş və ya ləğv edilmiş kənd ərazilərinə də şamil edilir. Sözügedən obyektlər üçün **təsərrüfatbaşına kitablardan çıxarışlar** daşınmaz əmlak üzərində hüquqların əldə edilməsini təsdiq edən rəsmi sənəd hesab olunur.

Şərur Rayon Dövlət Arxivinin təqdim etdiyi təsərrüfatbaşına kitabdan çıxarış və arayışlar mərhum Pakizə Nəcəfovaya **1200 m²** torpaq sahəsinin ayrıldığını birmənalı təsdiq edir. Lakin cavabdeh orqan "İnzibati icraat haqqında" Qanunun 24-cü maddəsinin tələblərinə zidd olaraq, işin hallarını araşdırmadan müraciətin icrasından əsassız imtina etmişdir.

Mərhumun sağlığında mülkiyyət hüququnu reyestrdə rəsmiləşdirməməsi bu hüququn xitamı deyil, onun vərəsələrə keçməsi üçün əsasdır. Mübahisəli torpağın başqa şəxsin adına qeydiyyatda olmadığı nəzərə alınarsa, hazırkı vəziyyət "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 22.2-ci maddəsi və Nazirlər Kabinetinin 319 nömrəli qərarı ilə tənzimlənən vərəsəlik proseduru (Təlimatın 7.1 və 7.2-ci bəndləri) üçün tam hüquqi zəmin yaradır. Beləliklə, məhkəmə araşdırması ilə təsdiq olunmuş mülkiyyət hüququ vərəsəlik qaydasında tanınmalı və rəsmiləşdirilməlidir.

Şərur Rayon Dövlət Arxivinin təqdim etdiyi təsərrüfatbaşına kitabdan çıxarış və arayışlar mərhum Pakizə Nəcəfovaya **1200 m²** torpaq sahəsinin ayrıldığını birmənalı təsdiq edir. Lakin cavabdeh orqan "İnzibati icraat haqqında" Qanunun 24-cü maddəsinin tələblərinə zidd olaraq, işin hallarını araşdırmadan müraciətin icrasından əsassız imtina etmişdir.

Mərhumun sağlığında mülkiyyət hüququnu reyestrdə rəsmiləşdirməməsi bu hüququn xitamı deyil, onun vərəsələrə keçməsi üçün əsasdır. Mübahisəli torpağın başqa şəxsin adına qeydiyyatda olmadığı nəzərə alınarsa, hazırkı vəziyyət "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 22.2-ci maddəsi və Nazirlər Kabinetinin 319 nömrəli qərarı ilə tənzimlənən vərəsəlik proseduru (Təlimatın 7.1 və 7.2-ci bəndləri) üçün tam hüquqi zəmin yaradır.

Məhkəmə cavabdehin imtinasının əsasını təşkil edən “torpaq sahəsinin yerini müəyyənləşdirməyə imkan verən sənədlərin (müvafiq sxem, plan və ya onlardan çıxarış, torpaq sahəsinin təhkim aktı, yaxud müvafiq torpaq sahəsinin yerləşdiyi yeri müəyyən etməyə imkan verən həmin torpaq sahəsində inşa edilmiş tikintiyə dair sənədlər) iddiaçı tərəfindən təqdim

edilməli olmasına dair gətirdiyi arqumenti barədə qeyd edir ki, bu hal imtinanın əsasını təşkil edə bilməz. Çünki mübahisəli torpaq sahəsi ilə bağlı hüquqların qeydiyyatının dəqiq və vaxtında aparılması, dövlət reyestrindən verilən məlumatın tam və düzgün olması, texniki məlumatların dəqiqliklə dövlət uçotunun aparılması, daşınmaz əmlak barəsində bağlanan əqdlər haqqında məlumatların və digər bu kimi hüquqların təmin edilməsi qanunvericiliyə uyğun olaraq cavabdehin məsuliyyət sferasına aid olunan məsələlərdir. Sözügedən sənədlərin təqdim edilməməsi vətəndaşın ziyanına şərh oluna və ya onun məsuliyyətinə səbəb ola bilməz və ona müvafiq arayışın verilməsini təkzib edə bilməz. Bu məsuliyyət “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanunundan irəli gəlir (maddə 23).

Məhkəmə cavabdehin imtinasını (hərəkətləri) qanuna zidd hesab edərək iddiaçının hüquqlarının pozulmasına səbəb olan hal kimi qiymətləndirmişdir. Göstərilənlərə əsasən məhkəmə Şərur şəhəri, S.İbrahimov küçəsi, ev 8 ünvanında yerləşən 1200 kv.metr həyətyanı torpaq sahəsi üzərində mülkiyyət hüququnun mərhum XX2 qızına məxsus olması haqqında arayışın verilməsi öhdəliyini cavabdeh Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində “Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri” Publik Hüquqi Şəxsin üzərinə qoymuşdur.



# NƏZƏRİYYƏ VƏ HÜQUQTƏTBİQETMƏ PROBLEMLƏRİ

*Səadət Bəktaşi*
*Azərbaycan Hakimlər İttifaqı*
*İdarə Heyətinin üzvü*

## Hüquqi mövqe ilə bağlı məhkəmə qərarlarının presedent gücü və müraciətlərə təkrar baxılmasının dinamikası: praktik və nəzəri baxış

İnzibati icraat hüquq subyektləri ilə dövlət arasında yaranan mürəkkəb münasibətlərin obrazlı desək, "ilk instansiyası"dır. Burada qəbul edilən hər bir inzibati akt sonradan məhkəmə mübahisəsinin obyektinə çevrilə və fərdin hüquq müdafiəsinin effektivliyini müəyyən edə bilər. Azərbaycan Respublikası Konstitusiyası, "İnzibati icraat haqqında" Qanun, eləcə də İnzibati Prosessual Məcəllə inzibati orqanlara işin faktiki hallarını hərtərəfli, tam və obyektiv araşdırmaq, maraqlı şəxslərin iştirakını təmin etmək və nəticə etibarilə əsaslandırılmış qərar qəbul etmək öhdəliyi yaradır. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Konstitusiyasının 60-cı maddəsində hüquq və azadlıqların inzibati və məhkəmə təminatı nəzərdə tutulmuş, həmçinin hər kəsin hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı inzibati qaydada və məhkəməyə şikayət etmək hüququ olduğu təsbit edilmişdir.

"İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 20.1-ci maddəsinə görə hər bir şəxsin onun hüquq və qanuni maraqlarına bilavasitə aid olan məsələlərlə bağlı inzibati orqana müraciət etmək, vəsatət vermək və ya inzibati orqandan məlumat əldə etmək hüququ vardır. Qanunda başqa qayda nəzərdə tutulmamışdırsa, inzibati orqan onun səlahiyyətlərinə aid olan məsələlər üzrə müraciətlərə baxmağa, həmin müraciətlər üzrə müvafiq qərar qəbul etməyə və ya məlumat verməyə borcludur.

Sözügedən qanunun 24-cü maddəsində isə deyilir ki, "İnzibati orqan inzibati icraat zamanı işin düzgün həlli üçün əhəmiyyət kəsb edən bütün faktiki halları hərtərəfli, tam və obyektiv araşdırmağa borcludur" *(birinci hissə)*. "İnzibati orqan maraqlı şəxslərin xeyrinə olan halların araşdırılmasından və nəzərə alınmasından imtina edə bilməz" *(ikinci hissə)*. "İnzibati icraat zamanı işin bütün hallarının araşdırılması inzibati orqanın xidməti vəzifəsindən irəli gəlir. Araşdırmanın üsulu və həcmi inzibati orqan tərəfin-

dən müəyyən edilir. İnzibati orqan maraqlı şəxslərin izahatları ilə və təqdim etdiyi sübutlarla bağlı deyildir" (üçüncü hissə). "Təqdim olunmuş sübutlar yetərli olmadıqda, inzibati orqan öz təşəbbüsü ilə əlavə sübutlar toplamağa borcludur" *(dördüncü hissə)*. "İnzibati orqan inzibati icraatda iştirak edən şəxslər tərəfindən təqdim olunmuş və baxılması onun səlahiyyət dairəsinə aid olan ərizə, şikayət və ya vəsatətləri işə aid olmaması və ya əsassız olması səbəbindən qəbul etməkdən imtina edə bilməz" *(beşinci hissə)*.

Qeyd edək ki, analoji müddəalar bir sıra ölkələrin qanunvericiliyində də mövcuddur. Məsələn, **Almaniyada** "Bundes-verwaltungs-verfahrensgesetz"in 24-cü paraqrafında "Araşdırma prinsipi" inzibati orqanı işi "ex-officio" araşdırmağa və faktların toplanmasını yalnız tərəflərin təqdim etdikləri sübutlarla məhdudlaşdırmamağa məcbur edir.

Ümumilikdə götürdükdə, inzibati orqanlar qanunun tələblərinə riayət etməyə borcludurlar və yalnız qanunla nəzərdə tutulmuş hallarda və qaydada şəxsin hüquq və azadlıqlarına müdaxilə edə bilərlər.

Sadalanan bu tələblər eyni zamanda hüquqi dövlətdə qanunun aliliyi və qanunçuluq prinsiplərindən irəli gəlir. Qanunvericinin bu yanaşmasının məqsədi inzibati orqan tərəfindən qanunun tələblərinə cavab verən inzibati icraat üzrə yalnız hərtərəfli və obyektiv, düzgün qərar qəbul etməyə imkan verən həcmdə araşdırma aparıldıqdan sonra, onun tərəfindən əsaslandırılmış qərarın qəbul edilməsinin təmin olunmasıdır.

Həmçinin, xüsusilə də mübahisə yarandığı təqdirdə, məhkəmə tərəfindən həmin qərarın qanunauyğunluğunun inzibati icraat materialları əsasında səmərəli şəkildə yoxlanılmasını təmin etməkdən ibarətdir.

Başqa sözlə, inzibati icraat və proses hüququnun konsepsiyasına görə, inzibati məhkəmə inzibati orqanın əvəzinə icraat aparmaq və ya natamam aparılmış inzibati icraatı tamamlamaq öhdəliyi daşımır, məhkəmə ona təqdim olunmuş icraat materialları (inzibati icraat materialları və ya işi) əsasında inzibati orqanın qəbul etdiyi qərarın qanunauyğunluğunu məhkəmə nəzarəti qaydasında yoxlayır.

Təəssüf ki, məhkəmələrdə bir çox inzibati işlər öyrənilərkən qarşılaşdığımız problemlər əsasən inzibati orqan tərəfindən inzibati icraatın ümumiyyətlə, keçirilməməsi və ya inzibati icraat haqqında qanunvericiliyin tələblərinə tam riayət edilmədən həyata keçirilməsi, maraqlı şəxsin inzibati icraata cəlb edilməməsi, onun dinlənilmə hüququnun təmin edilməməsi, inzibati icraat zamanı işin düzgün həlli üçün əhəmiyyət kəsb edən bütün faktiki halların araşdırılmaması, işin düzgün həlli üçün zəruri sübutların əldə edilməməsi,

zəruri araşdırma aparılmadan formal əsaslarla imtinanın verilməsi və ya qərarın qəbul edilməməsi ilə bağlıdır.

İnzibati orqanlar tərəfindən inzibati icraata bu cür qüsurlu və laqeyd yanaşma isə məhkəmələrdə işlərin sayının və həcminin süni şəkildə artması ilə nəticələnir. Bir çox inzibati mübahisələrə məhkəmələrdə baxılarkən inzibati orqanın görməli olduğu işlər onların əvəzinə məhkəmələr tərəfindən həyata keçirilməli olur. Hətta iş o yerə çatıb ki, aidiyyəti məhkəmələrdə bu qəbildən olan işlərə baxılarkən tərəflər də bunu məhkəmənin vəzifəsi kimi qəbul edirlər. Halbuki, inzibati orqan ona edilən müraciət üzrə inzibati icraat başlayaraq müraciətin əsaslı olub-olmadığına dair sübutları özü toplamalıdır.

İnzibati orqanlar qanunvericiliyin tələblərinə əməl etmədən, işin düzgün həlli üçün əhəmiyyət kəsb edən bütün faktiki halları araşdırmadan, sübutları əldə etmədən, formal əsaslarla nəticəyə gələrsə və ya inzibati icraat həyata keçirməzsə, inzibati məhkəmələrdə işə baxılarkən əgər iddiaçının tələbi əsasında müəyyən konkret qərarın qəbul edilməsi mümkün olmadıqda, məhkəmə inzibati orqanın üzərinə, məhkəmənin hüquqi mövqeyi nəzərə alınmaqla müraciətin yenidən baxılması barədə öhdəlik qoya bilər.

Məcburetmə haqqında iddia növləri üzrə işlərə baxılarkən qeyd edilən məsələlərin tənzimlənməsi qanunvericilikdə nəzərdə tutulmuşdur. Belə ki, Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 73.1-ci maddəsinə əsasən inzibati aktın qəbulundan imtina olunmasının və ya cavabdehin hərəkətsizliyi nəticəsində inzibati aktın qəbul edilməməsinin qanuna zidd olduğu hallarda və iddiaçının hüquqlarının pozulmasına səbəb olan hallarda, məhkəmə inzibati orqanın üzərinə inzibati aktın qəbul edilməsi barədə öhdəlik qoyur.

Həmçinin həmin Məcəllənin 73.2-ci maddəsinə əsasən iddiaçının tələbi əsasında müəyyən konkret qərarın qəbul edilməsi mümkün olmadıqda, məhkəmə inzibati orqanın üzərinə, məhkəmənin hüquqi mövqeyini nəzərə almaqla, iddiaçının xeyrinə müvafiq inzibati aktın qəbul edilməsi barədə öhdəlik qoyur.

Təcrübədə isə bir çox hallarda inzibati orqanlar qanunla onların səlahiyyətinə aid edilmiş işlər üzrə inzibati icraatı həyata keçirməyərək, işin faktiki hallarının müəyyən olunması üçün zəruri sübutları müstəqil şəkildə toplamalı olduqları halda, bunları etmir. Bu isə nəticədə düzgün olmayan qərarların qəbul edilməsi kimi xoşagəlməz halları meydana çıxarır.

Bu halda işlərə məhkəmələrdə baxılarkən məhkəmə tərəfindən müvafiq sorğular verilərək yeni sübutların toplanılması zərurəti yaranır.

Daha sonra qanunvericiliyə əsasən inzibati orqan sübutları əldə etməyə, onları qiymətləndirməyə, qəbul edəcəyi inzibati aktda əsaslandırmaq istədiyi bütün faktlar, dəlillər və ya sübutlar barədə, habelə inzibati aktın qəbulu

üçün təklif etdiyi hüquqi əsas barədə maraqlı şəxslərə izahat və ya şərh verməyə borcludur.

İnzibati orqan inzibati icraat barədə maraqlı şəxsə və ya onun nümayəndəsinə məlumat verməli və işdə onun iştirakını təmin etməlidir.

Bir çox hallarda inzibati icraat barədə maraqlı şəxsə məlumat verilmədiyindən və onun iştirakı təmin edilmədiyindən işin faktiki hallarının düzgün müəyyən olunmaması və zəruri sübutların toplanılmaması səbəbindən inzibati mübahisə inzibati orqanın formal əsaslarla qərar qəbul etməsi ilə nəticələnir.

Lakin qeyd etməliyik ki, sözügedən məsələlər üzrə müəyyən məhkəmə təcrübəsi formalaşdırılmışdır. Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasının formalaşmış təcrübəsinə nəzər salsaq, görərik ki, kollegiya belə işlərə baxarkən bir sıra hallarda iş üzrə yeni qərarlar qəbul edərək inzibati orqanların üzərinə məhkəmənin hüquqi mövqeyi nəzərə alınmaqla, müraciətin yenidən baxılması və müvafiq qərarın qəbul edilməsi öhdəliyini qoymuşdur. Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasının 26 noyabr 2024-cü il tarixli, 2-1(102)-2581/2024 nömrəli qərarında qeyd edilmişdir ki, iddiaçı fiziki şəxs cavabdeh Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə qarşı iddia ərizəsi ilə inzibati məhkəməyə müraciət edərək ünvanlı dövlət sosial yardımın təyin edilməsi öhdəliyinin cavabdehin üzərinə qoyulması barədə qərar çıxarılmasını xahiş etmişdir. Belə ki, cavabdeh iddiaçının "ərizə-bəyannamə"də göstərdiyi ünvanda yaşamadığını qeyd edərək ünvanlı dövlət sosial yardımın təyin olunmasından imtina etmişdir.

Birinci instansiya məhkəməsinin müvafiq qərarı ilə iddia təmin edilmiş, iddiaçıya ünvanlı sosial yardımın təyin edilməsi öhdəliyi cavabdehin üzərinə qoyulmuşdur.

Birinci instansiya məhkəməsi gəldiyi nəticəni onunla əsaslandırmışdır ki, sosial yardımın təyin olunmasından imtina mənzilin müayinəsi aparılmadan verilmişdir.

Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının müvafiq qərarı ilə cavabdehin apellyasiya şikayəti təmin edilməmiş, birinci instansiya məhkəməsinin qərarı dəyişdirilmədən saxlanılmışdır.

Kassasiya şikayəti üzrə Ali Məhkəmənin İnzibati Kollegiyasında işə baxan məhkəmə tərkibi qeyd etmişdir ki, iddiaçının iddia olunan ünvanda yaşaması faktı və həmin ünvan üzrə yaşayış sahəsinin maddi-məişət şəraiti inzibati icraat çərçivəsində cavabdeh tərəfindən obyektiv araşdırma prinsipinin tələbinə uyğun olaraq araşdırılmamış və həmin hallara yoxlamanın obyektiv nəticələri nəzərə alınmadan qiymət verilmişdir.

Məhkəmə kollegiyasının qənaətinə görə, bu qərarın əsaslandırma hissəsində qeyd edilən hüquqi mövqe baxımından, cavabdeh tərəfindən iddiaçının ünvanlı dövlət sosial yardımının təyin edilməsi barədə müraciətinə baxılması zamanı inzibati icraatla bağlı istinad olunan normaların tələblərinə riayət edilməmişdir. Odur ki, həmin məsələyə inzibati icraat qanunvericiliyinin müvafiq müddəalarına riayət edilməklə yenidən baxılmasının, obyektiv qanunauyğun qərarın qəbulu üçün tələb olunan qaydada və həcmdə araşdırmanın aparılmasının zəruri olduğunu, eləcə də həll edilməli olan məsələyə dair araşdırmanın həcmini nəzərə alaraq, məhkəmə kollegiyası hesab etmişdir ki, iddiaçının ünvanlı dövlət sosial yardımının təyin edilməsi barədə müraciətinə yenidən baxılması və müvafiq qərarın qəbul edilməsi öhdəliyi cavabdehin üzərinə qoyulmalıdır.

Məhkəmələrdə inzibati mübahisələrə baxılarkən cavabdeh inzibati orqanların iddiaçıların müraciətlərinə yenidən baxılması ilə bağlı mövqeyi Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasının digər qərarlarında da öz əksini tapmışdır.

Bununla yanaşı, bir sıra hallarda məhkəmənin, bir qayda olaraq, iddiaçının tələbinə uyğun qərar qəbul edə bilməsi üç halda qanunvericiliklə məhdudlaşdırılır:

**1.** inzibati orqan tərəfindən diskresion səlahiyyət əsasında qərar qəbul edildikdə;

**2.** inzibati aktın qəbulu zamanı inzibati orqanın istinad etdiyi maddi hüquq normasının tətbiqi şərtləri həmin orqanın özünün qiymətləndirməsinə əsasən müəyyən olunduqda və ya hər hansı hüquq normasının tətbiqi ilə bağlı inzibati orqana qiymətləndirmə azadlığı verildikdə;

**3.** inzibati aktın qəbul edilməsi üçün araşdırmanın davam etdirilməsi zəruri olduqda və məhkəmə tərəfindən müstəqil şəkildə, məhkəmə baxışı çərçivəsində belə araşdırmanın həyata keçirilməsi mümkün olmadıqda.

Bu İnzibati Prosessual Məcəllənin 73.3-cü maddəsi ilə tənzimlənir.

Qanunvericiliyin qeyd edilən halları ilə rastlaşıldığı hallarda da məhkəmələr iddiaçının tələbi əsasında müəyyən konkret qərarın qəbul edilməsi mümkün olmadığından inzibati orqanın üzərinə, məhkəmənin hüquqi mövqeyini nəzərə almaqla, iddiaçının xeyrinə müvafiq inzibati aktın qəbul edilməsi barədə öhdəlik qoymalıdırlar.

Göründüyü kimi, qanunvericilik iddiaçının tələbi əsasında müəyyən konkret qərarın qəbul edilməsi mümkün olmadıqda, məhkəmənin hüquqi mövqeyi nəzərə alınmaqla, müraciətin yenidən baxılması öhdəliyinin inzibati orqanın üzərinə qoyulması imkanını yaratmışdır.

Məhkəmələr iddiaçının tələbi əsasında müəyyən konkret qərarın qəbul edilməsi mümkün olmadıqda qanunvericiliyin bu tələbini tətbiq edə bilər.

Qeyd olunanlardan əlavə diqqətə çatdırılmalıdır ki, məcburetmə haqqında iddia vasitəsi ilə iddiaçı onun arzuladığı inzibati aktı qəbul etmək vəzifəsini cavabdehin üzərinə qoymağı məhkəmədən tələb edə bilər (İPM 33.1).

Bu həm iddiaçının arzuladığı inzibati aktın qəbulundan cavabdeh tərəfindən imtina edildiyi hallara, həm də cavabdehin hərəkətsizliyi səbəbindən (hərəkətsizliyə qarşı iddia) inzibati aktın qəbul edilmədiyi hallara şamil olunur (İPM 33.2).

İnzibati akt inzibati orqanın hərəkətsizliyi səbəbindən qəbul edilməmişdirsə, məhkəmə ona inzibati aktın qəbul olunması üçün müəyyən müddət təyin edir. İnzibati orqan isə inzibati aktın qəbul edilməsi barədə məhkəməyə məlumat verməlidir (İPM 33.3).

Məhkəmə tərəfindən təyin edilmiş müddət bitənədək inzibati orqan tərəfindən inzibati akt qəbul edilmədikdə, məhkəmə həmin müddətin bitdiyi vaxtdan 3 ay ərzində iş üzrə qərar qəbul edir və məhkəmənin həmin qərarı inzibati aktı əvəz edir (İPM 33.4).

Həmçinin (bu Məcəllənin 73.3-cü maddəsində nəzərdə tutulmuş hallarda) məhkəmə öz qərarında inzibati orqana inzibati aktla bağlı müvafiq göstərişlər verməyə haqlıdır.

Hesab edirik ki, bu institutun tətbiqi də inzibati orqanlara vəzifələrini tam və obyektiv icra etməyə, səmərəli məhkəmə aktlarının qəbul edilməsinə səbəb olacaqdır.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi. Bakı, Hüquq Yayın Evi, 2023.
2. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanunu.
3. **S.Kərimov, G.Vəliyeva.** "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun Kommentariyası, "Hüquq ədəbiyyatı nəşriyyatı", Bakı, 2006.
4. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin Kommentariyası. Bakı, 2009.
5. Bundesrepublik Deutschland, Gesetz über das Verfahren der Verwaltungsbehörden (Verwaltungsverfahrensgesetz – VwVfG), BGBl I 1976, 1253, zuletzt geändert durch Art 2 Gesetz v 20 Nov 2023, BGBl I 2023 Nr 328 https://www.gesetze-im-internet.de/vwvfg/ abgerufen 3 Juli 2025.



# AZAD TRİBUNA

***Yunis Xəlilov***
***Naxçıvan Muxtar Respublikası***
***Ali Məhkəməsinin əməkdaşı***

## Təqsirsizlik prezumpsiyasına dair İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin mövqeyinə dair mülahizələr

Dünyada bir sıra beynəlxalq məhkəmələr (BMT-nin Beynəlxalq Haaqa Ədalət Məhkəməsi, Afrika Ədalət Məhkəməsi və s.) fəaliyyət göstərsə də, bu məqalədə həmin məhkəmələr arasında nə üçün İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (bundan sonra – Avropa Məhkəməsi) təqsirsizlik prezumpsiyasına dair mövqeyi və ona dair mülahizələrimiz işıqlandırılmışdır? Bunun bir sıra səbəbləri vardır. Birincisi, ona görə ki, Avropa Məhkəməsi pozulmuş insan hüquqlarına dair işlərdə qərar verməsi üçün təşkil olunan ilk ixtisaslaşmış beynəlxalq məhkəmədir. Buna görə də sözügedən məhkəmə digər beynəlxalq məhkəmələrdən fərqli olaraq insan hüquqları sahəsində daha çox qərar qəbul etmişdir və bu sahədə böyük təcrübəyə malikdir *(7, s. 786)*. İkincisi, Məhkəmə üzv dövlətləri daxili hüquqlarında insan hüquqlarını pozan normaları dəyişdirməyə dəvət edən beynəlxalq qurum olduğundan hesab edirik ki, sözügedən məhkəmənin təqsirsizlik prezumpsiyası ilə bağlı presedent təcrübəsi ölkəmizin milli qanunvericiliyinin də təkmilləşdirilməsi üçün faydalıdır. Məhz bu səbəblərə görə də Avropa Məhkəməsinin təqsirsizlik prezumpsiyasına dair mövqeyi əhəmiyyət kəsb edir.

Qeyd edək ki, "İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında" Avropa Konvensiyasının (bundan sonra – Avropa Konvensiyası) 6-cı maddəsi ədalətli məhkəmə araşdırması hüququna həsr olunmuşdur. Həmin maddədə deyilir: "Hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir. Məhkəmə qərarı açıq elan edilir, lakin demokratik cəmiyyətdə əxlaq, ictimai qayda və ya milli təhlükəsizlik mülahizələrinə görə, həmçinin yetkinlik yaşına çatmayanların maraqları və ya tərəflərin şəxsi həyatının müdafiəsi bunu tələb

etdikdə, yaxud məhkəmənin fikrincə aşkarlığın ədalət mühakiməsinin maraqlarını poza biləcəyi xüsusi hallar zamanı ciddi zərurət olduqda mətbuat və ictimaiyyət bütün proses boyu və ya onun bir hissəsində məhkəmə iclasına buraxılmaya bilər" *(birinci hissə)*; ***"Cinayət törətməkdə ittiham olunan hər kəs onun təqsiri qanun əsasında sübut edilənədək təqsirsiz hesab edilir"*** *(ikinci hissə)*; Cinayət törətməkdə ittiham olunan hər kəs, ən azı aşağıdakı hüquqlara malikdir:

(a) ona qarşı irəli sürülmüş ittihamın xarakteri və əsasları haqqında onun başa düşdüyü dildə dərhal və ətraflı məlumatlandırılmaq;

(b) öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxta və imkana malik olmaq;

(c) şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsi ilə özünü müdafiə etmək və ya müdafiəçinin xidmətini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman, ədalət mühakiməsinin maraqları tələb etdikdə, belə müdafiədən pulsuz istifadə etmək;

(d) onun əleyhinə ifadə vermiş şahidləri dindirmək və ya bu şahidlərin dindirilməsinə nail olmaq və onun əleyhinə ifadə vermiş şahidlər üçün eyni olan şərtlərlə onun lehinə olan şahidlərin çağırılması və dindirilməsi hüququna malik olmaq;

(e) məhkəmədə istifadə olunan dili başa düşmürsə və ya bu dildə danışa bilmirsə, tərcüməçinin pulsuz köməyindən istifadə etmək" *(üçüncü hissə)*.

Göründüyü kimi, təqsirsizlik prezumpsiyası Avropa Konvensiyasının 6.2-ci maddəsində nəzərdə tutulmuşdur və bu hüquq ədalətli məhkəmə araşdırması hüququnun tərkib hissəsidir.

Avropa Məhkəməsinin təqsirsizlik prezumpsiyası ilə bağlı qərarları, bir qayda olaraq, Avropa Konvensiyasının 6.2-ci maddəsinə əsaslanır. Lakin istisnalar da mövcuddur. Məsələn, təəccüb doğuran məqam odur ki, hüquqazidd dəlillərlə bağlı məsələ Məhkəmə tərəfindən Konvensiyanın 6.2-ci maddəsi ilə deyil, 6.1-ci maddəsinin müstəvisində qiymətləndirilməkdədir. Halbuki, sözügedən məsələ birbaşa təqsirsizlik prezumpsiyası ilə bağlıdır.

Avropa Məhkəməsi Konvensiyanın 6.2-ci maddəsində nəzərdə tutulan təqsirsizlik prezumpsiyası ilə 6.1-ci maddədə əks olunan ədalətli məhkəmə araşdırması ("fair trial") hüququ arasındakı əlaqəyə konkret bir açıqlama verməmişdir *(6, s. 14)*. Məhkəmə Konvensiyanın 6.2-ci maddəsində nəzərdə tutulan təqsirsizlik prezumpsiyasını 6.1-ci maddədə əks olunan ədalətli məhkəmə araşdırması hüququnun davamı və həmin hüququn xüsusi forması hesab edir *("Deweer Belçikaya qarşı" iş, paraqraf 56-57)*. Sözügedən məsələ ilə bağlı əsas görüş bundan ibarətdir ki, Konvensiyanın 6-cı

maddəsinin ikinci hissəsi üçüncü hissə ilə birlikdə birinci hissədəki ədalətli məhkəmə araşdırması hüququnun detallarının açıqlamasıdır *(4, s. 404, 6, s.12).* Bu nöqteyi-nəzərdən Konvensiyanın 6-cı maddəsinin ikinci hissəsinin pozulması ilə bağlı müraciət varsa, bu müraciət ikinci hissənin pozulması halı kimi qəbul edilməsə də, birinci hissənin pozulması olaraq qiymətləndirilə bilər. Bununla birlikdə ikinci hissənin pozulması birinci hissənin də pozulması anlamını daşıyır. Schroederə görə ikinci hissədəki hüquq üçüncü hissədəkilərlə birlikdə "ədalətli məhkəmə araşdırması"nın ("fair trial") nüvəsini və əsasını təşkil edir.

Avropa Məhkəməsinin təcrübəsində təqsirsizlik prezumpsiyasının tətbiq dairəsi cinayət hesab edilən əməllər üzrə həyata keçirilən ədalət mühakiməsini əhatə edir. Başqa sözlə, bu hüquq cinayət törətməkdə ittiham olunan təqsirləndirilən şəxslərə şamil olunur. Lakin Məhkəmə "***Alber və Le Kompt Belçikaya qarşı"*** işdə (10 fevral 1983-cü il) qeyd etmişdir ki, həmin bənd Konvensiya əsasında "cinayət işi" sayıla bilən müəyyən növ mülki işlərə, məsələn, peşə fəaliyyəti ilə bağlı intizam proseslərinə də tətbiq edilir *(5, s. 76-77).*

Qeyd edək ki, təqsirsizlik prezumpsiyasının tətbiqi üçün mütləq cinayət işinin başlanması şərt deyil. Avropa Məhkəməsi "cinayət ittihamı"na avtonom anlayış verərək milli hüquq əsasında tövsifi yalnız nisbi dəyər hesab edir. Məhkəmənin mövqeyi belədir ki, Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin məqsədləri üçün cinayət törətməsi barədə ehtimalın mövcudluğu haqqında şəxsin səlahiyyətli dövlət orqanı tərəfindən rəsmi məlumatlandırılması (bildiriş göndərilməsi yolu ilə və s.) "ittiham" hesab edilir və bu məlumatlandırmanı aldığı andan şəxsə təqsirsizlik prezumpsiyası tətbiq olunur.

Avropa Məhkəməsi ***"Eckle Almaniyaya qarşı"*** işdə (1982-ci il) qeyd etmişdir ki, törədilmiş cinayətlə bağlı ehtimalın mövcudluğu haqqında şəxsin rəsmi olaraq məlumatlandırılması ilə yanaşı, şübhəlinin vəziyyətinə əhəmiyyətli dərəcədə təsir edən digər prosedur və tədbirlər də "ittiham" sayıla bilər.

Bundan başqa, gömrük cinayətlərinin istintaqını aparan orqanlar tərəfindən şəxsin dəlil təqdim etməsinin və bank hesabının dondurulmasının tələb edilməsi (***"Funke Fransaya qarşı"*** iş), habelə istintaqın ilkin mərhələsi başlamadan əvvəl şəxsin müdafiəçi ilə təmin olunması (***"Angelucci İtaliyaya qarşı"*** iş), deputatla bağlı bir işdə isə prokurorluq orqanı tərəfindən onun toxunulmazlıq hüququna xitam verilməsi tələbi (***"Frau İtaliyaya qarşı"*** iş) Avropa Məhkəməsi tərəfindən "cinayət ittihamı" olaraq qəbul edilmişdir.

Məhkəmə ***“Engel və digərləri Hollandiyaya qarşı”*** və ***“Köniq Almaniyaya qarşı”*** işlərdə “cinayət ittihamı”nın avtonom anlayış olduğunu, Məhkəmənin mövqeyinin bu anlayışın ölkələrin daxili hüquqlarındakı yanaşması ilə bağlı olmadığını bəyan etmişdir *(“Engel və digərləri Hollandiyaya qarşı” iş üzrə 08 iyun 1976-cı il tarixli qərarın 81-82-ci paraqrafları; “Köniq Almaniyaya qarşı” iş üzrə 28 iyun 1978-ci il tarixli qərarın 88-89-cu paraqrafları).*

Bu baxımdan dövlətlər konkret bir əməli cinayət olaraq qiymətləndirməkdə sərbəstdir. Dövlətlərin daxili qanunvericiliyində cinayət sayılan əməl Konvensiyanın tətbiqi zamanı da cinayət hesab edilir. Lakin daxili qanunvericilikdə cinayət sayılmayan əməl, məsələn, intizam məsuliyyəti yaradan hərəkət Konvensiyanın tətbiqi zamanı təqsirli əməl olaraq qiymətləndirilə və 6-cı maddənin təsiri altına düşə bilər *(1, s. 248, 3, s. 83).* Bu yolla Avropa Məhkəməsi tərəf dövlətlərin Konvensiyanın 6-cı maddəsindəki təminatlardan yayınmağının qarşısını alır.

Hansı əməllərin cinayət sayılması və ya intizam məsuliyyətinə səbəb olan hərəkət olmasının beynəlxalq arenada qəbul edilmiş vahid kriteriyaları və ölçüləri əlbəttə ki, yoxdur. Buna baxmayaraq, Konvensiyanın xüsusilə 6-cı maddəsindəki təminatların qarant altına alınmasını tərəf dövlətlərin ixtiyarına buraxmaq istəməyən Avropa Məhkəməsi sözügedən məsələyə dair kriteriyalar müəyyən etmişdir. Belə ki, Məhkəmə ***“Engel və digərləri Hollandiyaya qarşı”*** iş üzrə qərarında, eləcə də bundan sonrakı qərarlarında konkret kriteriyaları daha da təkmilləşdirib Konvensiyanın 6-cı maddəsi çərçivəsində cinayət törətməkdə ittiham olunan şəxs sayılıb-sayılmama məsələsini həll edərkən üç meyar müəyyənləşdirmişdir: **I.** Əməlin milli hüquq baxımından tövsifi; **II.** Cinayətin təbiəti və ya əməlin xarakteri; **III.** Maraqlı şəxsin məruz qala biləcəyi sanksiyanın xarakteri və ağırlıq dərəcəsi *(“Engel və digərləri Hollandiyaya qarşı” iş üzrə 08 iyun 1976-cı il tarixli qərarın 82-83-cü paraqrafları; “Ravnsborg İsveçə qarşı” iş üzrə 23 mart 1994-cü il tarixli qərarın 33-35-ci paraqrafları) (1, s. 248, 3, s. 84-99).*

Bu üç meyarın eyni anda hamısının birlikdə olması tələb olunmur. Bunlardan birinin qiymətləndirilməsi Konvensiyanın 6-cı maddəsinin təmin olunması baxımından yetərlidir. Lakin bir çox hallarda xüsusilə də “b” və “c” bəndlərindəki meyarlar birlikdə götürülməklə bütöv olaraq göz önünə alınmaqdadır *(2, s. 409).*

Beləliklə, Məhkəmə bəzi hallarda cinayət qanunvericiliyi ilə cinayət sayılmasa da, hətta intizam xətasını belə cinayət ittihamı kimi

qiymətləndirib Konvensiyanın 6-cı maddəsinin tətbiq dairəsi daxilində araşdırır.

Göründüyü kimi təqsirsizlik prezumpsiyasının tətbiq dairəsi Məhkəmə tərəfindən genişləndirilmişdir *(3, s. 84, 8, s. 46)*.

Dediklərimizi yekunlaşdırsaq, o nəticəyə gələ bilərik ki, Avropa Konvensiyasının 6.2-ci maddəsi təqsirsizlik prezumpsiyası ilə bağlı müddəanı ehtiva edir və bu hüquq ədalətli məhkəmə araşdırması hüququnun tərkib hissəsidir. Avropa Məhkəməsinin təqsirsizlik prezumpsiyasına dair qərarları son dərəcə mühüm hüquqi dəyərə malikdir.

**İstifadə olunun ədəbiyyat siyahısı:**


1. **Gölcüklü F., Gözübüyük A.Ş.** Avrupa İnsan Hakları Sözleşmesi ve Uygulaması. 2. Baskı, Turhan Kitabevi, Ankara, 1998
2. **Grabenwarter C.** "Yargılanma Güvenceleri – Adil Yargılama Hakkı (İnsan Hüquqları və Əsas Azadlıqlarına dair Avropa Konvensiyasının 6-cı maddəsi)". Çev. Osman Can. in: Adil Yargılanma Hakkı və Ceza Hukuku, Karşılaştırmalı Güncel Ceza Hukuku Serisi 3. Seçkin Yayınevi, Ankara, 2004
3. **İnceoğlu S.** İnsan Hakları Avrupa Mahkemesi Kararlarında Adil Yargılanma Hakkı. Beta Yayınları, İstanbul, 2002
4. **Janis Mark/Kay. Richard/Bradley, Anthony.** European Human Rights Law. Second Edition, Oxford University Press, 2000
5. **Nula M., Katarina H.** Ədalətli məhkəmə araşdırması hüququ. İnsan hüquqları haqqında Avropa Konvensiyasının 6-cı maddəsinin tətbiqinə dair məlumat kitabçası. 2001
6. **Schroeder F-C.** "Ceza Muhakimesinde "Fair trial" İlkesi", İstanbul Barosu Yayınları, İstanbul, 1999, (1-116)
7. **Steiner H.J., Alston P.** International Human Rights in Context. Second Edition. Oxford University Press, 1999
8. **Üzülmez İ.** Türk hukukunda Suçsuzluk karinesi ve Sonuçları. Türkiye Barolar Birliyi Dergisi. Yıl 18. 58 (Mayıs-Haziran 2005)



# ALİ MƏHKƏMƏNİN MƏTBUAT XİDMƏTİNDƏN

## 2025-ci ilin iyul-dekabr aylarında keçirilən tədbirlərin xülasəsi

İyul ayının 14-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin videokonfrans formatında geniş tərkibdə iclası keçirilib. İclasda Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimləri ilə yanaşı muxtar respublikada fəaliyyət göstərən birinci instansiya məhkəmələrinin sədr və hakimləri iştirak ediblər.

İclası giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədrinin müavini Müşfiq Həsənov açaraq Məhkəmənin cari fəaliyyəti, işlərə operativ baxılması və vətəndaş məmnunluğunun təmin olunması baxımından görülən işlər barədə məlumat verib.

Sonra muxtar respublikada fəaliyyət göstərən rayon (şəhər) və ixtisaslaşdırılmış məhkəmələrin 2024-cü il üzrə fəaliyyətlərinin yekunları müzakirə olunub, yekun hesabatlar dinlənilib.

İclas müzakirələrlə davam edib.

≈≈≈




İyulun 28-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin videokonfrans formatında geniş tərkibdə iclası keçirilib. İclasda Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və muxtar respublikada fəaliyyət göstərən birinci instansiya məhkəmələrinin sədr və hakimləri iştirak ediblər.

İclası giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi bildirib ki, 2025-ci ilin ilk yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində ədalət mühakiməsinin

obyektiv şəkildə həyata keçirilməsi, hüquqi maarifləndirmə işinin daha da gücləndirilməsi, vətəndaşların müraciətlərinə vaxtında baxılması sahəsində genişmiqyaslı tədbirlər həyata keçirilib. 2025-ci ilin ölkədə “Konstitusiya və Suverenlik İli” elan olunduğunu, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin fəaliyyətinin 100-cü ilinin bu ilə təsadüf etdiyini xatırladan Ali Məhkəmənin sədri qəbul olunmuş tədbirlər planına uyğun olaraq 2025-ci ilin ilk altı ayı ərzində keçirilmiş silsilə tədbirlər barədə məlumat verib və bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi tərəfindən hüquqi maarifləndirmə sahəsində diqqətəlayiq işlər həyata keçirilib və keçirilməkdədir. Ali Məhkəmə tərəfindən müxtəlif səpkili elmi-parktik konfranslar, muxtar respublika məhkəmələrinin sədr və hakimlərinin iştirakı ilə seminarlar keçirilib, seminarlarda təcrübədə hakimlərin qarşılaşdığı problemlər, onların həlli üsulları müzakirə edilib.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin gündəliyinə salınmış məsələlərə baxılıb, 2025-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kollegiyalarında baxılmış işlərə dair, həmçinin 2024-cü ildə Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən baxılıb nəticə verilmiş müxtəlif kateqoriyalı işlər üzrə qanunvericiliyin tətbiqi təcrübəsinin ümumiləşdirilməsinin nəticələri barədə məlumat verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi iclasa yekun vuraraq qeyd edib ki, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi öz fəaliyyətini qanunvericiliyin tələblərinə uyğun həyata keçirməklə məhkəmə hakimiyyətinin müstəqilliyinə və ədalət mühakiməsinin səmərəliliyinə, vətəndaş məmnuniyyətinin təmini və onların hüquqlarının bərpasına, eyni zamanda ədalət mühakiməsinə əlçatanlığın təmini və məhkəmələrin fəaliyyətinin şəffaflığına yönəlmiş fəaliyyətini davam etdirəcəkdir.

≈≈≈

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2 dekabr 2020-ci il tarixli sərəncamına əsasən, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq hər il sentyabrın 27-si Azərbaycanda Anım Günü kimi qeyd edilir.

Anım Günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və Naxçıvan şəhərində fəaliyyət göstərən məhkəmələrin

kollektivləri Vətən müharibəsi şəhidlərinin məzarlarını ziyarət edib, ölkəmizin bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə gül dəstələri qoyub, şəhidlərimizin əziz xatirəsini ehtiramla yad ediblər.

≈≈≈

Sentyabr ayının 30-da Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Səadət Bəktaşi iclasda iştirak edib.

İclasda çıxış edən Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov məhkəmə-hüquq sahəsində aparılan islahatlar, ədalət mühakiməsinin müasir çağırışlara uyğun təkmilləşdirilməsi istiqamətində görülmüş işlər və hazırda icraatda olan layihələr barədə məlumat verib.



İclasda "Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi qaydaları və metodologiyası" və "Azərbaycan Respublikası məhkəmələri tərəfindən xüsusi məlumatların verilməsi Qaydaları" layihələri ətrafında müzakirələr aparılıb və təsdiq edilib. "Hakimlərin təlim-tədris prosesinin təşkili üzrə İşçi Qrup"un yaradılması qərara alınıb.

Eyni zamanda intizam icraatlarının başlanılması və kadr məsələri ilə bağlı müvafiq qərarlar da qəbul edilib.

≈≈≈

2025-ci il oktyabrın 7-də Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun növbəti iclası keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Səadət Bəktaşi iclasda iştirak edib.

İclasda Ali Məhkəmənin məhkəmə kollegiyalarının tərkiblərinin, qanuni qüvvəyə minmiş məhkəmə aktlarına yeni açılmış hallar üzrə və əlavə kassasiya qaydasında yenidən baxılmasına dair məhkəmə tərkiblərinin və kassasiya instansiyası məhkəməsində məhkəmə aidiyyətinə dair mübahisələr üzrə şikayətlərə mülki, kommersiya və inzibati kollegiyalara daxil olan hakimlərdən ibarət qarışıq tərkibdə baxılmasına dair məhkəmə tərkibləri barədə plenum qərarlarında dəyişiklik edilməsi müzakirəyə çıxarılıb.

İclasda həmçinin "Şəxsiyyət (qeyri-əmlak) hüquqlarının müdafiəsi haqqında" Ali Məhkəmə Plenumunun Qərar layihəsi ilkin müzakirəyə çıxarılıb.

Eyni zamanda "İnzibati mübahisələrə dair işlər üzrə məhkəmə qaydasında tətbiq edilən müvəqqəti xarakterli müdafiə tədbirləri haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 2023-cü il 4 oktyabr tarixli 14 nömrəli Qərarında əlavə və dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərar layihəsi müzakirə olunub və müvafiq qərar qəbul edilib.



Sonra 2024-cü ildə və 2025-ci ilin I yarımilliyində Bakı İnzibati Məhkəməsində qanunvericiliyin tətbiqinin məhkəmə təcrübəsinə dair məsələləri və ədalət mühakiməsinin həyata keçirilməsi haqqında məlumatlar dinlənilib.

İclasda "Vəkillərin İxtisas Komissiyasının hakim olan üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2023-cü il 16 yanvar tarixli 4 nömrəli qərarında dəyişiklik edilməsi barədə məsələyə, həmçinin konkret işlərə baxılıb.

≈≈≈

Oktyabrın 12-də Bakı Konqres Mərkəzində Beynəlxalq Hakimlər Assosiasiyasının (IAJ – International Association of Judges) 67-ci Baş Assambleyası öz işinə başlayıb.

Assambleyanın açılış mərasimində dünyanın 71 ölkəsindən 300-ə yaxın nümayəndə, hakimlər, vəkillər, hökumət rəsmiləri və beynəlxalq təşkilatların təmsilçiləri, eləcə də tanınmış hüquqşünas-ekspertlər iştirak ediblər. Tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, süni intellekt obrazlarının təqdimatında ölkəmiz haqqında tanıtım videoçarxı nümayiş etdirilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Səadət Bəktaşi, həmçinin hakimlər Vüqar Quliyev və Mehdi Əliyev Assambleyada iştirak ediblər.

Azərbaycan Hakimlər İttifaqının sədri Ramiz Rzayev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci Baş Assambleyasının iştirakçılarına müraciətini oxuyub.

Açılış mərasimində çıxış edən Azərbaycan Respublikası Ali Məhkəməsinin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov bildirib ki, müstəqilliyimiz bərpa olunandan sonra Azərbaycan öz məhkəmə sistemini demokratiya, qanunçuluq və ədalət prinsipləri əsasında qurmağa




başlayıb. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə Konstitusiya hazırlanaraq qəbul olunub, orada hakimiyyət bölgüsü, qanunun aliliyi, insan ləyaqətinin təmin edilməsi və məhkəmə hakimiyyətinin müstəqilliyi ifadə edilib. Bu təməllər Prezident İlham Əliyev tərəfindən həyata keçirilən davamlı islahatlarla daha da möhkəmləndirilib. Diqqətə çatdırılıb ki, bu gün bütün dünyada ədalət mühakiməsi ölkələr arasında sıx əməkdaşlıq tələb edir. Bu istiqamətdə Beynəlxalq Hakimlər Assosiasiyasının rolu böyükdür, çünki ədalət mühakiməsinin bütün dünyada daha da təkmilləşdirilməsinə xidmət edir. Bildirilib ki, hazırda dünyanın məhkəmə sistemi qlobal çağırışlarla üz-üzədir və bunlara hazır olmalıdır.

Çıxışlardan sonra Beynəlxalq Hakimlər Assosiasiyasının "Məhkəmə müstəqilliyi mükafatı"nın təqdimetmə mərasimi keçirilib. Mükafatı Beynəlxalq Hakimlər Assosiasiyasının Baş katibi Giacomo Oberto təqdim edib.



Tədbir bədii hissə ilə davam edib.

Bununla yanaşı, tədbir çərçivəsində "Ədalət mühakiməsi rəmzləri" adlı sərgi təşkil olunub. Sərgidə dünyanın 80 ölkəsindən gətirilmiş 150-yə yaxın hakim, vəkil və dövlət ittihamçısına məxsus cübbələr, ordenlər, döş nişanları, markalar və pul əsginasları nümayiş etdirilib.

Baş Assambleya oktyabrın 17-dək davam edib.

≈≈≈

31 oktyabr 2025-ci il tarixində Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinin təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" və "Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin yaranmasının 100 illiyi"nə həsr olunmuş muxtar respublika məhkəmələri arasında intellektual bilik yarışı təşkil olunub.



Yarışın əsas məqsədi hüquqşünaslar arasında bilik mübadiləsini genişləndirmək, hüquqi maarifləndirməni təşviq etmək və məhkəmə əməkdaşlarının potensialını üzə çıxarmaq olub.

Açılış nitqi ilə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Aparat rəhbəri Gülay Qurbanova tədbir iştirakçılarını salamlayıb, intellektual oyunun məqsədləri barədə məlumat verib və onlara uğurlar arzulayıb.

Yarışın yekun nəticəsinə əsasən Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin əməkdaşı birinci, Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsinin əməkdaşı ikinci, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin əməkdaşı üçüncü yerdə qərarlaşıblar.

Sonda Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinin sədr müavini Müşfiq Həsənov qalibləri təbrik edərək onlara diplom və xatirə hədiyyəsi təqdim edib.

≈≈≈



Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində yeni təyin olunmuş və təqaüdə yola salınmış hakimlərlə görüş keçirilib.

2025-ci il oktyabrın 31-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Fərman Abbasovun Tərtər Rayon Hərbi Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin hakimi İlham İbrahimovun Kəngərli Rayon Məhkəməsinin sədri təyin olunmaları və Kəngərli Rayon Məhkəməsinin sədri Zülfüqar Əhmədovun təqaüdə yola salınması münasibətilə tədbir keçirilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi Zülfüqar Əhmədovun 2008-ci ildən hakim kimi çalışdığını, 2018-ci ildən isə Kəngərli Rayon Məhkəməsinin sədri kimi fəaliyyətini davam etdirdiyini diqqətə çatdırıb. Onun peşəkar və təcrübəli hakim kimi məhkəmə sisteminin inkişafına, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, qanunun aliliyinin təmin olunmasına mühüm töhfə verdiyi vurğulanıb.



Həmçinin Səadət Bəktaşi hakimlər Fərman Abbasov və İlham İbrahimovun yeni vəzifəyə təyin olunmaları ilə əlaqədar onları təbrik edərək gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Hakimlər isə öz növbəsində onlara göstərilən diqqət və qayğıya görə təşəkkür ediblər.

≈≈≈





Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kollektivi vətənin bütövlüyü uğrunda canından keçmiş Rzalı Daşqın Elşad oğlu, Məmmədov Sahib Yaşar oğlu və Seyidov Miryasin Mirqafar oğlunun ailələri ilə görüşüb, şəhidlərin əziz xatirəsini yad ediblər. Görüşlər zamanı bildirilib ki, Vətən müharibəsi və Antiterror əməliyyatında Müzəffər Ordumuz Ali Baş komandan İlham Əliyevin başçılığı ilə Qarabağı və digər ərazilərimizi işğaldan azad etməklə 30 illik yurd həsrətinə son qoydu. Azərbaycan Ordusunun əsgər və zabitləri, hərbçiləri döyüş meydanında əsl qəhrəmanlıq göstərərək Şanlı tariximizi möhtəşəm Qələbə ilə şərəfləndirdi. 2020-ci ilin sentyabr – noyabr aylarında 44 günlük Vətən müharibəsində əldə edilən Şanlı Zəfər milli tariximizin ən şərəfli səhifəsinə çevrildi.

Şəhidlərimizin ailələri qazanılan qələbədə övladlarının da payı olduğu üçün fəxr etdiklərini bildiriblər. Sonra şəhidlərimizin keçdikləri döyüş yolundan, xatirələrindən söhbət açılıb. Hər bir şəhidimizin hələ yeniyetmə yaşlardan milli təəssübkeşliyə, vətənpərvərliyə, mübarizliyə, mərdliyə malik olduqları vurğulanıb. Kollektiv üzvləri şəhidlərə Allahdan rəhmət, ailələrinə səbir diləyiblər.

Qeyd edək ki, şəhid Rzalı Daşqın Zəngilan rayonu, şəhid Sahib Məmmədov Cəbrayıl rayonu və şəhid Miryasin Seyidov Şuşa şəhəri istiqamətdə gedən döyüşlərdə şəhid olublar.

≈≈≈

2025-ci ilin noyabrın 5-də Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib.

İclasda çıxış edən Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov məhkəmə-hüquq sahəsində aparılan islahatlar, ədalət mühakiməsinin müasir çağırışlara uyğun təkmilləşdirilməsi istiqamətində görülmüş işlər və qarşıda duran vəzifələr barədə məlumat verib.

İclasda "İlk dəfə 3 il müddətinə təyin olunan hakimlərin təlimə cəlb edilməsi Qaydaları" layihəsi və "Azərbaycan Respublikası apellyasiya, ağır cinayətlər, hərbi, inzibati və kommersiya məhkəmələrinin ərazi yurisdiksiyası"nda dəyişiklik edilməsi barədə qərar layihəsi təsdiq edilib.

Daha sonra cari məsələlərə, o cümlədən hakimlər haqqında intizam icraatlarına baxılıb.



İclasda bəzi birinci və apellyasiya instansiya məhkəmələrinin, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Səadət Bəktaşinin hakimlik səlahiyyətlərinin həyata keçirilməsi üçün son yaş həddinə çatması ilə əlaqədar səlahiyyətlərinə xitam verilməsi və onların səmərəli fəaliyyətinə görə Məhkəmə-Hüquq Şurasının fəxri döş nişanı ilə təltif edilmələri barədə qərarlar qəbul edilib.

≈≈≈

## *Ali Məhkəmənin mətbuat xidmətindən*



Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və Naxçıvan şəhərində yerləşən məhkəmələrin kollektivləri Zəfər Abidəsini ziyarət ediblər.

Abidənin önünə gül dəstələri qoyulub, Vətənin bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi ehtiramla yad olunub.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" 2020-ci il 3 dekabr tarixli Sərəncamına əsasən Vətən müharibəsində misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il 8 noyabr tarixinin Azərbaycanda "Zəfər Günü" kimi qeyd edilməsi qərara alınıb. Bu gün bütün torpaqlarımızda üçrəngli bayrağımız əbədi dalğalanır. Bu hünər savaşında şirin canlarından keçən şəhidlərimizin əziz xatirəsi daim yaşadılır.

≈≈≈



2025-ci il noyabrın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində hakimlik səlahiyyətlərinin həyata keçirilməsi üçün son yaş həddinə çatması ilə əlaqədar səlahiyyətlərinə xitam verilmiş Məhkəmənin sabiq sədri Səadət Bəktaşi ilə görüş keçirilib.

Tədbiri Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədrinin müavini Müşfiq Həsənov açaraq Səadət Bəktaşinin ölkənin hüquq ictimaiyyətinə və məhkəmə sisteminə dəyərli töhfələrini vurğulayıb, onun həm hüquqşünas

kimi, həm də şəxsi keyfiyyətləri ilə daim örnək olduğunu bildirib, Səadət Bəktaşiyə sonraki fəaliyyətində uğur arzulayıb.

Tədbirdə çıxış edən Səadət Bəktaşi həm hakim, həm də məhkəmə sədri kimi fəaliyyəti zamanı ədalət mühakiməsinin səmərəliliyinin artırılması, qanunun aliliyinin təmin olunması və ona göstərilən etimadı doğrultmaq üçün çalışdığını bildirib, kollektivə öz xoş arzularını çatdırıb.

Daha sonra çıxış edən tədbir iştirakçıları Səadət Bəktaşiyə rəhbər kimi nümunəvi fəaliyyətinə görə təşəkkür edib, ona gələcək həyatında uğur arzulayıblar.

≈≈≈

Hakimlərin davamlı tədrisinin təkmilləşdirilməsi məqsədilə təlimçi hakimlərin müvafiq təlimlərə cəlb edilməsi üçün Məhkəmə-Hüquq Şurası tərəfindən zəruri tədbirlər həyata keçirilməkdədir.



Bu məqsədlə cari ilin 3-5 dekabr tarixlərində Şabran rayonunda təlimçi hakimlər təlim metodologiyası və hakim etikası mövzuları ətrafında uzunmüddətli təlimə cəlb ediliblər. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Mehdi Əliyev təlimdə iştirak edib.

Avropa İttifaqının layihə üzrə eksperti Marina Naumovskanın iştirakı ilə keçirilən təlimlərdə mövzular üzrə fikir mübadiləsi, müxtəlif kazuslar ətrafında müzakirələr aparılıb.

Həmçinin təlim müddətində hakimlərin asudə vaxtları səmərəli təşkil olunub.

≈≈≈

Dekabr ayının 6-da Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin 100 illik yubileyi münasibətilə ağacəkmə aksiyası keçirilib. Aksiya çərçivəsində Naxçıvan-Duzdağ avtomobil yolunun sol kənarında öncədən müəyyən olunmuş 1 hektar ərazidə 450 badam tingi əkilib, onlara ilkin aqrotexniki qulluq göstərilib.



Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə baş tutan aksiyanın keçirilməsində məqsəd ağac əkməklə ekoloji tarazlığın bərpasına, ətraf mühitin qorunmasına kömək etmək, atmosferi oksigenlə zənginləşdirmək, yaşıllıqların qorunmasına töhfə verməkdir.

≈≈≈

Dekabrın 12-də Ümummilli lider Heydər Əliyevin xatirəsi yad edilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və muxtar respublikada fəaliyyət göstərən birinci instansiya məhkəmələrinin kollektivləri Ulu Öndərin Naxçıvan şəhərində ucalan abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.

≈≈≈

Dekabrın 17-də Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri vəzifəsinə təyin olunmuş Aida Hüseyn kollektivə təqdim edilib.

Təqdimatdan öncə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Azərbaycan Respublikası Ali Məhkəməsinin sədr müavini Çingiz Əsgərov və Naxçıvan Muxtar



Respublikası Ali Məhkəməsinin yeni təyin olunmuş sədri Aida Hüseyn Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında ucalan abidəsini ziyarət edib, abidə önünə tər güllər düzüblər.



Sonra Heydər Əliyev Muzeyi ziyarət olunub. Muzeydə Ulu Öndərin zəngin dövlətçilik irsi, çoxşaxəli siyasi fəaliyyəti, o cümlədən mənalı ömrünün Naxçıvan mərhələsi haqqında ətraflı məlumat verilib. Diqqətə çatdırılıb ki, burada Ulu Öndərin ailəsinə, onun uşaqlıq və gənclik illərinə həsr olunmuş stendlər, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrə aid sənəd və materiallar, imzaladığı məktub, qərar, sərəncam və müqavilələrin surətləri nümayiş olunur.

Azərbaycan Respublikası Ali Məhkəməsinin sədr müavini Çingiz Əsgərov muzeyin xatirə kitabına ürək sözlərini yazıb.

Daha sonra Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində baş tutan təqdimat mərasimində çıxış edən Azərbaycan Respublikası Ali Məhkəməsinin sədr müavini Çingiz Əsgərov Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamını kollektivin diqqətinə çatdıraraq qeyd edib ki, Aida Hüseynin həm əvvəlki, həm də Azərbaycan Respublikasının Ali Məhkəməsində peşəkar, ədalətli və prinsipial fəaliyyəti yüksək qiymətləndirilərək Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri vəzifəsinə təyin olunub.



Çingiz Əsgərov hüquqi sahədə aparılan instutisional və qanunvericilik islahatları barədə məlumat verərək bildirib ki, ölkədə hakim sayının artırılması, hakimlərin iş yükünün azaldılması, texnoloji sahədə yeni yanaşmaların məhkəmə sistemində tətbiqinə dair həyata keçirilmiş və

gələcəkdə icrası nəzərdə tutulmuş tədbirlər ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına xidmət edir. Aida Hüseynin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri vəzifəsinə təyin olunması ölkədə aparılan bütün bu islahatların paralel olaraq Naxçıvan Muxtar Respublikasında da tətbiqi ilə yanaşı, Məhkəmədə mövcud olan gözəl ənənələrin davamına, sağlam və səmərəli komanda mühitinin qorunub saxlanmasına, Naxçıvanın ictimai və hüquqi mühitinin inkişafına töhfə verəcəkdir.

Daha sonra çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri vəzifəsinə təyin olunması münasibətilə Aida Hüseyni təbrik edərək ona fəaliyyətində uğur arzulayıb. Samir Seyidəhmədli bildirib ki, ölkənin bütün regionları kimi Naxçıvan Muxtar Respublikası da ölkə başçısının daim diqqət mərkəzindədir. Buna uyğun olaraq artıq "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı", bölgə rezidentlərinin 2026-cı il yanvarın 1-dən etibarən mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergilərdən və gömrük rüsumlarından azad edilmələri, muxtar respublikada azad iqtisadi zonanın yaradılması kimi qərarların icrası istiqamətində işlərə başlanıb və genişmiqyaslı layihələr




hazırlanıb. Bütün bu layihələrin həyata keçirilməsi üçün hüquqi mühitin tənzimlənməsində Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və muxtar respublikada fəaliyyət göstərən məhkəmələrin əhəmiyyəti danılmazdır. Samir Seyidəhmədli bildirib ki, bu prosesdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi lazımi dəstəyi göstərməyə hazırdır.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri vəzifəsinə təyin olunmuş Aida Hüseyn ona göstərilmiş etimada görə ölkə başçısına minnətdarlığını bildirib, öhdəsinə düşən vəzifənin şərəflə yerinə yetirilməsi üçün səylə çalışacağını qeyd edib.

## *Ali Məhkəmənin mətbuat xidmətindən*

≈≈≈



Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Aida Hüseyn Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin yurisdiksiyasına aid olan rayon (şəhər) və ixtisaslaşdırılmış məhkəmələrdə olub.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin rayon mərkəzlərində yerləşən abidəsi ziyarət edilərək önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram bildirilib.

Ali Məhkəmənin sədri Naxçıvan şəhərində yerləşən ixtisaslaşdırılmış məhkəmələrin, muxtar respublikada yerləşən rayon məhkəmələrinin və Naxçıvan Şəhər Məhkəməsinin inzibati binası, hakimlərin fəaliyyəti ilə tanış olub. Ziyarət zamanı Ali Məhkəmənin sədri mövcud olan maddi texniki bazaya, məhkəmələrin iclas otaqlarına, iş kabinetlərinə baxış keçirib, kollektivlə, onların iş şəraiti ilə maraqlanıb.

≈≈≈

2025-ci ilin dekabr ayının 29-da Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsinin hakimi təyin olunmuş Əziz Eminov və Babək Rayon Məhkəməsinin hakimi təyin olunmuş Aynur Əhmədova kollektivə təqdim olunub.



Təqdimat zamanı çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Aida Hüseyn yeni təyin olunmuş hakimləri təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Məhkəmənin

sədri bildirib ki, ədalət mühakiməsinin həyata keçirilməsində aşkarlığın və qərəzsizliyin daha dolğun şəkildə təmin edilməsi məqsədilə hakim korpusu yenilənir. Aida Hüseyn yeni təyin olunmuş hakimlərin əvvəlki fəaliyyətləri barədə məlumat verərək, onların öz fəaliyyətlərində qazandıqları təcrübənin məhkəmə hakimiyyətinin nüfuzunun möhkəmləndirilməsinə və cəmiyyətimizdə ədalət mühakiməsinə olan etimadın daha da artırılmasına töhfə verəcəyinə şübhə etmədiyini bildirib. Onlara qərəzsiz, ədalətli olmaq, hakimin müstəqilliyini və ləyaqətini qoruyub saxlamaq, yüksək hakim adına hörmət ruhunda davranmağı fəaliyyətlərində prioritet kimi müəyyən etmək tövsiyə edilib.

Sonra yeni vəzifələrə təyinat alan hakimlər çıxış edərək onlara göstərilən yüksək etimad üçün minnətdarlıqlarını bildirib, vəzifələrinin öhdəsindən layiqincə gəlməyə çalışacaqlarını qeyd ediblər.

≈≈≈≈≈≈≈≈≈
≈≈≈≈≈≈
≈≈≈

## “Hakim studiyası” televiziya verilişinin icmalı




2024-cü ilin fevral ayından etibarən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin yeni televiziya layihəsi start götürülmüşdür. Naxçıvan Dövlət Televiziyasının efirində Məhkəmənin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisinin təqdimatı ilə yayımlanan “Hakim Studiyası” televiziya verilişi əhali arasında hüquqi maarifləndirmə işinin aparılması, cəmiyyətin hüquqa çatımlılığına mümkün töhfənin verilməsi, hüquq ictimaiyyətinin qarşılıqlı fikir mübadiləsi apara biləcəyi və məlumatlanacağı platformanın yaradılması, ictimaiyyətin məhkəmə təcrübəsi barədə məlumatlandırılması, gənc və gələcək hüquqşünasların yararlana biləcəyi video formatlı hüquqi material bazasının zənginləşdirilməsi məqsədilə hazırlanmışdır. Muxtar respublikada fəaliyyət göstərən məhkəmələrin hakimlərinin və aiddiyəti dövlət orqanlarının nümayəndələrinin dəvət olunduğu verilişin hər sayında hüququn müxtəlif sahələri barədə nəzəri məlumatlarla yanaşı qanunvericiliyin tələbləri və formalaşmış məhkəmə təcrübəsi barədə tamaşaçılara ətraflı məlumatlar verilir.

**28 iyul 2025-ci il tarixdə** "Hakim Studiyası" verilişinin növbəti sayı təqdim olunub. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədrinin müavini Müşfiq Həsənovun iştirak etdiyi buraxılış əlilliyə görə müavinətin və pensiyanın təyin olunması əsaslarına həsr olunub. Verilişdə əlilliyin hüquqi anlayışı, əlilliyin müəyyən edilməsi üçün şəxsin əməl etməli olduğu hüquqi proseduralar, əlilliyi müəyyən edən orqan, əlilliyin səbəbli əlaqəsi və əlilliyin dərəcələrinin müəyyən olunması qaydası, əlilliyin yenidən qiymətləndirilməsi qaydası, əlilliyi müəyyən edilmiş şəxsin qanunvericiliyə əsasən hüquqları, şəxsə əlilliklə bağlı müavinət və ya əmək pensiyasının ödənməsinə başlanılmalı olan tarix, əlilliyə görə əmək pensiyasının təyin olunması qaydası, əlilliklə bağlı mübahisələrin həll olunması qaydası, əlilliyin təyin olunmasından imtinaya dair qərarın məhkəmədə mübahisələndirilməsi prosedurları və s. müzakirə olunmuşdur.



**13 avqust 2025-ci il tarixdə** təqdim olunmuş "Hakim Studiyası" verilişinin növbəti sayında Naxçıvan Şəhər Məhkəməsinin hakimi Gülnar Səfərəliyeva iştirak edib. Veriliş nikahın pozulması və uşağın hansı valideynin yanında saxlanması ilə bağlı iddialara həsr olunub. Verilişdə nikahın pozulması qaydası, nikahın məhkəmədən kənar və məhkəmə qaydasında pozulması halları, nikahın pozulmasını tələb edən tərəfin təqdim etməli olduğu sənədlər və təqdim olunma qaydaları, tərəflərdən birinin nikahın



pozulmasında israr etdiyi, digər tərəfin isə razılıq vermədiyi situasiyada mübahisənin həlli təcrübəsi, tərəflərin hər ikisinin tələb etdiyi halda məhkəmənin barışıq üçün vaxt təyin etmədən nikahı ləğv etməsinin mümkün olub-olmaması, nikahın pozulması haqqında iddiaya baxılarkən məhkəmənin həll etməli olduğu məsələlər, uşağın hansı valideynin yanında saxlanması ilə bağlı qərar verərkən nəzərə alınmalı məqamlar, hər iki tərəfin eyni iqtisadi göstəricilərə malik olması və uşaqla bərabər keyfiyyətdə ünsiyyət qurulması halında məhkəmə qərarında diqqət olunmalı hallar, məhkəmə araşdırması zamanı valideynlərdən heç birinin uşağın maddi və mənəvi ehtiyaclarını qarşılamağa qadir olmadığı aşkarlanarsa məhkəmənin uşağın üstün mənafeyi üçün atmalı olduğu addımlar, ikinci dərəcəli qohumların uşağın saxlanması üçün məhkəməyə müraciət imkanları, müəyyən yaş həddinə çatmış uşaqlardan biri ananın, digəri atanın yanında qalmağı arzu edərsə məhkəmənin uşaqların kimin yanında qalmasını müəyyən edərkən nəzərə aldığı hallar, uşaqların birlikdəliklərinin qorunması və onların hansı valideynlə yaşamaq barədə iradələri arasında balans və s. müzakirə olunmuşdur.



**29 sentyabr 2025-ci il tarixdə** "Hakim Studiyası" verilişinin növbəti sayı təqdim olunub. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Zamiq Əliyevin iştirak etdiyi buraxılış valideynlik hüquqlarından məhrum etməyə həsr olunub. Verilişdə valideyn hüquqlarından məhrum etmə barədə iddia vermək hüququ olan şəxslər, bu iddialarda subyektiv hüquq, bu qəbildən iddiaların obyektini təşkil edən valideynlik hüquqlarının dairəsi, valideynlik hüquqlarından məhrum etmə üçün əsaslar, valideynlik hüquqlarından məhrum etmə barədə mübahisələri həll edən orqan, bu mübahisələr üzrə müraciət qaydası və təqdim olunmalı sübutlar, şəxsin ərinə (arvadına) münasibətinin, yaxud onun cəmiyyətdəki mövqeyi kimi birbaşa uşağa

yönəlməyən hərəkətlərinin valideynlik hüquqlarından məhrum etməyə əsas olmasının mümkün olub-olmaması, şəxsin valideynlik vəzifələrini icra etməməsinin onun valideynlik hüquqlarına xitam verilməsinə əsas ola biləcəyi hallar, valideynin üzrlü səbəblərdən öz borcunu yerinə yetirə və ya alimenti ödəyə bilməməsinin onun valideynlik hüquqlarına xitam verilməsi üçün əsas olub-olmaması, valideynlik hüquqlarından məhrum etmənin nəticələri, məhkəmənin bu iddiaya baxdığı müddətdə uşağın kimin yanında saxlanılması, valideynlik hüquqlarından məhrum edilmiş şəxsin yenidən bu hüquqlarının bərpasının mümkün olub-olmaması və şərtləri, valideynlik hüquqlarından tam məhrum edilmədən şəxsin hüquqlarının məhdudlaşdırılması imkanı, belə məhdudlaşmanın nəticələri, valideynlik hüquqları məhdudlaşdırılmış şəxsin uşaqla ünsiyyəti qaydası və s. müzakirə olunmuşdur.

**13 oktyabr 2025-ci il tarixdə** “Hakim Studiyası” verilişinin növbəti sayı təqdim olunub. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Mehdi Əliyev, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi olmuş, hazırda Tərtər Hərbi Məhkəməsinin sədri Fərman Abbasov və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sabiq hakimi Əli Allahverdiyevin iştirak etdikləri buraxılış **Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin 100 illik yubileyinə** həsr olunub. Verilişdə Azərbaycanın məhkəmə və hüquq tarixi, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin ölkənin hüquq tarixindəki yeri, bu Məhkəmənin özünün tarixi, müstəqilliyin bərpasından sonra ədalət mühakiməsinin həyata keçirilməsində Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin rolu, Məhkəmənin strukturu, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində ədalət mühakiməsinin həyata keçirilməsinin müasir standartlara uyğunlaşdırılması, Məhkəmənin muxtar respublikanın hüquq mühitinə təsiri, hüquqşünas yetişdirilməsində rolu və s. müzakirə olunmuşdur.



## *Hakim studiyası*



**27 oktyabr 2025-ci il tarixdə** Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Mehdi Əliyevin iştirak etdiyi “Hakim Studiyası” verilişinin növbəti sayı texnoloji yeniliklərin hüquq və məhkəmə sistemində istifadəsinə həsr olunub. Verilişdə texnoloji yeniliklərin Azərbaycan məhkəmə sisteminə inteqrasiya olunmasının miqyası, ədalət mühakiməsinin tətbiqində texnoloji imkanların tətbiq olunması vəziyyəti, Elektron məhkəmə sisteminin məhkəmə icraatındakı funksiyası, bu sistemin hüquqi təsisatlara tam inteqrasiyası prosesinin hansı mərhələdə olması, məhkəməyə müraciət edən şəxslərin elektron məhkəmə portalından istifadə etmədən yalnız kağız daşıyıcılarla müraciət edə bilmə imkanları, portaldan istifadə qaydaları, tamamilə elektron sistemə inteqrasiya olunmuş formada ədalət mühakiməsinin aparılmasının mümkünlüyü, işlərə tam kağızsız və distant formada baxılması perspektivi, bu halda sübutların təqdim olunması və elektron sübutların qəbuledilənliyi prosedurlarında gələcəkdə fərqli hüquqi yanaşma gözləntisi, texnoloji yeniliklərin məhkəmə sistemində tətbiqi təcrübəsinə əsaslanaraq bu yeniliklərin tətbiqinin işin keyfiyyətinə və produktivliyinə təsir imkanı, süni intellektin sürətlə bütün sahələrdə istifadə olunmağa başladığı bir dövrdə elektron sistemlərin məhkəmə-hüquq sistemində tətbiqinin bərabərində gətirdiyi risklər və s. müzakirə olunmuşdur.

≈≈≈≈≈≈≈≈≈≈

≈≈≈≈≈≈

≈≈≈

**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**ALİ MƏHKƏMƏSİNİN BÜLLETENİ**

4700000000
053-2022

Yığılmağa verilmiş: 12.01.2026.
Çapa imzalanmış: 19.02.2026.
Formatı 70x100 1/8 “Tayms” qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 8 ç.v.
Sifariş № 35. Tiraj 100 nüsxə.

“Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 14.